ƏŞİR BƏŞİROĞLU

# HAMININ SEVİMLİSİ

## (H.Z. Tağiyev haqqında)

Bakı-“Təknur”-2012

**Redaktor:** **Bəhram Salman oğlu Avilov, Fəlsəfə doktoru**

**Korrektor:** **Zərifə İsmayıl qızı Rzayeva,**

**Filologiya elmləri namizədi, dosent.**

# Əşir Bəşiroğlu. Hamının sevimlisi

# (H.Z.Tağıyev haqqında)

**Bakı: "Təknur" nəşriyyatı, 2012 səh.**

**Bu kitab şair Əşir Bəşiroğlunun oxucularla 11-cu görşüdür.**

**Kitabda xalqımızın böyük oğlu, xeyriyyəçi, hamının sevimlisi, məşhur milyonçu H.Z. Tağıyevin fəaliyyətindən söhbət açılır.**

**Ə.Bəşiroğlu, 2012**

**MÜƏLLİF HAQQINDA**



Əşir Bəşiroğlu (Fətəliyev Əşir Bəşir oğlu) 3 noyabr 1935-ci ildə Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olub. 1953-cü ildə Xanlıq kənd orta məktəbini bitirib. 1954-1957-ci illərdə hərbi xidmətdə olub. 1958-ci ildən 1969-cu ilə qədər Sumqayıt Aliminium zavodunda fəhlə, növbə rəisi və sex partiya komitəsinin katibi işləmişdir. Dəfələrlə Sumqayıt şəhər sovetinin deputatı və konfrans nümayəndəsi seçilmişdir. İşləyə-işləyə təhsilini davam etdirmişdir. O, əvvəlcə Bakı Statistika Texnikumunu, sonra isə V.İ.Lenin adına APİ-ni bitirmişdir. İnstitutu qurtaran ildən anadan olduğu Mollu kənd orta məktəbində müəllim işləmişdir. 03.11.1970-ci ildə Mollu kəndindəki "Qaçaq Nəbi" adına kolxoza kolxoz idarə heyətinin sədri seçilmişdir. İşlədiyi müddətdə kolxoz Keçici Qırmızı Bayraq, o, özü isə fəxri fərman və döş nişanı ilə təltif olunmuşdur. 25 dekabr 1975-ci ildə səhəti ilə əlaqədar vəzifədən çıxmışdır. Yenə də Aşağı Mollu kənd orta məktəbində müəllim işləmişdir. Hal-hazırda o məktəb Sumqayıt şəhərində fəaliyyət göstərir.

İri həcmli 10 kitab yazıb oxuculara təqdim etmişdir. Bu kitab şairin oxucularla 11-ci görüşüdür. Onun əvvəlki kitabları oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Biz inanrıq ki, bu kitab da oxucular tərəfindən rəğbətlə qarşılanacaqdır.

Şair Əşir Bəşiroğlu Azərbaycan KİVİNİ-nin və Azərbaycan yazıçılar birliyinin üzvüdür.

"Qızıl qələm" və "Xalqın nüfuzlu ziyalısı" fəxri diplomları mükafatı laureatıdır.

*Əşir Bəşiroğlu*

## TARİXİN QAN YADDAŞI

Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir.

1. Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər, Sahəsi: 4400 kv.km
2. Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990). Sahəsi: 19 kv.km
3. Laçın (17 may 1992). Sahəsi: 1835 kv.km
4. Kəlbəcər (3-4 aprel 1993). Sahəsi: 1936 kv.km
5. Ağdam (23 iyul 1993). Sahəsi: 1094 kv.km
6. Cəbrayıl (18 avqust 1993). Sahəsi: 1059 kv.km
7. Füzuli (23 avqust 1993). Sahəsi: 1386 kv.km
8. Qubadlı (31 avqust 1993). Sahəsi: 802 kv.km
9. Zəngilan (30 oktyabr 1993). Sahəsi: 707 kv.km

Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur. Mən əminəm ki, bizim qəhrəman milli ordumuz tezliklə bu torpaqları düşmən tapdağından azad edəcəkdir. Siz də əmin olun, mənim istəkli həmvətənlərim! Amin...

## ÖN SÖZ

Bizim ana torpağımızda nəsillər bir-birini əvəz etmiş, dünyanın pəncərəsindən çoxları baxıb keçmişlər. Dünyaya göz açmış baba və nənələrimiz yaşayıb-yaratmış, əkib-biçmiş, dünyaya yeni nəsil gətirmiş, bəzi cavan, bəzi ahıl yaşında dünyaya göz yummuş və dünyalarını dəyişmişlər.

Tarixçilərin dediklərinə görə, iki ayaq üstündə yeriyən varlıqlar milyon yarım-iki milyon il bundan qabaq yaşamışlar. Yer kürəsinin tarixi isə daha qədimdir. Bu iki ayaqlılar insandan çox meymuna bənzəmiş, uzun illər təkamül yolu keçdikdən sonra təxminən 350-400 min il bundan əvvəl insana oxşamağa başlamışlar. Mağaralarda yaşayıb və əşyalar düzəltməyə başlayıblar. Yer kürəsində belə mağaralardan biri, bəlkə də ən qədimi bizim yurdumuzda Quruçay yaxınlığında olmuşdur - Azıx mağarası. Lakin müasir insanlara bənzər, şüurlu insanlar, bizim ulu baba və nənələrimiz otuz-qırx min il bundan qabaq yaşamışlar. Bu nənə və babalarımızın hamısı eyni təbiətli, eyni xasiyyətli olmamış, biri işlək, o biri tənbəl, biri hər şeyi bilməyə çalışan, o biri hər şeyə laqeyd, biganə olmuşdur. Biri yaratmaq eşqiylə yanan, o biri yanmamış külə dönən olmuşdur. Yaradıcı insanlar da bir-birindən fərqlənmişlər. Bəzi öyrənmiş, bilmiş, yaratmış yalnız onun dövrü ilə səslənmiş və o öləndə yaratdığı da ölmüşdür. Belə yaradıcı insanlar icərisində çox nadirləri olmuşdur ki, yaratdıqları nəsildən-nəsilə keçmiş və onu yaradanı yaşatmışdır. Belə xoşbəxt yaradıcı insanlar isə barmaqla sayılacaq qədər az olmuşdur. O dövrdən başlayaraq bir nəsil digərini əvəz etmiş, dövlətlər yaranmış, dağılmış, yenisi yaranmış, yenə dağılmış, nəsillər, insanlar gəlib getmiş, xalqlar, millətlər yaranmış, hər xalq özünün bu və ya digər görkəmli oğlunu, yaxud qızını yetişdirmiş, xalq ölüb getmiş onların da böyük əksəriyyətinin adları tarix səhifəsindən silinmiş və unudulmuşdur. Lakin xalqların hamısı ölmür, yaşayır, yaradır, ona mənsub olan insan nəsilləri bir-birini əvəz edir, gəlir, gedir. Eləsi də olur ki, onların qoyub getdikləri yadigarlar yaşayır, illər, yüzilliklər keçir, qoyub getdikləri yadigarlar öz sahiblərinin adlarını yaşadır, əbədiləşdirir. Hər xalq öz yaradıcı insanlarını yaşadır və onu başqa xalqlara tanıdır.

*Əşir Bəşiroğlu*

Xalqların sayca böyük kiçikliyindən asılı olmayaraq onların yetişdirdikləri böyük şəxsiyyətlər cismən həyatdan köçsələr də yaşayırlar və ən azı məxsus olduqları xalq nə qədər yaşasa onlar da yaşayacaqdır. Onların adları kimi yadigarları da yaşayacaqdır. Hər xalq özünün belə oğulları, qızları ilə fəxr edir, onların adlarını həmişə fəxrlə çəkirlər. Yüzilliklərini, iki yüzilliklərini, beş yüzilliklərini təntənəli surətdə qeyd edirlər.

Belə şəxsiyyətlərə malik olan xoşbəxt xalqımız özünün böyük yaradıcı qızlarını və oğullarını yaşatmış, bizim günlərə gətirib çıxartmışlar. Ancaq xalq bəzi hallarda yaşamaq hüququna malik yaşatmaqda müstəqil olmamışdır. Dövran, siyasi quruluş, cəmiyyət, həmin quruluşun istək və amalları ilə səslənməyən yaradıcı adamları unutmağa çalışmış, hətta həmin yaradıcı insanların adlarını bir müddət tarixin səhifələrindən çıxara da bilmişdir. Ancaq xalqın hafizəsinə həkk olmuş qüdrətli şəxsiyyətləri çıxarıb atmaq mümkün deyildi. Onları unutdurmağa çalışan cəmiyyət yalnız dilləri bağlaya bilərdi, hafizəyə nüfuz edə bilməzdi, bilmədi də. Şərait yaranan kimi xalq öz hafizəsindəkini dilinə gətirdi, o böyük şəxsiyyətləri nəsillərə qaytardı. Bizim nəslin yaşadığı dövr, bəşər tarixində ən əcaib dövr, bolşevizm, sosiolizm, kommunizm ideyalarının hakim kəsildiyi dövrü olmuşdur. Düz söz danışanın dili kəsildiyi bu dövrdə düşünən beyinlərin məhv edildiyi, ağı qara, qaranı ağ etməyə məcbur edildiyimiz bu dövrdə xalqımızın ən yaxşı oğul və qızları məhv edildi, onların, eləcə də yurdumuzun bolşevizm taununa məruz qalmasından qabaq yaşamış yaradıcılarımızın adlarının dilə gətirilməsi qadağa edildi. Tarixdə yetmiş ildən bir qədər artıq ömür sürmüş belə əcaib bir cəmiyyət bəlkə də heç vaxt olmayıb. Cəsarətlə söyləmək olar ki, quldarlıq dövründə də düşünən insanın, düşünmək qabiliyyəti olan insanın qiyməti bizim yaşadığımız sosiolizm cəmiyyətində olduğundan qat-qat yüksək olub.

Tarixin öz yaddaşı var. Tarix boyu yaşamaq hüququnu əldə etmiş heç kimi ona zorla unutdurmaq olmaz. Sular duruldduqda onun dibindəki hər şey ortaya çıxdığı kimi, cəmiyyət həyatında böyük rol oynamış, xüsusi fəaliyyəti olmuş şəxsiyyətlər də eləcə təzədən üzə çıxır. Xatirələrdə hər şey yerbəyer edilir. Sahmana düşür, ağ ləkələr ləğv olunur, unutqanlıq pərdəsi qaldırılır.

***Hamının Sevimlisi***

Bizim yaşadığımız günlərdə də belə olmuşdur. Komunnist partiyasının yaratdığı ən əcaib müstəmləkə zülmündən azad olduqdan sonra əldə etdiyimiz dövlət müstəqilliyimiz əlimizdən alınmış çox şeyi bizə qaytardı. Ağ ilə qaranı seçməyə başladıq. Susmuş vicdanımızın səsini təzədən eşitdik, illərlə adları qadağanlar siyahısına düşənləri xatırladıq, axı adlarını çəkmək mümkün olmasa da, onların xatirəsi xalqın qəlbində yaşayırdı. Keçmişdən bizə yadigar qalmışları unutmamışdıq. Gizlini gizlin, aşkarı aşkar yada salırdıq. Belə şəxsiyyətlərin cəmiyyətimizin inkişafında, tariximizin tərəqqisində xidməti varsa, həmişə yad edilmiş, edilir, xatirələri əziz tutulur.

Orta yüzilliklərdə yaşamış görkəmli Azərbaycan şairi Sahib Təbrizi öz şeirlərinin birində insana müraciətlə demişdir: - "Yadında varmı ki, sən bu dünyaya gələndə hamı gülür, sevinir, sən isə ağlayırdın. Həyatda elə et ki, sən bu dünyanı tərk edərkən hamı ağlasın, sən isə gülləsən... Həyatdan alnı açıq, vüqarla gedəsən".

Bəli, belələri olub, var və olacaqdır. Bizim xalqımızın da belə oğul və qızları olmuşdur, indi də var, gələcəkdə olacağı da şübhəsizdir. Kim unuda bilər, hələ iki min beş yüz il bundan əvvəl yaradılmış qüdrətli dövlətimizin başçısı, Kir-Keyxosrov kimi fatehi diz çökdürən Tomris ananı? Minnətdarlıqla, qürur hissilə adını çəkdiyimiz XV yüzilliyin görkəmli diplomat qadınımız Sara Xatunun adını xalqımız heç zaman unutmayacaq.

Azərbaycan xalqı orta yüzilliklərdə Nizami, Xəqani, Məhsəti xanım, Şah İsmayıl, Fizuli, Vaqif, XIX-XX yüzilliklərdə A.A.Bakıxanov, H.B.Zərdabi, X.B.Natəvan, M.F.Axundov, S.Ə.Şirvani, M.Ə.Sabir, Üzeyir Hacıbəyov, M.Ə.Rəsulzadə, Əhməd bəy Ağaoğlu, Əlibəy Hüseynzadə, Hüseyn Cavid, Süleyman Rəhimov, Əli Vəliyev, Səməd Vurğun və yüzlərlə başqalarını yetişdirmiş, onlarla fəxr edir, onları yaşadır. Başqa xalqların da belə böyük oğul və qızları var. Onları yaşadırlar. Kimlərdi bu böyük şəxsiyyətlər: - Əsasən şairlər, yazıçılar, bəstəkarlar, dövlət xadimləri və başqaları. Bizim xalqımız da tarixə düşən belə böyük oğul-qızları elə həmin qəbildən olan şəxsiyyətlərdi. Xalqımızın bir böyük oğlu da var, o, nə şairdi, nə yazıçı, nə bəstəkardı, nə heykəltaraşdı, nə də dövlət xadimi. O, sadəcə olaraq

zəhmətkeş, qəlbi dağlar qədər böyük, xalqı üçün yanan, xalq içindən çıxıb varlanan, lakin bu varını bütə döndərməyən, onu xalq üçün sərf edən böyük şəxsiyyətdir. Bu şəxs Hacı Zeynalabdin Tağıyevdir.

"Hacı Zeynalabdin Tağıyevin əlli illik məişəti və camaata xidmətləri" adlı kitabçasında (Bakı, 1900) N.Nərimanov yazırdı: - Müsəlmanlardan bu qeyrətdə olanlarını görməmişiksə də adlarını tarixdə oxuyuruz və düşünürük ki, millət yolunda can qoyanlar bizlərdə də var imiş. Bu Zati-möhtərəmlər hər əsrdə olublar, indidə var, gələcəkdə də olacaqdır. Ümum xeyirdən ötrü bu əsri- hazırda insafımız rəva görməyir ki, cənab Hacı Zeynalabdin Tağıyevi nəzərimizdən keçirməyək, ta gələcəkdə millətin balaları bu cənabın, millətə qeyrətini, vətənə məhəbbətini, insana himmətini və həmiyyətini tarixdə oxuyub gözləri rövşan və qəlbləri şad olsun. Həqiqət hal! Bu zat-möhtərəm bir qeyri-zatdır, ruzidir Allah bizlərə bəxşiş edibdir. Bu zat millət böyüyü, ruzigarın əvəzsiz böyüyü olub. Adını tarixə salmaya bilərikmi?"

Kitabça bu sözlərlə bitir: - "Əhli-qələm qardaşlarımız, bunların millətə olan xidmətlərini nəzərə alıb millət tarixinin səhifələrinə, tainki gələcəkdə balalarımızın oxuyub qəlbləri şad olsun və gözləri açılsın. Bilsinlər ki, bizdə də millət qeyrətini çəkənlər var imiş. Düşünsünlər ki, hərçənd bu şəxslər qeyri-bəqayə köçüblər, onlarla belə isimləri millətin dilində hörmətlə çəkilir."

Bəli, biz H.Z.Tağıyevi unuda bilmirik. Bu kitabımız da onun xatirəsinə kiçik bir hədiyyədir. Onun adı uşaqdan tutmuş böyüyə qədər hamının dillər əzbəri olmuşdur. O, təkcə Azərbaycanda deyil, bütün Rusiyada, hətta onun sərhədlərindən çox-çox uzaqlarda da tanınırdı, hamı onu böyük ehtiramla "Hacı" – deyə çağırırdı.

## H.Z.TAĞIYEV HAQQINDA QISA MƏLUMAT

Hacı Zeynalabdin Tağıyev – məhşur azərbaycanlı milyonçu, mesenat, Rusiya İmperiyasının Həqiqi Dövlət Müşaviri, müsəlman Şərqində ilk qızlar məktəbinin (Tağıyevin qızlar məktəbi) yaradıcısıdır.

Hacı Zeynalabdin Tağıyev 1823-cü ildə Bakıda kasıb başmaqçı ailəsində anadan olmuşdur. Anası Ümmü xanım Zeynalabdinin 10 yaşı olanda vəfat edir. Kiçik Zeynalabdin uşaqlıqdan təmkinli və zəhmətkeş idi. On yaşında atası onu bir bənnanın

yanına usta köməkçisi işinə düzəldir. 12 yaşına çatanda o artıq daş yonurdu, 15 yaşında ikən bənnalıq etməyə başlamışdı. Bir müddətdən sonra tikinti ustası və təşkilatçısı kimi tanınmağa başlayır.

Müəyyən qədər vəsait toplayaraq Tağıyev artıq 20 yaşında ev tikintisi və daşyonma işləri təşkil edir. Özünün sonrakı tikinti işlərinə də şəxsən nəzarət edirdi. Tikdirdiyi binalarda, məsələn, özünün yaşadığı binada və şəxsən açdırdığı qızlar gimnaziyasının binasında (indi burada Tarix Muzeyi və AMEA Əlyazmalar İnstitutu yerləşir) onun dəsti-xətti hiss edilir. Sonradan o özünü ticarətdə və yüngül sənayedə də sınayır. Hər ikisində qabiliyyəti ilə uğur qazanır, dükanlara və manufakturaya sahib olur. 1870-ci ildə onun artıq iki qazanxanadan ibarət kerosin zavodu var idi. Kerosin zavodu ilə yanaşı o sonradan möhtəşəm olacaq "Г.З.А.Тагиев" şirkəti yaradır.

Bütün müsəlman aləmində tanınmış milyonçu – neftxudanı Bakıdakı müsəlman, rus, erməni və yəhudi cəmiyyəti xeyriyyələrinin hamısı özlərinə fəxri sədr seçmişdilər. Bu dövrlərdə Bakı əsl neft səltənətinə çevrilmişdi. Bakı ətrafındakı kəndlərdə torpaqlar Rusiyadan və xaricdən gəlmiş sərməyədarlar tərəfindən alınıb, onlarda neft buruqları ucaldılırdı. Bu Hacını da maraqlandırır və podratçılığı buraxaraq, neft işinə qurşanır. Bu işə başlarkən onun riskli olduğunu da bilirdi. Adamlar var ki, ətək-ətək pul töküb, quyu qazdırır, lakin quyu neft vermirdi.

1873-cü ildə iki nəfərlə şərik olub Bibiheybətdə icarəyə yer götürür. Avadanlıq alır, usta və əmələlər tutur, buruq qurdurub quyu qazdırmağa başlayır. Günbəgün xərc artır, neft isə görünmür. Şəriklər ümüdlərini itirir – öz paylarını satmağa müştəri axtarırlar, axırda Hacı özü onların pulunu verib buruğa və yerə yiyələnir. İş daha da ağır gedir. Nəhayət, quyu gözlənilmədən fantan vurur. Başmaqçı Tağının oğlu palçıqçı Zeynalabdin dönür olur milyonçu Tağıyev. Üç ilə şəhərin mərkəzində (1895-1897-ci illər) böyük bir saray tikdirir. Bu kaşanənin hər dörd fasadı və damdakı nəhəng qübbələr diqqəti uzaqdan cəlb edir. Bir üzü Bariyantinski, digəri Starıy politseyski, üçüncüsü Merkuri, dördüncüsü isə Qarçakov küçələrinə baxır; hər cəhətdən, həm xarici arxitekturasına, həm də daxili bər-bəzəyinə görə şəhərin ən

yaraşıqlı binalarından biridir. Layihənin müəllifi Qoslavski əsasən Avropa order memarlıq üslübundan istifadə edib, fərdi kompozisiya yaradıb (Azərbaycan tarixi muzeyi). Binanın hər dörd tinində və baş girəcəyinin qabağında nəhəng qaz fanarı yanırdı, gecələr bu aralar işığa qərq olar, yerə iynə düşsəydi tapılardı.

Tağıyev həm neftxuda, həm dəyirman sahibi, həm fabrikant, həm böyük balıq sənayeçisi (bütün Kür ətrafı və Xəzər qırağı vətəgələr onun ixtiyarında idi), həm də ticarət və yük gəmilərinin sahibi idi. Quba tərəfdə Atlixanda, Yevlax ətrafında böyük meşələri vardı. Ənzəli və Rəşt ərazisində də Hacının meşələri, böyük malikanəsi, binaları və nümayəndəliyi, başqa şəhərlərdə, o cümlədən Moskvada 4 mərtəbəli iri sarayı, İranda karvansaraları vardı.

İmperator II Nikolayın qardaşı böyük knyaz Mixail Aleksandroviç polyak qızına evlənib, taxt-tacından əl götürəndən sonra Tağıyevdən xahiş edir ki, Yevlax ətrafı meşələrdə ov edib dincəlməyə ona icazə versin. O, Hacıya cəvahiratla bəzədilmiş bir qızıl çarka (peymanə) bəxşiş göndərmişdi. Xəzərin Azərbaycan sahillərindən tutmuş Dağıstanın sahillərinə, Dərbənd, Port-Petrovsk (indiki Mahaçqala) daxil olmaqla uzunluğu 300 kilometr olan torpaq sahəsi alıb vətəgə salmışdı. Kür qırağındakı vətəgələri dövlətdən icarəyə götürmüşdü.

O zamanlar dustaqları Nargin adasında saxlayırdılar. Camaat ora gedib-gələndə yaman əziyyət çəkirdi. Axırda Zeynalabdinə müraciət edirlər ki, bu işdə bizə kömək elə, dərdimizə bir çarə qıl. O da, o zaman şəhərin ucqar yeri hesab edilən Quba (Füzuli) meydanı ilə Kömürçü meydanı arasında tikdirdiyi beşmərtəbəli dəyimanı (indiki şirniyyat fabrikini) düstaqxana üçün verir. Bu barədə digər bir rəvayət də var. Bakıya yüksək rütbəli təzə məmur təyin edilir. Hacı onun görüşünə gedir və deyir ki, sizə nə kömək lazımsa, utanmayın, söyləyin, mən padşahlıqdan heç nə müzayiqə edən deyiləm. Yüksək rütbəli şəxs izah edir ki, “dustaqları Nargin adasında saxlayırıq, işçilər gedib-qayıtmağa çox vaxt sərf edirlər. Həm də əziyyət çəkirlər; mümkünsə bu işdə bizə kömək edin”. Hacı Zeynalabdin tikilib qurtarmış dəyirman binasını dustaqxana üçün hökümətə verir. Xaricdən gətirdiyi dəyirman avadanlığını toxuculuq fabriki yerləşən əraziyə daşıtdırır, orda dəyirman tikdirir. Özü və ailəsi

yaşamaq üçün fabrikin yaxınlığında xüsusi mülk tikdirmişdi və vaxtaşırı orda qalırdılar.

“Mazut” şirkətinin yaranması ilə əlaqədar, yerli varlılardan Çolaq Ağabala Quliyevin başçılığı ilə “Bakı-Batum” neft kəməri aksioner şirkətini yaradırlar.

O zaman üçün nəhəng inşaat hesab edilən bu neft kəməri Bakıdan başlayaraq Kür düzənliyindən keçib, Qafqaz dağlarının ətəyini və Suram qalasının yamancını aşıb, Reon düzənliyindən ötərək 800 kilometr məsafədə uzanıb Xəzər sahilini Qara dəniz sahiliylə birləşdirəcəkdi. Bakı neft okeanlara, uzaq-uzaq ölkələrə, beynalxalq bazarlara yol açacaqdı.

Kəməri uzatmağa 1897-ci ildə başlayıb, 1907-ci ildə (10 ilə) tamamlamışdılar.

1901-ci ildə 300 min manatlıq vəsait sərf edərək, Bakıda ilk qızlar məktəbi tikdirir. Bu bütün Zaqafqaziyada yeganə qızlar məktəbi idi. Binanı 1898-ci ildə tikməyə başlayırlar. 1900-cü ildə hazır olur. Bu məktəb Nikolayevski (Kommunist) küçəsində (Azərbaycan SSR Elmlər Akademiyasının Əlyazmaları fondunun binası) yerləşir.

Qızlar məktəbinin binası memarlıq baxımından Azərbaycan memarlığının milli-romantik üslubundadır. Əsas fəsaddakı divar bir cərgə ağ, digər cərgə isə qızılı daşdan hörülüb.

Hacı Zeynalabdin Tağıyev bütün Rusiyada birinci növbədə öz mesenatlığı və maarifpərvərliyi ilə tanınmışdır. Onun maarifpərvər xidmətləri əsasən XX əsrin əvvəlindən başlayır. Bu da təsadüfü deyildi. 1905-ci il inqilabından sonra hökümətin Oktyabr bəyannaməsi ölkədə mədəni-maarif işlərinin canlanmasına səbəb oldu. Ölkənin hər yerində xeyriyyə məqsədi ilə bir sıra cəmiyyətlər yarandı. Qəzet və jurnallar çap edilməyə başladı. Bu cəmiyyətlərin yaradılması, qəzet və jurnalların çap edilməsi birinci növbədə Tağıyevin adı ilə bağlıdır. Bu işdə Tağıyev bir növ təşkilatçı rolunu oynayırdı. Xeyriyyə məqsədilə yaradılan cəmiyyətlər ya Tağıyevin şəxsi iştirakı və vəsaiti ilə, ya da onun yaxından köməyi ilə yaradılmışdır. İlk xeyriyyə cəmiyyəti 1905-ci ildə yaranmış Müsəlman Xeyriyyə Cəmiyyəti idi. Bundan başqa “Nəşr və maarif”, “Nicat” cəmiyyətlərinin yaranmasında da Hacı Zeynalabdin

Tağıyevin yaxından köməyi olmuşdur. Hacı Zeynalabdin iki dəfə evlənmişdir. Birinci arvadı öz əmisi qızı Zeynəb xanım idi. Zeynəb xanımdan onun iki oğlu, bir qızı olmuşdu. Oğlanları: İsmayıl, Sadiq və qızı Xanım. İkinci arvadı məhşur general-leytenant Balakişi bəy Ərəblinskinin qızı Sona xanım idi. Ərəblinskinin iki qızından böyüyü Hacının oğlu Sadığın arvadı idi. Hacı oğlugildə olarkən, kiçik bacı Sonanı görüb, bəyənmiş və onunla evlənmişdi. Sona xanımdan Tağıyevin üç qızı və iki oğlu olmuşdur. Qızları: Leyla (sonralar Şəmsi Əsədullayevin oğluna ərə getmişdi), Sara və Sürayya. Oğlanları Məhəmməd və İlyas. Məhəmməd "Dikaya diviziya"nın zabiti olarkən özünü öldürmüş, İlyas isə xəstəliyə tutularaq ölmüşdür.

Sovet Rusiyasının 28 aprel 1920-ci ildə Azərbaycanı işğal etməsi ilə vəziyyət kökündən dəyişir. İnsanların mülküyyəti əlindən alınır, milli kadrlar və ziyalılar təqib edilməyə başlanır, hər şey Rusiyanın maraqlarına yönəlir. Yerli əhalinin xahişi ilə yeni hakimiyyətin rəhbərlərindən biri olan Nəriman Nərimanovun göstərişi ilə Tağıyevə mülk seçmək imkanı verilir. O özünün artıq əlindən alınmış keçmiş mülkiyyətlərindən ancaq Mərdəkandakı bağ evini seçir.

Hacı Zeynalabdin Tağıyev 1924-cü il sentyabrın 1-də, axşam səkkizin yarısında, 101 yaşında vəfat etmiş və sentyabrın 4-də dəfn edilmişdir. Onun dəfninə çox böyük izdiham toplanmışdı. İnsanlar yas mərasiminə bütün Bakı və ətraf kəndlərdən ərzaq gətirirdilər.

N.Nərimanovun köməkliyi ilə Bakının "Kommunist" və "Bakinskiy raboçiy" qəzetlərində onunla bağlı nekroloq çap edildi. Bir gün Axund Hacı Turab Hacı üçün Quranı, daha doğrusu, Yasin surəsini, oxuyub tərcümə edirdi. 82-ci ayəyə,yəni "Allah bir şeyə iradə eləsə, ona "Oll" deyər, o da dərhal olar" çatanda, Hacı soruşdu, yəni mənim bu qədər var-dövlətim var. Allah istəsə, bir anın içində əlimdən alar? Axund cavab verir ki, bəli!" Azərbaycan Sovet hakimiyyətinin qurulması ilə demək olar ki, bütün sərvəti əlindən alınan Hacı vəsiyyət edir ki, öləndə onu Hacı Turabın ayağının altında dəfn etsinlər. Bu barədə başqa bir rəvayət belədir: Bir dəfə Hacı gedərkən sınıq bir arabaya minən Axund Hacı Turabla üzbəüz gəlir. Tez faytonu saxlatdırıb, onu Hacı Turaba bağışlamaq istəyir. Hacı Turab faytonu almır və deyir: Təşəkkür

edirəm, mən nəyim varsa onunla kifayətlənirəm. Verdiklərinə görə də ilahiyə minnətdaram. Hər şey – varlını da bir anda dilənçiyə çevirə bilən Allahın əlindədir.

Nacı Zeynalabdin o vaxt önəm verməsə də, hər şeyi əlindən alınandan sonra bu uzaqgörən kişinin sözlərini xatırlamamış deyildi. Ona görə də vəsiyyət edir – məni onun ayağı altında basdırın, onun ayağı bildiyini mənim başım bilmir.

Azərbaycan mesenatı Hacı Zeynalabdin Tağıyevin qızı Sara xanımın yoxluğundan 20 il keçdi.

Azadlıq Radiosunun "İz" proqramı bu nəcib xanımın xatirəsini yazıçı Teyyub Qurbanla anır.

## DÖŞÜMDƏ KOMSOMOL NİŞANI VARDI

- Teyyub müəllim, Sara xanımla necə tanış oldunuz?

- Mən 1954-cü ildə Universitetin Jurnalistika fakultəsinə daxil olmuşam. Universitet o zaman indiki İstiqlaliyyət küçəsində yerləşirdi. Sara xanımı ilk dəfə o küçədə görmüşdüm. Əlində çanta, qoca, kimsəsiz bir qadın kimi... Bir il sonra Sara xanımla elə universitetdə tanış oldum. Universitetin əsaslı kitabxanasının şərqşunaslıq bölümü vardı. Onun müdiri Kiçikxanım adlı ziyalı bir xanım idi. O, bir gün mənə dedi ki, yanıma bir qadın gələcək, de ki, onu qapıdan buraxsınlar. Gəlib gördüm küçədə gördüyüm qadındır. Onunla içəri keçmək istədim, Kiçikxanım dedi hələ gəlməginən. Çünki döşümdə komsomol nişanı vardı, rəsmi adamlardan da Sara xanım çəkinirdi. Kiçikxanım dedi ki, hər cümə günü Sara xanım mənim yanıma gəlir. Bir yerdə nahar edirik. Çantasında da yağını, pendirini, çörəyini gətirir. Və heç kimin də çörəyini yemir. Gələn cümə gələrsən, tanış edərəm. Gəldim, tanış elədi ki, bu, əlaçıdır, jurnalistikada oxuyur. Day demədi ki, mən komsomol katibiyəm (gülüşmə)

## QAPISI AÇIQ OLARDI

Söhbətə başladıq. Dedim Sizin həyatınızla maraqlanıram. Beləcə tanış olduq. Universiteti bitirəndə evinə də getdim. O, Şərifzadə küçəsində yaşayırdı. Birinci mərtəbədə tək qalırdı. Qapısı həmişə açıq olardı. Qapını döyərdin, deyərdi ki, gəlirəm.

Gözləri yaxşı görmürdü onun. Tanıdığı adamların əlini sıxmaqla kim olduğunu bilərdi. Bir neçə dəfə getdim yanına, həyatını mənə danışdı. O zamanlar bir jurnalist vardı – Mailə Muradxanova, ona dedim ki, belə bir yazı yazmaq istəyirəm. Dedi, yaz! Mən də yazdım. Arxivlərdən də sənədlər tapdım. Sonra da yeni sənədlər əlavə edib "Sara" adlı bir əsər yazdım. Təəssuflər olsun ki, az tirajla çıxıb – cəmi 200 nüsxə. Amma onu təkrar nəşr etdirmək fikrim var.

## SARA XANIM İNDİKİ TARİX MUZEYİNİN BİNASINDA DUNYAYA GƏLİB...

Sara xanım indiki Tarix muzeyinin binasında dünyaya gəlib, atasının binasında – 1899-cu il mayın 20-də. Günləri cox firavan keçib. Hacı Zeynalabdin başqa milyonçular kimi var-dövlətini kef məclislərində qoymurdu. Bir dəfə halalca ailə qurub – buzovnalı Zeynəb xanımla. Onun vəfatından sonra bir neçə il evlənməyib. İkinci dəfə general Ərəblinskinin qızı Sona xanımla ailə qurub. Ondan olan övladları da çox istedadlı olub. Onlar piano çalıblar, bir neçə dil biliblər. Ədəb-ərkan, ataya hörmət olub. Hacı Zeynalabdin İçərişəhərdə doğulub. Uşaqlıqdan azan səsi eşidib. Quranı oxuyub, Həcc ziyarətinə gedib. Ona görə Hacı Zeynalabdin çağırılıb. İslam tərbiyəsi Hacının ata-anasının da, övladlarının da qanına hopub. Sara xanım da atasının açdığı Qızlar Məktəbini bitirəndən sonra Peterburq Universitetinə daxil olub. Əla oxuyub. Oranı bitirəndən sonra onların firavan həyatına son qoyulub.

## HACI CUMHURİYYƏTİ YARADANLARDAN BİRİDİR

Hacı Zeynalabdin olmasaydı, Azərbaycan Cumhuriyyətinin iqtisadi bünövrəsi olmayacaqdı.

Cumhuriyyət banilərі – xüsusən M.Ə.Rəsulzadə Hacının yaxın adamı olub. Hacının var-dövləti Müsavat Partiyasına xərclənib. Bu partiya "İsmailiyyə" binasında yerləşirdi. Yəni, Hacı Zeynalabdin Tağıyev müstəqil Azərbaycan Cumhuriyyətini yaradanlardan biridir. İndi məni yandıran budur ki, nə Tağıyevə qiymət verirlər, nə də qızı Sara xanıma. Heykəlini götürüblər. Mən başa düşmürəm Tağıyevin əzəmətli

heykəlini kombinatın önündən kimlər götürüb? Onun adına Bakıda niyə metro stansiyası yoxdur?

## MİLYONÇU QIZI – ÇİLİNGƏR KÖMƏKÇİSİ...

Bolşeviklər gəlib və Hacının hər şeyini əlindən alblar. Mərdəkandakı bağında yaşamağa başlayıb. Sona xanım xəstə olub. Kürəkəni – Saranın əri Zeynalabdin də xaricə gedib. Sara xanım atasıyla qalıb.

Tağıyevin qız rus-türk məktəbinin müəllim və şagirdlərinin dedikləri:

1924-cü ildə Hacı vəfat eləyib, daha sonra Sona xanım. Sara da baş götürüb gedib Leninqrada. Əvvəlcə kitabxanada çalışıb, sonra zavodda tokar köməkçisi... Orada tatar Nikalar Sarayev adlı bir nəfər buna vurulub. Ailə qurublar. Müharibə başlayanda Nikolay cəbhəyə gedib. 1942-ci ildə ölüm xəbəri gəlib. Saranın o vaxt iki övladı varmış. Onları da götürüb Bakıya gəlib...

- Bakı Sara xanımı necə qarşılayıb?

## ATA EVİNDƏN BİR GECƏLİK YER...

Sara xanım Bakıda qalmağa yer tapmayıb. Oğlanlarını yetimxanaya verib. Axşamçağı gəlib atasının evinin qabağına. Bu bina o vaxt hərbi hospital olub. Onu içəri buraxmayıblar. Deyib, ərim cəbhədə ölüb, sabah Hərbi komisarlığa gedəcəyəm. Xahiş edirəm, bir gecəlik yer verin. Səsə baş həkim gəlib. Sara ona deyib ki, küçədə soyuqdur, mənə elə qapının ağzında yer verin, çantamı başımın altına qoyub yataram... Ona icazə veriblər.

## BAĞIROB  SORUŞUB Kİ, KİMDİR GƏLƏN?

Sabahı Hərbi Komissarlığa gedib, vəziyyətini danışıb. Hərbi komissar M.C.Bağırova zəng çalıb ki, bir nəfər gəlib Leninqraddan, qeydiyyatı yoxdur. Bağırov maraqlanıb ki, kimdir o adam? Deyib Sarayeva Sara Zeynalabdinovna. Bağırov onları yaxşı tanıyırmış. Tapşırıb ovaxtki Maarif naziri Süleyman Rəhimova. Deyib, savadlı qadındır, ona münasib iş tap. Sara xanım rus dilini ruslardan yaxşı

bilirdi. Bu dildə elmi məqalələr, dissertasiyalar yazmışdı. Özüm görmüşəm. Sara xanımı Maarif Nazirliyinin kadrlar şöbəsinə təlimatçı götürürlər. Yaxşı maaş, ev verirlər. 1956-cı ilə qədər orada işləyib. 1956-da göndəriblər ovaxtki Rus dili və Ədəbiyyaitı İnstitutunun kitabxanasına. 1956-da Bağırov güllələnir, bir il sonra kommisiya yaranır və komissiya qərara alır: "Atası milyonçu Tağıyevin maarifpərvərliyindən disertasiya yazmaq istədiyinə görə institutdan kənar edilsin". O komissiyanın qərarı məndədir. Arxivdən götürmüşəm.

- Bəs işsiz-gücsüz necə yaşadı Sara xanım?

## 1957-Cİ İLDƏN KÜÇƏLƏRƏ ATILDI...

Nə qədər məktublar yazdı, baxan olmadı. 1970-ci ildən sonra Sara xanımın daha ağır günləri başlayır. Mən onda Respublika Xalq Nəzarəti Komitəsində tərcüməçi işləyirdim. Boş vaxtlarımda gələn ərizələrə baxırdım. 1972-də Sara Sarayevadan ərizə daxil olmuşdu. MK-ya yazılan ərizə Heydər Əliyevin dərkənarı ilə komitəyə göndərilmişdi. Vəziyyətondən şikayət edir, iş istəyir. "Pensiya azdır" – deyir. Dolana bilmədiyini yazır. Amma Sara xanım heç vaxt, heç kimin yanında qürurunu sındırmazdı. Bəziləri deyir o, dilənirdi. Xeyr! Belə şey olmayıb. Ona kömək edənlər də elə edərdilər ki, bir Allah, bir də özləri bilərdi...

## DƏRMAN İÇMİRDİ, HƏKİM ÇAĞIRMIRDI

Sara xanım dərman içmirdi, həkim çağırmırdı, onlardan qorxurdu, onu öldürmək istəyirdilər. Bu qadın ölmürdü. Və deyirdi ki, mənim atamın nə günahı var? Tağıyev maarifçi olub. Millət üçün çox işlər görüb. Mən onlardan yazıram. Bunu sübut etmək istəyirəm. Güclə aparırdılar onu təcili yardıma ruhi xəstəxanaya...

## SARA XANIM SOVET HÖKÜMƏTİNİN ÇÖKÜŞÜNÜ GÖRDÜ...

1985-ci ildə yenidənqurma başlayanda, Sara xanım sağ idi. Mən yenə onun yanına gedirdim. Başa düşürdü ki yeni cəmiyyət gəlir, demokratik quruluş olacaq. Ürəklənirdi, sevinirdi. Mühasibələri var. Deyir, mən sevinirəm ki, atamın arzuları yerinə yetir. Hətta fond yaratmaq istəyirdi. Özünə qismət olmadı. Amma qızı Səfiyyə

xanım bu fondu yaratdı – Sara Sarayeva adına Fond. Burada mən də iştirak edirdim. Qocalara corab paylayırdı. Səfiyyə xanım özü nə vəziyyətdəydi... yaxşı yaşamırdı. Amma anasının adını daşıyan fondun xatirinə hamıya kömək etmək istəyirdi...

- Teyyub müəllim, Sara xanım nə vaxt dünyadan köçdü?

## BİRİNCİ ÖLÜM XƏBƏRİ

Sara xanımın ölüm xəbəri iki dəfə çıxdı. Birinci dəfə Azərbaycan televiziyasında dedilər. Dedim, nə əcəb mənə xəbər etməyiblər? Onun əhatəsində o zamanlar çoxlu adam var idi. Aliyyə Abbasova, Səməd Vurğunun qızı Aybəniz xanım, Nəriman Əliyev və b. Gəldim Şərifzadə küçəsinə. Yenə qapı açıq. Yenə "gəlirəm, gəlirəm" sözü... Sevindim.

## İKİNCİ ÖLÜM XƏBƏRİ

İkinci ölüm xəbəri düz çıxdı. 1991-ci ildə vertolyot qəzasından sonra Sevda xanım, Azadlıq Radiosunun dinləyiciləri bunu birinci dəfə eşidirlər. O qəzadan Sara xanım çox sarsılır. Sara xanıma həyan olanlardan biri Vəli Məmmədov idi. Vəli müəllimin xətrini çox istəyirdi. Xəbəri eşidib zəng vurur Vəli müəllimin həyat yoldaşına. Ağlayır, başsağlığı verir. Sara xanım bilirdi ki, vertolyotdakılar məhv olandan sonra Qarabağı almaq asanlaşacaq... Bu hadisə ona o qədər təsir edir ki, 1991-ci ilin dekabrın 15-də dünyasını dəyişir...

## ONU ATASININ YANINDA DƏFN ETDİLƏR

Azərbaycan dövləti – başda Ayaz Mütəllibov olmaqla onu dəfn elədi. Onun tabutu ilk dəfə laylay eşitdiyi evdən – indiki Tarix Muzeyindən qaldırıldı. Bunu heç vaxt demirik. Sara xanım iki il sonra rəhmətə getsəydi, onu heç vaxt o evdən götürməzdilər. Bu, mənim qəti qənaətimdir. Və Sara xanımın tabutu Neftçilər prospektindən Hökümət Evinə qədər piyada aparıldı. Mən də o tabutu daşıyanlardandım. Onu Mərdəkanda atasının yanında dəfn etdilər.

*Əşir Başiroğlu*

## H.Z.TAĞIYEV HAQQINDA BIR QƏDƏR GENİŞ

Biz tarixə düşmüş şəxsiyyətlərin, hansı xalqa,millətə mənsub olmasının fərqinə varmadan onları yad edirik. Onların arasında H.Z. Tağıyevdə olan keyfiyyətlərə görə tarixə düşən varsa da çox azdı. Bunlardan biri əfsanəvi Hatəm idi, Səxavət Sahibi Hatəm. Xalq arasında belə bir məsəl də deyirlər: - Hacını nəinki bütün azərbaycanlılar, o cümlədən, bir çox başqa xalqlar da tanıyır. Hansı xidmətlərinə görə? Hatəm səxavətinə, bəli, bəli Hatəm səxavətinə görə. Özü də onun səxavəti adi səxavət deyildi. Onun əl açmış dilənçiyə pay vermək səxavəti yox, xalqının, millətinin rifahı, savadlanması üçün bütün varını verməyə hazır olmaq qabilliyətinə. Yeri gəlmişkən qeyd edək ki, bu Hatəm səxavətli kişi ona əl uzatmış, lakin işqabiliyyəti olana pay verməyi xoşlamazdı, deyərdi ki, qeyrətli kişi işləməlidir, əl açmamalıdır.

H.Z.Tağıyev Şərq aləminin ilk messenatı idi. Sərvət və sərməyadarlıq onu heç zaman xalqdan ayırmamış, mənən və qayğıları ilə xalqla özü arasında daimi bir körpü salmışdı. Xalqın kədəri onun kədəri, sevinci onun sevinci olmuşdur. Bakı sərmayədarları içərisində heçbir milyonçu xalqa, camaata bu dərəcədə yaxın olmamışdı. Çünki o, özü xalqın içərisindən çıxmışdı, adi palçıq daşıyan fəhlədən, adlı-sanlı, qüdrətli sərmayədar dərəcəsinə yüksəlmişdi.

XIX əsrin əvvələrində doğulmuş Hacı Zeynalabdin Tağıyev uzun, mühüm hadisələrlə zəngin ömür sürmüşdür. Başlıca fəaliyyəti kapitalist münasibətlərinin formalaşdığı və bərqərar olduğu dövrə, habelə XX əsrin əvvəllərinin coşğun siyasi çarpışmalar dövrünə təsadüf edir.

H.Z.Tağıyevin tərcümeyi-halında heç də faktlar axıra qədər aydın deyildir. Elə anadan olma tarixinin özü tarixi ədəbiyyatda olan müxtəlif ziddiyyətli məlumatları araşdırmağı tələb edir. Çox yerdə Tağıyevin 1838-ci ildə doğulduğu yazılır. Görünür, bu məlumatlar N.Nərimanovun adı çəkilən kitabından və H.Z.Tağıyevin 1903-cü ildə nəşr edilmiş tərcümeyi-halından gətirilən materiallardan götürülmüşdür. Lakin bu bizim Azərbaycan Respublikası MDTA-da aşkara çıxardığımız və bu kitabda surəti verilən doğum haqqında şəhadətnamədə tamamilə başqa tarix göstərilir. Həmin sənədin doğurduğu maraqla əlaqədar olaraq, onu bütövlükdə verməyi lazım bilirik.

«D475499 №-li şəhadətnamə

Zaqafqaziya Şiə Ruhani İdarəsindən verilən o haqda ki, Bakı şəhərinin sakini Hacı Zeynalabdin Tağıyev 1823-cü ildə öz atası Tağı Tağıyevin qanuni arvadı Ümmi xanım Axund Zülfüqar qızından doğulmuşdur.

12 oktyabr 1899-cu il, Tiflis.

İmza: Ruhani İdarəsinin sədri, Zaqafqaziya Şeyxulislamı Ə.Azundzadə»

Zaqafqaziya müsəlmanları idarəsi tərəfindən verilmiş bu sənəd heç bir şübhə doğura bilməz, çünki XIX əsrdə doğum haqqında qeydlər məhz dini idarələrdə aparlırdı.

1916-cı ildə yanvarın 17-də tərtib olunmuş və arxivdə saxlanılan digər sənəddə də xatırladılır ki, H.Z.Tağıyevin artıq 92 yaşı var. Bu da onun 1823-cü ildə doğulduğunu bir daha təsdiq edir.

Maraqlıdı ki, 1899-cu il yanvarın 16-da qızı Leylanın anadan olması ilə əlaqədar verilmiş doğum haqqında şəhadətnamədə H.Z.Tağıyevin 56 yaşı olduğu, yəni onun 1842-ci ildə doğulduğu göstərilir ki, bu da nə birinci, nə də ikinci təvəllüd tarixinə uyğun gəlir. Hüseyn Nəcəfovun "Balaxanı mayı" (B. 1986) kitabçasında və Mövsüm Əliyevin "Maarifçi H.Z.Tağıyev" ("Odlar yurdu" № 14,1988) məqaləsində Tağıyevin 100 ildən çox yaşamağı barəsində məlumat verilir.

Əksər yazılarda "Sərvət səxavətlə məhşur cənab Hacı Zeynalabdin Tağıyevin 1938-ci ildə Bakı şəhərində anadan olduğu qeyd edilir. Müasir tədqiqatçılardan M. Əliyev "Maarifpərvər H.Z.Tağıyev" adlı məqaləsində onun 1823-cü ildə anadan olduğunu, 1924-cü ildə 101 yaşında sətəlcəm xəstəliyindən vəfat etdiyini yazırsa, ölümü münasibətilə "Bakınski zaboçi" qəzetində verilmiş nekroloqda isə 1924-cü il sentyabrın 1-də 105 yaşında sətəlcəm xəstəliyindən vəfat etdiyi yazılmışdır. İkinci məlumatlardan belə çıxır ki, H.Z.Tağıyev 1819-cu ildə anadan olmuşdur.

1900-cu ildə Nəriman Nərimanov və 1903-cü ildə Axund Yusif Talıbzadə trəfindən yazıldığı ehtimal olunan Hacı Zeynalabdin Tağıyevin tərcümeyi-halında onun hicri-qəməri 1256, miladi 1838-ci ildə anadan olduğu göstərilmişdir.

*Əşir Bəşiroğlu*

Təxminən 20 il bundan əvvəl hacının qızı Sara xanım Sarayeva – Tağıyeva ilə söhbət edərkən o, atasının 1838-ci ildə doğulduğunu söyləmiş və demişdi ki, atam anamla 1896-cı ildə evlənmişdi. Anam Sona xanım Zaqatalalı mülkədar, general-leytenant Balakişi bəy Ərəblinskinin qızıdır. Ana babamın adı rəsmi sənədlərdə rusca Vladimir Aleksandroviç kimi yazılmışdır. O, 1828-ci ildə anadan olmuş, 1902-ci ildə vəfat etmiş və Dərbənddə dəfn olunmuşdur. (Qəbri "Qırxlar" adı ilə məşhur olan çox qədim qəbiristanlıqda Tuti Bikənin türbəsi yaxınlığındadır). Hacının Sona xanımdan üç qızı və iki oğlu olmuşdur: - Leyla, Sara, Məmməd, İlyas və Sürəyya. Sara xanım 1899-cu ildə doğulmuş, 1916-cı ildə Zeynal bəyə ərə getmişdir. Ondan bir qızı olmuşdu. 30-cu illərdə həbsxanadan buraxılandan sonra Sarayev familiyalı bir şəxsə ərə getmiş və ondan iki oğlu olmuşdur. Əgər M.Əliyevin məlumatını və 1899-cu ildə verilmiş doğum haqqında Şəhadətnamədəki təvəllüd tarixini əsas götürsək məlum olur ki, Hacı 1896-cı ildə ikinci dəfə 73 yaşında evlənmişdir. (1896-1823=73). Hacının bu izdivacından birinci övladı Leyla xanım 1898-ci ildə, sonuncu övladı Sürəyya isə 1904-cü ildə, o, 81 yaşında olarkən anadan olmuşdur.

Fikrimizcə, Hacı hicri-qəməri təqvimlə, həqiqətən, 1256-cı ildə anadan olmuşdur. Çünki o, anadan olduğu illərdə Azərbaycanda əhali arasında əsas təqvim hicri-qəməri idi. Miladi təqvimindən, əsasən dövlət idarələrində istifadə olunurmuş. Kimsə birinci dəfə, hicri-qəməri 1256-cı ilə miladiyə səhv olaraq 1838-ci il kimi çevirmiş, sonralar heç kim bu səhv çevrilməyə fikir verməmiş və Hacının 1838-ci ildə anadan olduğu rəsmiləşmişdi. Buna görə biz Hacının 1840-cı ildə anadan olduğunu, 1896-cı ildə 56 yaşında Sona xanımla evləndiyini söyləyənlərlə razılaşmırıq.

12 oktyabr 1899-cu ildə yazılmış doğum haqqında şəhadətnamədə Hacının 1823-cü ildə anadan olduğu yazılmışdır. Qarşıya belə bir sual çıxır: - Hacı nə üçün doğum haqqında şəhadətnaməni təvəllüdündən 76 il sonra, 1899-cu ildə tərtib etdirmişdir? Nə üçün bu tarixdən təxminən bir il əvvəl, 16 yanvar 1898-ci ildə anadan olan Leyla xanımın doğum haqqındakı şəhadətnaməsində atasının 56 yaşı olduğu yazılmışdır? 1901-ci ildə Hacının əmək fəaliyyətinin 50 illiyi münasibətilə N.Nərimanovun 1900-cu ildə çap etdirdiyi kitabçası "Hacı Zeynalabdin Tağıyevin

əlli illik məişəti və cəmaətə xidmətləri" sözlərindən məlum olur ki Hacı əmək fəaliyyətinə 1850-ci ildə başlamışdır. Axund Yusif Talıbzadənin N.Nərimanovun "Nadir Şah" faciəsinin farsca tərcüməsinə yazdığı müqəddəmədəki məlumatda N.Nərimanovun məlumatını təsdiq edir. O yazır "Mən Bakıda milli məktəblərə şəriət müəllimi təyin olunduqdan sonra dəfələrlə Hacı Zeynalabdin Tağıyev ilə görüşmək şərəfinə nail oldum. H.Z.Tağıyevin maarif və mədəniyyət sahəsindəki xidmətləri barədə bir kitab yazmaq istədim, lakin N.Nərimanov bu barədə Azərbaycan dilində müxtəsər bir əsər yazıb çap etdirmişdir. Mən Hacının1901-ci il sentyabrın 20-də keçiriləcək fəaliyyətinin 50 illiyi münasibəti ilə həmin kitabı fars dilində tərcümə etməyə başladım". Hacının 1901-ci ildə çəkdirdiyi şəkildən də onun təxminən 50-60 yaşlarında olduğunu demək olar. Belə olduğu halda, bəs Hacı nə üçün 1899-cu ildə yazdırdığı doğum haqqında şəhadətnamədə özünün 1823-cü ildə anadan olduğunu qeyd etdirmişdir? Fikrimizcə, bu tarixi yazdırmaqda Hacının nə isə müəyyən bir məqsədi olmuşdur. Çox ehtimal ki, gələcək təddiqatlar Hacının öz təvəllüdünü 1823-cü il yazdırmasının səbəblərini aşkar edəcək. Məlumdur ki, Şimali Azərbaycan 1828-ci ildə Rusiyanın müstəmləkəsinə çevrilmişdir. Ola bilər ki, bu tarixdən əvvəl doğulmuşlar üçün nə isə bir imtiyaz və sair varmış.

Hacının təvəllüdü ilə əlaqədar bir şeyi də qeyd etmək istəyirəm. Məlumdur ki, Hacının böyük oğlu İsmayıl 1865-ci ildə anadan olmuşdur. Əgər Hacının 1823-cü ildə anadan olduğunu qəbul etsək, deməli, Hacının ilki onun 42 yaşı olarkən anadan olmuşdur. Adi halda azərbaycanlılar 20-30 yaşlarında evlənir, ilk uşağı 1-3 ilə anadan olur. Əgər Hacının 1840-cı ildə anadan olduğunu nəzərə alsaq, İsmayılın 1865-ci ildə anadan olması təbii görünür.

10 yaşında atası Məhəmmədtağı tərəfindən bənna şagirdliyinə verilən Zeynalabdin ilk günlər 6 qəpiyə işləyir, palçıq qayırmaq, daş və kərpic verməklə məşğul olur. Öz zəhməti və işgüzarlığı sayəsində gündən-günə tərəqqi edən Hacı 1873-cü ildə pul toplayıb neftli torpaq alır və quyu qazdırır. Neft fantanları onu milyonçu-neftxuda Haxı Zaynalabdin Tağıyeva çevirir. Lakin Hacı milyonlarını banklara qoymaqla kifayətlənmir. Özünün kasıb günlərini bir an belə unutmur. Buna

görə də milyonlarını xalqın maariflənməsi yolunda xərcləməkdən çəkinmir. Həm də təkcə öz xalqının yox başqa xalqların da yolunda xərcləyir. Bütün bunlar insanda elə təsəvvür oyadır ki, Hacı sanki öz milyoblarını maarif sahəsində xərcləməkdən zövq almışdır.

Hörmətli oxucularım mətləbdən uzaqlaşdıq, Hacının təvəllüdü haqqında bir qərara gələ bilmədik. Qeyd etdiyimiz kimi əksər yazılarda Hacının 1838-ci ildə anadan olduğu göstərilir. Müasir tədqiqatçı M.Əliyev onun 1823-cü ildə andan olduğunu, 1924-cü ildə 101 yaşında vəfat etdiyini yazırsa, ölümü münasibətilə "Bakinski zaboçi"qəzetində verilmiş nekroloqda isə 1924-cü ildə sentyabrın birində 105 yaşında sətəlcəm xəstəliyindən öldüyü yazılmışdır. Burdan belə məlum olur ki, H.Z.Tağıyevin 1819-cu ildə anadan olduğunu iddia edənlərdə olmuşdur. Hətta onun 1841-1842-ci illərdə də anadan olduğunu iddia edənlər tapılır. Bütün bu deyilənləri götür-qoy etdikdən sonra mən Hacıya ruhani idarəsindən 12 oktyabr 1899-cu ildə verilmiş "D475/99 №-li doğum haqqında şəhadətnaməni əsas tutaraq onun 1823-cü ildə anadan olmasını düzgün hesab edirəm.

## HACI ZEYNALABDIN TAĞIYEV

Hacı Zeynalabdin Tağıyev 1823-cü ildə Bakıda İçərişəhər deyilən yerdə anadan olmuşdur. Atası Məhəmmədtağı başmaqçı olduğundan ailəsi çox kasıb yaşayırmış. Ailəsinə kömək məqsədi ilə Zeynalabdin də kiçik yaşlarından atasının emalatxanasında işləməyə başlayır. 10 yaşına çatdıqda atası onu bənna yanına fəhlə qoyur. Çox keçmir ki, oğlanın fərasətini görən bənna onu özünəköməkçi təyin edir. Bir az pul qazandıqdan sonra Zeynalabdin ticarətlə də məşğul olmağa başlayır.

1872-ci ildə nefli torpaqlar hərraca qoyulduqdaTağıyev də torpaq payı icarəyə götürür. Ümidini heç zaman itirməyən Tağıyev, nəhayət, arzusuna çatır. Götürdüyü torpaqdan neft fantan vurur. "H.Z.Tağıyev" adlandırdığı neft şirkətini qeydiyyata aldıran Zeynalabdin mədənində ustalara yüksək maaş verir, ən yeni avadanlıq quraşdırır. Nəticədə onun gəlirləri sürətlə artmağa başlayır. Bundan sonra o həm də neft zavodları alır. 1882-ci ildə Tağıyev 1-ci gildiya tacir rütbəsinə layıq görülür. 1896-cı ildə onun neft şirkəti hasilatda ən yüksək göstəriciyə nail olur. 32 milyon pud

neft hasil edir. (1 pud-16kq-dır). Müqayisə üçün xatırladaq ki, Nobel qardaşları şirkəti ildə 28 milyon pud neft hasil edirdi. O, həm də Bakı neftini, Xəzər dənizi və Qafqaz dəmir yolu vasitəsilə ixrac edən ən böyük sahibkarlardan idi. Məqsədyönlü tədbirləri nəticəsində Tağıyev Azərbaycan iqtisadiyyatının müstəmləkə xarakterinə zərbə vuran, onu sındıran ilk milli sənayeçimizdən oldu.

1897-ci ildə neft mədənlərini Britaniya şirkətlərindən birinə satan Tağıyev qeyri-neft sektoruna sərmayə qoyur. Onun inşa etdirdiyi Bakı toxuculuq fabriki Azərbaycanda yeni istehsal sahəsində başlanğıc olur. Toxuculuq fabrikini xammalla təmin etmək məqsədi ilə Tağıyev Yevlax rayonunda pambıq əkini üçün torpaq sahəsi alır və 1909-cu ildə Cavadda pambıqtəmizləmə zavodu tikdirir. Bakının ən iri ticarət mərkəzi sayılan ticarət evini də Tağıyev təşkil etmişdir. 1890-cı ildə balıq sənayesinə güclü sərmayə qoyan Tağıyev iri balıqçılıq vətəgələrinə sahib olmuşdur. O, balıq məhsullarının saxlanmasını təmin etmək üçün Port-Petrovsk (indiki Mahaçqala) şəhərində soyuducu zavodu, buz istehsalı zavodu, çəllək zavodu inşa etmişdir. Tağıyevin fəaliyyət sahələrindən biri də rabitə ilə bağlı olmuşdur. Telefon xətlərinin çəkilməsində əsas mövqelər onun şirkətinə məxsus idi. O, həm də daşınmaz əmlakın alınıb-satılması ilə məşğul olurdu. Tağıyev həmçinin Port-Petrovskda tikiş fabriki, Moskvada ticarət müəssisələri açmışdır. Onun metal emalı və gəmi təmiri zavodları da var idi.

Bakıda elektrik xətləri çəkən "Elekrosila" səhmdar cəmiyyətinin direktorları arasında Tağıyev yeganə azərbaycanlı olmuşdur. 1903-cü ildə onun təklifi ilə milli sahibkarlarımızdan ibarət yaradılmış yeni ittifaq Xəzər yanacaqdoldurma donanmasında milli kapitalı bu sahənin əsas qüvvəsinə çevirdi. Yeyinti sənayesinə diqqət yetirən Tağıyev üzüm bağları saldırmış, üzümçülük təssərrüfatları yaratmış, Mərdəkanda elektrik dəyirmanı tikdirmişdir. Onun "Kür-Xəzər gəmiçilik cəmiyyəti" xarici nəqliyyat şirkətləri ilə rəqabət aparırdı.

Tağıyevin bank kontoru kredik müəssisələri sırasına daxil olmuşdur. 1914-cü ildə onun yaratdığı Bakı Ticarət Bankı yeni sənaye müəssisələrinin

maliyyələşdirilməsi yerli sahibkarlara maddi dəstək verilməsi sahəsində əhəmiyyətli tədbirlər həyata keçirmişdir.

1879-cu ildə Bakı şəhər Dumasının üzvü seçilən Tağıyev şəhərsalma məsələlərinə böyük diqqət verir. 1905-ci ildə Tağıyev şəhər özünüidarəetmə sistemində müsəlmanların hüquqlarını məhdudlaşdıran qanunların ləğv olunmasını təklif etmişdir. 1904-cü ildə Şollar-Bakı su kəmərinin tikintisinə şəxsi vəsaitindən də xeyli pul ayırmış, ingilis mütəxəssislərini bu kəmərin çəkilməsinə dəvət etmişdir.

Hacı Zeynalabdin Tağıyevin xeyriyəçilik tədbirləri xalqın yaddaşına əbədi həkk olunmuşdur. Bakıda ilk teatr binasını o, inşa etdirmiş, müsəlman qızları üçün ilk tədris məktəbi, Abşeronda fəhlələr üçün ilk qəsəbə saldırmışdır. Qəsəbədə abad evlərdən başqa ambulatoriya və məktəb də var idi. Onun vəsaiti hesabına kitablar, o cümlədən Seyid Əzim Şirvaninin, Sultanməcid Qənizadənin, Nəriman Nərimanovun və başqalarının kitabları çap etdirilmiş, onlardan bəziləri Tağıyevin hesabına xarici dillərə tərcümə edilib nəşr olunmuşdur. Tağıyev 1895-ci ildə "Kaspi" qəzetini və nəşriyyatını alır. "Kaspi" nəşriyyatında çap olunan ilk kitab "Quran" olmuşdur. (Azərbaycan dilində). O, maarifçiliklə məşğul olan digər qəzet və jurnalların nəşrlərinə də böyük sərmayələr qoymuşdur.

Milli kadrların hazırlanmasında Tağıyevin müstəsna xidmətləri olmuşdur. O, öz hesabına tələbələri Rusiyanın müxtəlif ali məktəblərində oxudurdu. Onun köməyini almış şəxslər arasında Nəriman Nərimanov, Məşədi Əzizbəyov, Əlimərdan bəy Topçubaşov, Qara bəy Qarabəyli, Behbud ağa Cavanşir, Lütfəli bəy Behbudov, Nəsib bəy Yusifbəyli, Mirzə Davud Hüseynov, Maxac Daxadayev, Mir Həsən Vəzirov, Xudadat bəy Məlikaslanov, Şövkət Məmmədova, Ruhulla Axundov və onlarca başqalarını göstərmək olar.

1902-ci ildə Şamaxı Zəlzələsi zamanı Tağıyev bu şəhərin əhalisinə böyük köməklik göstərmişdir. Tağıyev yeni tipli təhsil ocaqlarını ərəb, fars, rus, türk dilində kitablarla, tədris vəsaiti və məktəb avadanlığı ilə təmin etdirirdi. Onun "Nəşri-maarif", "Nicat" cəmiyyətləri kitab və dərsliklərin çap edilməsində qabaqcıl yerləri tuturdular. O, həmçinin Bakı texniki məktəbində 12 yoxsul müsəlman tələbəni öz hesabına oxudurdu. Bakıda texniki-kommersiya və peşə məktəblərinin açılmasına, onlarda

kabinet və laboratoriyaların təşkil edilməsinə əlavə yardım göstərirdi. Tağıyev öz hesabına yaşlılar üçün rus dili kursları təşkil etmişdi.

1905-1911-ci illərdə Cənubi Azərbaycanda baş verən hadisələr zamanı Tağıyev inqilabçılara maliyyə köməyi göstərmişdir. O, İranda, Türkiyədə, Hindistanda, Misirdə və başqa müsəlman ölkələrində məktəblərə, xeyriyyə cəmiyyətlərinə böyük vəsait keçirmiş, Rusiya müsəlmanlarına da yardım etmişdir. Tağıyev Moskva, Peterburq, Odessa, Vladiqafqaz, Tiflis, Kutaisi, Xarkov, Mahaçqala, Həştərxan şəhərlərində, eləcə də Krımın, Sibirin, Volqaboyu ərazilərin müxtəlif şəhərlərində türk dilində məktəblərin açılmasına böyük həcmdə sərmayə qoymudur. Dərbənddə qızlar məktəbi onun vəsaiti hesabına fəaliyyət göstərirdi. Tağıyev Peterburqda gözəl bir məscid inşa etdirmişdir. Maraqlıdır ki, Misir məktəblərində Tağıyevin müsəlman dünyasının görkəmli xeyriyyəçisi kimi tanınmasına həsr edilən dərslər keçirilmişdir.

Türkçülük mövqeyindən çıxış edən Tağıyev bəzən Rusiya rəsmi dairələrinin əleyhinə getməkdən də çəkinmirdi. O, Balkan müharibəsi zamanı osmanlılara pul yardımı göstərmiş, I Dünya müharibəsi gedişində ermənilərin vəhşiliklərindən ziyan çəkmiş osmanlı vilayətlərinə köməklik etmişdir. Tağıyev hətta gizli fəaliyyət göstərən "Müsavat" partiyasına da yardım etmişdir. 1918-ci il mart hadisələri zamanı Azərbaycan dəstələrini təmin edən Tağıyev əhali Abşeron kəndlərinə çəkiləndə İrandan dəniz yolu ilə ərzaq gətirdib onu pulsuz olaraq camaata paylamışdı. İsmayıl bəy Qaspralinin "Təcrümən" qəzetinin Qafqazda yayılmasına öz yardım əlini üzatməş Tağıyev 1917-ci ildə Qafqaz müsəlmanlarının qurultayına pul köməkliyi göstərmişdir.

1918-ci ildə Azərbaycanın müstəqillik qazanması xəbərini sevinclə qarşılayan Tağıyev Azərbaycan Xalq Cumhuriyyətinin bütün tədbirlərində fəal iştirak etmişdir. O, hökümət başçısı N.Yusifbəyliyə yazdığı təkliflər paketində qeyd edirdi: - "Siyasi müstəqillik yalnız maliyyə və iqtisadi müstəqillik əsasında mümkündür. Bunsuz siyasi mənada azad vətəndaşlar sənaye və ticarət baxımından özlərinin daha güclü qonşularının quluna çevrilirlər.

Sovet hakimiyyəti Tağıyevin bütün əmlakını milliləşdirdi, lakin Nərimanovun təkidi ilə ona Mərdəkandakı bağında yaşamağa icazə verildi. N.Nərimanov onu həmişə - Bakıda olanda da, Moskvada işlədiyi zamanda himayə etmiş, hətta dünyasını dəyişəndə haqqında qəzetlərdə nekroloq çap olunmasını tələb etmişdir. N.Nərimanov Tağıyevi iqtisadi proseslərin gedişinə cəlb etmək məqsədi ilə yazırdı ki, o, hətta respublika üçün Qərb ölkələrindən kredit ala bilər: - "Qərbi Avropa ona daha çox etibar edər, nəinki bizə. Əgər o, kredit açarsa, həmin pullarla "Qərbi Avropadan bizə lazım olan hər şeyi əldə edə bilərik". Lakin Moskva bu təklifi rədd etdi.

1924-cü ildə Mərdəkandakı bağında vəfat edən H.Z.Tağıyev elə həmin kənddə öz vəsiyyəti ilə axund Əbuturabın məqbərəsi yanında dəfn edilib. N.Nərimanovun ölümündən sonra Tağıyevin adı tariximizdən silinmiş, onun ailəsi isə təqib olunmuşdur.

Hörmətli oxucularım, yuxarıda müfəssəl olaraq haqqında yazıb sizə çatdırdığımız kimi Hacı Zeynalabdin Tağıyev 1823-cü ildə Bakıda İçəri şəhərdə anadan olub. Atası Tağı başmaqçılıq edib ailəsini dolandırırmış. On yaşına kimi atasının himayəsində olub. On yaşında atası onu bənna yanında palçıq daşımağa qoyur. Bu işdə uşağa gündə 6 qəpik verirlər. O, birinci gün qazandığı 6 qəpiuyi gətirib atasına verir. Atası o pula pendir və çörək alıb evə gətirir və ailəlikcə yeyirlər. Atası oğluna zeyir-dua verib deyir: - Pərvərdigara! Çox Şükür ki, oğlumun qazancını yeyirəm. Bu sözlər uşağın qəlbinə çox təsir edir. Onun işə səyini daha da artırır. Palçıq daşımaqla yanaşı daş yonanların işinə də fikir verir. 12 yaşından daş yonmağa başlayır. 15 yaşında bənnalıq sənətini yaxşı öyrənir. Bənna işləyən zaman mühəndislərin işinə də fikir verirmiş. Bənnalıqla kifayərlənməyib podrat işlərinə başlayır. Götürdüyü podrat işlər mənfəətli olub, bir qədər pul qazanır. 1873-cü ildə podrat işlərini buraxıb neft işləri ilə məşğul olmağa başlayır. İcarəyə torpaq götürüb neft quyusu qazir. Bu işdə 4 dəfə uduzmasına baxmayaraq ruhdan düşmür. Səylə işinə davam edib. İşinin uğursuz olmasına baxmayaraq uşaqlarının tərbiyəsini də unutmur. Bu vaxtlar böyük oğlu İsmayıl realnı uçilişi qutarıb atasına kömək edirdi, kiçik oğlu Sadiq oxuyurdu. Bibiheybətdə icarə etdiyi yerdə səylə işləsə də xeyir görmürdü. Şəriki buna davam gətirməyib öz payını Hacıya satır. Hacı isə borcdan

qorxmayıb başladığı işi davam etdirir. Bu vaxtlar Hacı üçün çox ağır keçirdi. Xərc günbəgün artırdı, qazılan quyudan isə neft nişanəsi görünmürdü. Bununla belə zəhmətkeş Hacı ümidini kəsməyib zəhmətinin meyvəsini gözləyirdi. Bu ağır günlərdə qazdığı quyudan neft fəvvarə edir. Beləliklə Hacı məqsədinə çatır. Bundan sonra Hacı günbəgün qabağa gedir. Zavodda işləyənlər söyləyirlər: - “Biz bu şəxsin səbrinə və zəhmətinə təəccüb edirdik, bilmirdik Hacı 24 saatda nə vaxt istirahət edir”. Hörmətli Hacı atasının sözlərini işçilərə deyirmiş: - “Zəhmətdən qorxmayın uşaqlar!”. İşçilər deyirdilər: - “Hərçənd bizə rahatlıq yox idisə də, Hacının mülayimliyi və İnsaniyyətliyi bizim ona canı dildən işləməyimizə kömək edirdi. Bizə heç vaxt ağır söz deməz, təqsirimizdən keçərdi”. Hacı yetimləri, əlsiz-ayaqzıları yaddan çıxarmazdı, həmişə onlara yardım edərdi. Sağlam adamlar dilənəndə pul verməz işə qoyardı ki, özləri pul qazansınlar. Hacı bu etdiklərini az bilib millətin işlərinə kömək edirdi. Yetim uşaqları öz xərcinə oxudur, onlar məktəbi qurtaranda iş tapmalarına kömək edir və onların yerinə təzə uşaqlar götürüb, öz xərci ilə oxutmağa göndərirdi.

Hörmətli Hacı millətin xoşbəxtliyin məktəbdə, elmdə, təhsildə görürdü. O, 1895-ci ildə Mərdəkan kəndində öz xərcinə 50 yerlik bir sənət məktəbi açmışdır. Bu məktəbdə dərslər azərbaycanca və rusca keçirilirdi. Eyni zamanda məktəbdə təsərrüfat və bağ işləri də öyrədilirdi. Həmin məktəbin binasına 31240 manat xərc çəkilmişdir. İllik xərci isə 5000 manat idi.

Hacının millətə ikinci bəxşişi isə təzə açılan qız məktəbi idi ki, orada müsəlman qızları oxuyurdu. Qızlar məktəbində təhsil müddəti 4 il idi. Onun 3 ilini azərbaycanca, 1 ilini isə rusca oxuyurdular. O, məktəbdə oxuyan qızlardan 20 nəfəri yetim qızlar idi. Onlar Hacının hesabına oxuyurdular. Bunlara ildə 8000 manat pul xərclənirdi. Həmin bina 300 000 manata başa gəlmişdir.

1896-cı ildə Hacı 20 milyon dəyəri olan zavodu 5 milyon yarıma satıb bez fabriki açdı. Peterburqdakı qeyrətli müsəlmanlar 1896-cı ildə xeyriyyə binasını inşa etməyə başlayanda hörmətli Hacı 11 000 manat həmin cəmiyyətə pul köməklik etmişdir. Bina inşa edildikdən sonra həmin cəmiyyət Hacını o cəmiyyətə çlen seçib və ona minnətdarlıqlarını bildirmişlər.

*Əşir Bəşiroğlu*

Hacı millətə xeyir verən kitabları öz xərcinə çap etdirirdi. Hacının xərcinə çap olunan kitablar bunlardı:

1) "Tarixi-müqəddəs" Əsəri - Molla Əbdülsələm Axundzadə, 500 manat xərc çəkilib.
2) "Şərabçı" (xərci bilinmir).
3) "Allah divanı" əsəri - Sultan Məcid Qəniyev, 300 manata qədər xərc çəkilib
4) "Əşyari" Seyid Əzim Şirvani, 500 manat xərc çəkilib.
5) "Nadir Şah" əsəri – Nəriman Nərimanov, 350 manat xərc çəkilib. Bu əsər cənab Hacının xahişinə görə fars dilinə tərcümə olunub.

1895-ci ildə Badkubədə rus dilində verilən "Kaspi" qəzetini Hacı 57 000 manata alıbdır. Bu qəzeti almaqda onun məqsədi xalqına xidmət etmək olmuşdur. Badkubədə teatrın əvvəlinci binasını qoyan hörmətli Hacı olubdur. Teatrın bir gecəlik kirayəsinin 100 manat olmasına baxmayaraq Hacı o pulu almır, əksinə cəmiyyətin xeyrinə pul da bağışlayırdı. 1900-cu ildə Hacı 100 000-ə qədər xərc qoyub teatrı təzələndirdi. Teatrın yeri balalca olsa da özü gözəl bir teatr idi. Hörmətli Hacının teatra olan xidmətlərini qiymətləndirən erməni artistləri 1900-cu ildə ona razılıqlarını bildirərək öz nitqlərini ona bağışladılar. O, nitq yazılmış kağızda bu sözlər yazılmışdır:

"Hörmətli Hacı Zeynalabdin! Qədim zamandan, qədim yunanlardan, ərəblərdən, qeyri-mədəniyyət yolunda can qoyan tayfaların vaxtından bəri teatrın ağla, ruha tərbiyyə verməyi gün kimi aşkardı. Bədkubə qeyri şəhərlər təki qaranlıqdan işığa düşməyə çalışır, amma bu vaxtadək bu şəhərdə əvvəl kimin fikrinə düşübdür o evin binası ki, teatrın gözəl olan əsərini xalqa yaysın. Bizə yaxşı məlumdur ki, Bədkubədə bu işin fikrinə düşən əvvəl siz olubsunuz, hörmətli və qeyrətli Hacı!

Ancaq suz bu fikirdə olub teatrı icad edibsiniz, hənuz bu teatrı, hansı ki, neçə ilin ərzində günün şəfəqləri kimi şəfəqləri yazıbdır. Biz erməni teatrının görkəmli qulluqçuları Sizin bu barədə olan zəhmətinizi və mərhəmətinizi hiss edib bu gün təzə bəzənmiş teatra nəzər yetirib və ürəyimiz şad olub, bu günü bayram edirik və canı-dil ilə yekdil sizə öz hissiyatımızı zikr edirik: Sağ olsun bu teatrı bina edən! Sağ olsun hörmətli və izzəli Hacı Zeynalabdin!"

Bu sözlərdən sonra hörmətli Hacının şadlığından gözləri yaşarıb dedi:

“Sizdən çox razıyam, sizin sözləriniz gələcəkdə teatra daha çox xidmət göstərməyimə səbəb olur”.

Hacının xidmətləri təkcə müsəlman millətinə yox, qeyri millətlərə də olub. Badkubədə və qeyri şəhərlərdə təzə açılan xəstəxanalara, məktəblərə, cəmiyyəti-xeyriyyələrə Hacı vəsait xərcləyib.

Padşah (imperator-əzəm onun xidmətlərini yüksək qoymətləndirib, onu orden və medallarla təltif edib. 1872-ci ildən cənab Hacı Badkubə Dumada qlasnı hesab olunur, bu qulluqda hörmətli Hacının həm şəhərə, həm də cəmaətə böyük köməyi çatır.

Bu vaxtadək qeyrətli Hacının ümumi xalq və millət işlərinə 1 000 000 manata qədər xərci çıxıb. Bu fani dünyada dövlətdən ötrü insaflarını satanlar bunu oxuyanda, yəni pulun qədərini görəndə ağızları açıla qalacaqdır. Başqalarından utanmasalar da öz aləmlərində özləri özlərindən utanacaqlar!...

Haz-hazırda Hacı 63 yaşında olsa da çox diribaş görünür. O, ortaboy, tökmə şəxsdir. Hər bir əzası dürüst, əqli, kəmalı yerində bir adamdır. Səhər saat 10-dan ikiyədək kontorunda olur. 30-40 nəfər isə söhbət edir, arada məişət işləri ilə də məşğul olur. Hər gün rus mirzəsi rus libasında məşhur qəzetləri oxuyur və arada sual-cavab olur. Sonra müsəlman mirzəsi İranda, Osmanlıda, Hindistanda və Misirdə verilən türk, fars və ərəb qəzetlərini oxuyur. Hacı çox diqqətlə qulaq asır və öz fikrini söyləyir. O, siyasi məsələlərə çox fikir verir. Onun hafizəsi çox itidir. Hər gün 10 qəzet oxunur. Sabah hamısından xəbər verməyə hazırdır. Hansı məlumatın hansı qəzetdə olmasını səhvsiz soyləyir. O, nəinki türkcə və hətta rusca mədəniyyətdən və siyasətdən söhbət etməyə hazırdır. Savadlı insanlar Hacının elmlərdən, tarixdən xəbərdar olmasına təəccüb edirlər. Onun xasiyyəti çox mülayim, kiçiklərə hörmət edən, dediyi bir sözü iki olmayan, verdiyi vədə əməl edən, haqq sözdən qaçmayan, günahkarın təqsirindən keçən, öz səhvini gizlətməyən, qeybətdən qaçan, ürəyi saf bir insandır. O, teatrı çox sevir, hər axşam öz lojasında əyləşib artistlərin oynamasına çox diqqətlə baxır.

*Əşir Bəşiroğlu*

Hörmətli Hacı 50 il zəhmət çəkib milyonlar toplayıb. O, topladığı milyonları xalqının və millətinin mənafeyi üçün xərcləyib. Hacıdan dövlətli müsəlmanlardan mini qara torpağa gedibdir. Onların vətənə və millətə olan xidmətləri Hacının xidmətləri yanında heç dərəcəsindədir.

O vaxt Badkubada çoxlu pullu hacılar var idi. Onlar pullarını sandıqlara yığıb keşiyin çəkirdilər. Xalqın yolunda bir qara qəpik də xərcləmirdilər. Bunlar pullarını faizə verib kasıbların qanını sorurdular. Onlar bu fikirdə idilər ki, gündə min nəfər fəhlənin hərəsindən 2 qəpik kəssən, bir gündə 2000 qəpik olar. Məktəb, mədrəsə üzü görməyən Hacının elmə, savada, təhsilə marağı tükənməzdir, əqlə, təcrübəyə gəlməzdir. Hacının vətənə, millətə və insana olan xidmətindən sonra bir xarici millət deyə bilməz ki, müsəlmanlar nadan, vəhşi, millət və dövlət işlərinə yaramayan insanlardır. Düzdür Hacı kimiləri çox azdır. Ancaq Allaha Şükür ki, tək-tək tapılır.

## XEYRİYYƏÇİ, MAARİFPƏRVƏR VƏ İCTİMAİ XADİM

Tağıyev Hacı Zeynalabdin Məhəmmədtağı oğlu – Azərbaycan sahibkarlığının görkəmli nümayəndəsi, xeyriyyəçi, maarifpərvər və ictimai xadim olan Hacı Zeynalabdin Tağıyev "İçərişəhər"dəndir. Atası başmaqçı idi. Ehtiyac içərisində yaşayan ailəsinə kömək məqsədilə kiçik yaşlarından fəhləlik etmiş, 15 yaşından bənnalığa başlamışdır. 1872-ci ildə neft sənayesində iltizam sistemi ləğv edildikdən sonra H.Z.Tağıyev də torpaq sahəsi icarəyə götürərək, quyu qazdırmış, elə həmin il 12 neftçıxartma müəssiəsi yaranmışdı ki, onlardan biri də "H.Z.A.Tağıyev" neft sənayesi firması idi. 1873-cü ildə neftçıxartma işinə sərmayə qoymuş, sahibkarlıq fəaliyyətinə başlamışdır. 1877-ci ildə 2-ci gildiya tacir rütbəsi alımışdır. 1878-ci ilin əvvəllərində Tağıyevin mədənində baş verən neft fontanı onu Bakının zəngin sahibkarlarından birinə çevirmişdir. 70-ci illərin sonunda Tağıyev artıq 3 neft zavodunun sahibi idi. 1882-ci ildə 1-ci gildiya tacir rütbəsi almış, 1886-cı ildə "H.Z.A.Tağıyev" şəxsi ticarət evini təşkil etmişdir. 1896-cı ildə Tağıyev firmasının neft hasilatı ən yüksək göstərici ilə (932 milyon pud) ən iri – "Nobel qardaşları" şirkətini (28 milyon pud) geridə qoydu.

*Hamının Sevimlisi*

Tağıyev neft məhsullarının Xəzər dənizi və Qafqaz dəmir yolu ilə nəqli üzrə firmalar qrupunun daimi iştirakçısı olmuşdur. 19-cu əsrin 90-cı illərində məhz Tağıyev, ilk dəfə, Şuşa-Yevlax dəmir yolu çəkilişi layihəsini təklif etmişdir. 20-ci yüzilliyin əvvəllərində təsisçisi olduğu "Kür-Xəzər gəmiçilik cəmiyyəti" Xəzər dənizində "Qafqaz və Merkuri" və "Şərq" şirkətlərinə qarşı dura biləcək yeganə qüvvəyə çevrildi. Tağıyev Azərbaycan iqtisadiyyatının müstəmləkə xarakterinə zərbə vuran, onu sındıran ilk milli sənayeçi olmuşdur. Başqa sənaye sahələrinə kapital qoymaq üçün 1897-ci ildə özünün neft mədənlərini, müəssisələrlə birlikdə, Britaniyanın ən iri sahibkar şirkətinə 5 milyon yarım rubla satan Tağıyev toxuculuq sənayesinə, gəmiçiliyə, tikintiyə, kənd təsərrüfatına və balığçılığa xeyli kapital qoymuş, "Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti" (1897), toxuculuq fabriki (1900), "Xəzər manufaktura cəmiyyəti" (1911), "Tağıyev balıq sənaye səhmdar cəmiyyəti" (1916) yaratmışdır. Bakıda toxuculuq fabriki tikilməsi təkcə Azərbaycanda qiymətli ixrac məhsulları və külli miqdarda gəlir verən yeni sənaye sahəsinin yaradılması deyil, həm də minlərlə işsizin işlə və pulsuz evlə təmin edilməsi demək idi. Fabrikin ambulatoriyası və məktəbi də var idi.

Bir sıra xırda neft sənaye şirkətləri ilə əməkdaşlıq edən Tağıyev "Şərqi-Qafqaz neft sənayesi və ticarət səhmdar cəmiyyəti"nin təsisində iştirak etmiş, həmin cəmiyyətin idarə heyətinin sədri seçilmiş, beləliklə, 20-ci əsrin əvvələrində neft sənayeçiləri arasında nüfuzunu müəyyən dərəcədə bərpa etmişdir. Tağıyev 1914-cü ilin yayında pambıq parça sənayesi sahəsində "H.Z.Tağıyevin fabriklər birliyi kontoru"nu təşkil etmişdir. Fabriklərini xammalla təmin etmək məqsədilə Tağıyev Yevlax yaxınlığında pambıq əkini üçün torpaq sahəsi almış, 1909-cu ildə isə Cavad qəzasında pambıqtəmizləmə zavodu tikdirmişdi. 1899-cu ildə yaradılan "Elektriçeskaya sila" səhmdar cəmiyyətinin sədr müavini seçilən Tağıyev idarə heyətinin 6 direktoru arasında yeganə azərbaycanlı idi. Tağıyevin metal emalı və gəmi təmiri sahələrində də müəssisələri vardı. 1903-cü ildə gəmi sahibləri onun təşəbbüsü ilə "Yanacaqdoldurma şxunları ittifaqı" adlı sindikat yaratmışdılar. Beləliklə, milli kapital Xəzər yanacaqdoldurma donanmasında yüksək çəkiyə və sabit

mövqeyə malik oldu. Tağıyev yeyinti sənayesinin inkişafına da diqqət yetirmiş, dəyirman tikdirmiş, Quba qəzasında üzüm bağları saldırmış, 40 desyatın (43,7 ha) sahəlik üzümçülük-şərabçılıq təsərrüfatını şərikli satın almışdır. 1909-cu ildə balıq sənayesinə 1 milyon rubla yaxın sərmayə qoymuş, 1910-cu ildən ən iri vətəgələrdən olan "Bankə" vətəgəsinin sahibi olmuşdur. Balıq məhsullarını saxlamaq üçün Dağıstanın Petrovsk-Port (indiki Mahaçqala) şəhərində soyuducu zavod, buz istehsal edən və çəllək zavodları tikdirmişdi. 1916-cı ildə balıq sənayesi sahəsində yaradılan "Kaspi-Tağıyev" səhmdar cəmiyyətinin əsas kapitalının üçdə iki payı Tağıyevə məxsus idi. Tağıyevin fəaliyyət sahələrindən biri də rabitə ilə bağlı idi. Telefon xətlərinin çəkilişində də öncüllərdən biri Tağıyev olmuşdur. O, torpaq sahələrinin, mülklərin və b. Daşınmaz əmlakın alqı-satqısı ilə bağlı əməliyyatlarla da məşğul olurdu. Tağıyev Bakı Şəhər Dumasının üzvü kimi şəhərsalma məsələsinə xüsusi diqqət yetirirdi. Bakının mərkəzində ticarət passajı (köhnə Bakı univermağı), bank binası, üçmərtəbəli yaşayış mülkü (Azərbaycan tarix muzeyinin binası), ilk əsaslı teatr binası (Tağıyev teatrı, 1883), müsəlman qızları üçün ilk təhsil məktəbi (1901; AZEA-nın Əlyazmalar İnstitu), Abşeronda ilk dəfə xüsusi olaraq fəhlələr üçün Zığ kndində salınmış qəsəbə və s. ona məxsus idi. 1904-13-cü illərdə xüsusi kredit müəssisələri şəbəkəsinə "H.Z.Tağıyev" bankir kontoru da daxil olmuşdu. H.Z.Tağıyevin fəaliyyətinin zirvələrindən biri sənaye müəssisələrini maliyyələşdirmək, yerli sahibkarlara maddi dəstək vermək məqsədilə 1914-cü ildə yerli sahibkarlarla birlikdə Bakı ticarət bankını təsis etməsi idi. 1917-ci ilin axırlarında Tağıyevin kapitalı 30 milyon manata çatırdı.

Tağıyev müsəlmanların mənafeyi ilə bağlı ictimai-siyasi məsələlərdə daim fəallıq göstərmişdir. 1905-ci ildə şəhər özünüidarəsi sahəsində müsəlmanların hüquqlarının məhdudlaşdırılmasının ləğvi ilə əlaqədar ləngimədən tədbirlər görülməsini təklif etmiş, Əhməd bəy Ağayev tərəfindən Azərbaycan dilinə çevrilmiş 1864-cü il "Əsasnaməsi" onun köməyi ilə dərc olunmuşdu. O, Cənubi Azərbaycanda gedən milli azadlıq hərəkatına (1905-11) yardım olaraq pul vəsaiti və silah göndərmişdi.

*Hamının Sevimlisi*

H.Z.Tağıyev İqtisadiyyatın inkişafı ilə yanaşı, maarif və mədəniyyətin tərəqqisi üçün də misilsiz səy və xidmətlər göstərmişdir. Onun vəsaiti hesabına şeyxülislam Əbdüssəlam Axundzadənin "Tarixi-müqəddəs", Sultanməcid Qənizadənin kitabları, "Əşari-Seyid Əzim Şirvani" kitabı, Nəriman Nərimanovun "Nadir şah" dramı (Tağıyevin xahişi ilə, fars dilinə tərcümə olunaraq) və bir çox başqa kitablar çap olunmuşdur. Bundan başqa, İranda, İstanbulda, Hindistanda, Misirdə və başqa Şərq ölkələrində xəstəxanalara, məktəblərə, xeyriyyə cəmiyyələtinin, məscid və mədrəsələrin inşasına böyük ianələr ayırmış, təkcə Azərbaycanın deyil, Rusiyanın çoxmilyonlu müsəlman əhalisinə köməyini əsirgəməmişdir. O, Mahaçqala, Tiflis, Krım, Sibir, Moskva, Odessa, Vladiqafqaz, Həştərxan, Kutaisi, Peterburq, Volqaboyu, Xarkov və s. yerlərdə ana dilində məktəblərin açılmasına xeyli vəsait sərf etmişdi. Tağıyev 1895-ci ildə 57 min rubla "Kaspi" qəzetini almış və onun sahibi olmuşdu. Quran Azərbaycan dilində "Kaspi" qəzetinin nəşriyyatında nəşr edilmişdir. 1879-ci ildən Bakı şəhər Dumasının üzvu olan Tağıyevin Bakıya su kəmərinin çəkilməsində xüsusi xidməti var. Onun təşəbbüsü ilə ingilis mühəndisi V.V.Lindley 1904-ci ildə Şollar – Bakı su kəmərinin çəkilməsinə başlamışdı. Tağıyevin 1899-ci ildə Mərdəkanda tikdirdiyi elektriklə işləyən dəyirman ətraf kəndlərin camaatını 1-ci dünya müharibəsi illərində aclıqdan xilas etmişdir. 1902-ci ildə Şamaxı zəlzələsi zamanı Tağıyev şəhər əhalisinə böyük kömək göstərmişdir. Tağıyev ilk müsəlman qız məktəbinin fəaliyyətinə xeyli vəsait (325 min manat) və əmək sərf etmişdir. Peterburq müsəlman xeyriyyə cəmiyyətinə 11 min manat bağışlamış və bu cəmiyyətin ömürlük üzvü seçilmişdir. Qəzet və jurnalların nəşrinə ("Kaspi", "Həyat", "Füyuzat" və s.), mədəni-maarif cəmiyyətlərinə, milli kadrların hazırlanmasına xeyli vəsait sərf etmişdir.

Tağıyevin maarif sahəsindəki xidmətlərinin coğrafiyası daha böyük və genişdir. Onun himayə etdiyi, təqaüd verdiyi şəxslər sonralar öz ölkələrinin, xalqlarının görkəmli nümayəndələri olmuşlar. Nəriman Nərimanov, Məşədi Əzizbəyov, Əlimərdan bəy Topçubaşov, Qara bəy Qarabəyli, Behbub Ağa Cavanşir, Lütfəli bəy Behbudov, Mirzə Davud Hüseynov, Nəsib bəy Yusifbəyli, Maxaç Daxadayev, Mir

Həsən Vəzirov, Xudadat bəy Məlik – Aslanov, R.Axundov, A.Mahmudbəyov, Şövkət Məmmədova və onlarca başqaları H.Z.Tağıyevin köməyi sayəsində təhsil almışdır.

Tağıyev yeni tipli təhsil ocaqlarını ərəb, fars, türk dillərində kitablarla, tədris vəsaiti və məktəb avadanlığı ilə təmin etmiş, onlara nağd pulla yardım göstərmişdir. Quberniya mərkəzində texniki kommersiya və ya peşə məktəblərinin açılmasına da 100 500 manat pul ayırmış, həmin tədris ocaqlarında kabinet və laboratoriyaların yaradılmasına əlavə yardım göstərmişdir. “Nəşri-maarif”, “Nicat” və b. xeyriyyə cəmiyyətlərinin təsis edilib fəaliyyət göstərməsində Tağıyevin böyük əməyi olmuşdur. O, “Nəşri-maarif” cəmiyyəti idarə heyətinin sədri seçilmişdi. Bakı texniki məktəbinin qəyymu (hamısı) seçilmiş, öz vəsaiti hesabına məktəb üçün ikinci mərtəbə tikdirmiş, yaşlılar üçün rus dili kursları təşkil etmişdir. 12 yoxsul müsəlman texnik-tələbənin xərcini öz üzərinə götürmüşdür.

Tağıyevin vəsaiti hesabına Petrovsk-Portda tikiş fabriki, Dərbənddə qızlar üçün təhsil müəssisəsi (Tağıyev məktəbin saxlanması üçün hər il pul köçürmüşdür), Peterburqda məscid, Moskvda yaşayış evi və ticarət müəssisələri tikilmişdir. Balka müharibəsi illərində türklərə pul yardımı göstərmişdir. Birinci dünya müharibəsində rus qüvvələri tərəfindən işğal edilmiş Türkiyə vilayətlərində erməni quldur dəstələrinin vəhşiliklərinə məruz qalmış müsəlmanlara yardım edilməsində də onun fəal rolu olmuşdur. Gizli fəaliyyətdə olan “Müsavat” partiyasına da maddi yardım göstərmiş, İsmayıl bəy Qaspralının “Tərcüman” qəzetinə Qafqazdan abunələr təşkil etmiş, abunəçilərin pulunu özü ödəmişdir.

1917-ci ilin aprelində Bakıda keçirilmiş Qafqaz müsəlmanları qurultayında fəxri qonaq kimi çıxış edən H.Z.Tağıyev qurultayın yaratdığı milli fonda 50 min rubl məbləğində pul bağışlamışdır. 1918-ci ilin martında dinc müsəlman əhalinin məruz qaldığı qırğının qarşısını almaq üçün Dağıstan qüvvələrinin başçısı imam Nəcməddin Qotsinski ilə saziş əldə edilməsində Tağıyevin mühüm xidməti olmuşdur. Məşum mart günlərində “Tağıyev teatrı”, “Kaspi” redaksiyası da yaranmışdı.

Azərbaycanın XX əsr siyasi həyatında Tağıyevin fəal rolu olmuşdur. Nəinki çar hakimiyyəti dövründə cərəyan edən siyasi prosesləeə müxtəlif formalarda

münasibətini ifadə etmiş (Arxiv sənədlərində "Difai" partiyasının təsisçisi xilasi yönündə zəruri tədbirlər görməsi, 1918-ci ilin mart günlərində müsəlman müdafiə dəstələrinin maddi təminatı, talan olunmuş kəndlərə İrandan ərzaq gətirdib paylanması cə s.), həm də Azərbaycan Xalq Cumhuriyyəti dövründə müstəqil milli dövlətçilik mənafelərini dəstəkləmiş, təntənəli dövlət tədbirlərində iştirak etmişdir. Yüksək səviyyəli qonaqları öz yaşayış mülkündə qonaq etmiş, Britaniya diplomatik missiyasının başçısı O.Uordrop Bakıya gələrkən şəxsi mülkünün bir hissəsini onun sərəncamına vermiş, general C.Harbord başda olmaqla, Amerika missiyasının üzvləri onun mülkündə qalmış, burada hökümət başçısı Nəsib bəy Yusifbəyli tərəfindən qəbul edilmişdi.

1919-cu il iyunun 29-da H.Z.Tağıyev Azərbaycan Xalq Cumhuriyyətinin Hökümətinin başçısı N.Yusivbəyliyə iri həcmli məktubla müraciət etmiş, hökümətin maliyyə və iqtisadi siyasəti ilə bağlı mülahizələrini bildirmiş, tövsiyyələr vermişdi. Milli pulun dəyərdən düşməsi səbəbləri, ixracata qoyulan qadağaların ölkə iqtisadiyyatına vurduğu zərər, Azərbaycan valyutasını gücləndirmək tədbirləri,yerli sənaye sahəsində hökümət orqanlarınn yeritdiyi siyasətin tənqidi Tağıyevin hökümət başçısına müraciətinin əsas məzmununu təşkil edirdi. Müraciətin motivini Tağıyev məktubun sonunda şərh etmişdi: "Mənim sizə müraciətim tacir və sənayeçinin şəxsi marağından deyil, səmimi vətənpərvərlik hissindən və dövlətin əsl siyasi müstəqilliyinin yalnız onun mayiyyə və iqtisadi müstəqilliyi əsasında mümkünlüyünə dərin inamımdan irəli gəlir ki, bunsuz siyasi mənada azad vətəndaşlar özlərinin sənaye və ticarət baxımından daha güclü qonşularının quluna çevrilirlər". Dövlət qadağalarının və məhdudiyyətlərinin inkişafa əngəl olduğunu göstərən Tağıyev gənc Azərbaycan respublikasının iqtisadi müstəqilliyi üçün zəmin yaratmaq, onun dünyanın digər dövlətlərinin sırasında tamhüquqlu üzv kimi şərəfli yer tutması naminə sənaye və ticarət sərbəstliyini müdafiə etdiyini bildirirdi. 1922-ci ildə H.Z.Tağıyevin Azərbaycan SSR hökümətinin sədri N.Nərimanova müraciəti də eyni motivə söykənmişdir. O, sovet iqtisadi siyasətində məcburi dönüşü işgüzarcasına çevik dəyərləndirmişdir. "Qocalığıma və böyük tarixi hadisələr səbəbindən

müvəqqəti olaraq, indiyədək ölkəmizin iqtisadi həyatında nişanələrini saxlamış əmək fəaliyyətimdən uzaq düşməyimə başmayaraq, artıq fəaliyyətsiz qala bilmərəm, xüsusən hökümətin səsi və xalqın maraqları iqtisadi siyasətin yeni yoluna qədəm qoyaraq, bütün canlı qüvvələri xalq təssərrüfatınn və sənayenin bərpasına səslədiyi bir vatda”. H.Z.Tağıyevin təklifi qəbul edilmədisə də, N.Nərimanovun təklifə münasibəti müsbət olmuşdur: “Qərbi Avropa ona daha artıq etibar edər, nəinki bizə. Əgər o, kredit açarsa, həmin pullara Qərbi Avropadan bizə lazım olan hər şeyi əldə edə bilərik”.

Sovet hakimiyyəti qurulduqdan sonra Tağıyevin bütün müəssisələri milliləşdirildi. Ona Mərdəkandakı bağında yaşamağa icazə verildi. N.Nərimanov Azərbaycan sovet hökümətinə rəhbərlik etdiyi dövrdə və sonra Moskvada fəaliyyət göstərdiyi zaman H.Z.Tağıyevə xeyirxah münasibət bəsləmiş, onu bolşevik hakimiyyətinin təhqiramiz tədbirlərindən qorumuşdur. Tağıyevin vəfatı münasibətilə “Kommunist” qəzetində (1924, 13 sentyabr) nekroloq verilmişdi. Tağıyev öz vəsiyyətinə görə Mərdəkandakı bağından 200-300 metr məsafədə yerləşən, tikintisi onun adı ilə bağlı olan Axund Əbuturab məqbərəsində dəfn edilmişdir. Tağıyevin vəfatından sonra ailəsinin məşəqqətli günləri başlamış, onun adı qatı sinfi düşmənçilik mövqeyindən hallandırılmışdır. Tağıyevin qızı Sara xanım bu münasibətlə barışmayaraq, “H.Z.Tağıyevin maarifçi fəaliyyəti”, “H.Z.Tağıyevin Azərbaycan xalqının mənəvi mədəniyyətinin inkişafında mütərəqqi rolu” mövzularında müstəqil araşdırma aparmış, lakin sovet hakimiyyəti dövründə rəsmi etirafa nail ola bilməmişdir. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra H.Z.Tağıyevin tarixi xidmətləri layiqli qiymətini almışdır. Adına qəsəbə, küçə, məktəb və müəssisələr vardır. 1993-cü ildə “Hacı Zeynalabdin Tağıyev xatirə mərkəzi”təsis edilmişdir. Mərkəz hər il sentyabrın 1-də xatirə gününü, yanvarın 25-də isə təvəllüd gününü qeyd edir. “İnsanlığa xeyixahlıq və fəzilət nümunəsi, sərvət və səxavət sahibi Hacı Zeynalabdin Tağıyev” media mükafatı (1993) onun şərəfinə təsis edilmişdir.

## H.Z.TAĞIYEV XALQIN NİCATINI ELMDƏ, SAVADDA GÖRÜRDÜ

Tamamilə savadsız olan Hacı savadsızlığın acısını duymuş və buna görə də vətən övladlarının, xüsusilə, kasıb, yetim oğlan və qızlarımızın təhsil almasına böyük qayğı göstərmişdir. Hacı avam qatı mövhumatçı molla və qoçuların hədələrinə, dedi-qodularına, müxtəlif çətinliklərə baxmayaraq, Axund Əbuturab, Qazı Mir Məhəmmədkərim ağa, Mir Cəfərzadə kimi tərəqqipərvərlərin təşviq və yardımı ilə öz xərcinə qız məktəbi tikdirir. 7 oktyabr 1901-ci ildə qız məktəbinin açılışı münasibətilə Peterburqdan senator Yanovski, Tiflisdən popecitel Zavodski, Zaqafqaziya Şeyxülislamı Axundzadə, Zaqafqaziya müftisi Qayıbov, Petrovski-Portdan direktor Tokarjevski, Simteropddan mufti Tovriceski-Qipcarski, Şamaxıdan məclis sədri Hacı Məcid Əfəndi, Bağcasaraydan “Tərcumən” qəzetinin naşiri və məktəb sahibi İsmayıl bəy Qasprinski, Bağçasaray şəhər idarəsinin rəisi Mustafa Davud oğlu,  Tiflisdən podpolkovnik Qorçubaşov, Nuxa şəhər başçısı Əmircanov, Hacıtərxan fəqir müsəlmanlarının himayə surasından əlhəqq İsgəndərov, Taleh Tahirov, general-leytenan Amilaxvari, general-leytenant Ərəblinski, Bakı quberniyasının baş keşişi Yunitski, Riqanın müsəlman tələbələri, ümumiyyətlə, Səlyan, Kazan, Vladiqafqaz, Orenburq, Saratov, Ufa, Moskva, Xarkov, Kerç, Yalta, Odessa və digər şəhərlərin maarifpərvərləri onu səmimi qəlbdən təbrik etmişlər.

Məktəbin açılması münasibətilə təbriklərə cavab olaraq Hacı deyir: “Bu məktəbin güsadi barəsində sizin bu növ izhari-rizaməndlik və məmnuniyyətiniz və bu məktəbə olan məhəbbət və hissiyatınız məni bais edir ki, gələcəkdə mən birmərtəbə dəxi bu məktəbin imarətinin üstünə bina edib vaxtilə bu məktəbi müsəlmanlar üçün ünasiyyə, mədrəsəsi-rüşdiyyəsi (gimnaziya) qərar verim. Sizin bu növ hümmətiniz mənim bu fikrimin əncama gəlməsinin dəxi də təcilinə bais olacaqdır”.

Qarabağdan Mirzə Əli əsgər Növrəs qız məktəbinin açılması münasibəti ilə Hacını şeirlə təbrik etmiş və seirin sonunda açılışın maddeyi-tarixini belə vermişdir. Məşhur şairlərimizdən olan Növrəs sonuncu misrada məktəbin açılış tarixini hicri-

qəməri təqvimlə əbcəd hesabı ilə vermişdir. Bu misradakı hərflərin müqabili olan rəqəmlər toplandıqda 1319-a bərabər olur.

Ümumi şəkildə götürdükdə, Hacının maarif sahəsindəki xidmətlərinin coğrafiyası çox geniş və çoxcəhətlidir. 30 min manatdan artıq xərc çəkib yetim və kasıb uşaqlar üçün Mərdəkanda kənd təsərrüfatı təməyüllü internet məktəb açır, teatr binası tikdirib, artist və yazıçıların istifadəsinə verir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir. Öz xərcinə Azərbaycan alim və şairlərinin əsərlərini, həmçinin azərbaycancaya tərcümələri çap etdirir. 1905-1911-ci illərdə İran Məşrutə hərəkatına M.Muxtarovla birlikdə silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına yardım göstərir. Onları məktəb ləvazimatı və lazımı kitabla təmin edir. Daxildə və xaricdə oxuyan maddi təminata ehtiyacı olanları daim diqqət mərkəzində saxlayır. Bakı ətrafı kəndlərdə axar suyun azlığı su dəyirmanı tikməyə imkan vermirdi. Ona görə də Hacı Mərdəkanda 1899-cu ildə dən üyüdən elektrik dəyirmanı tikdirir və qəsəbənin əhalisinə ilk dəfə elektrik işığı verir.

## BEYNƏLMİLƏLÇİ VƏ SÜLHSEVƏR

Hacı həm də böyük beynəlmiləlçi və sülh tərəfdarı olmuşdur. Təkcə bunu qeyd etmək kifayətdir ki, 6 fevral 1905-ci ildə Bakıda Babayev familiyalı bir azərbaycanlının erməni millətçiləri tərəfindən öldürülməsi ilə şəhərdə erməni-müsəlman qırğını başlayarkən, Tiflis bələdiyyə idarəsinin rəisi Vermişevin xahişi ilə o, Tiflis, İrəvan, Şuşa, Şamaxı, Salyan, Gəncə, Nuxa və sair şəhərlərin dövlət məmurları və ruhanilərinə teleqramlar göndərib bu qırğının qarşısını almağı xahiş edir. Hacının teleqramları məclislərdə, kilsələrdə, məscidlərdə, xalq arasında oxunur və xalq onun xahişinə əməl edir. Elə buna görə də fevralın 6-da başlamış qırğına dörd gündən sonra son qoyulur.

H.Z.Tağıyev haqqında ilk əsəri doktor Nəriman Nərimanov yazıb. Bu topluda göstərdiyimiz kimi onun yazdığı əsərin təxminən yarısı Hacıya üz tutub millətə deyilən nəsiyətamiz və ibrətəmiz sözlərdən ibarətdir. 1900-cu ildə çap olunmuş və "Hacı Zeynalabdin Tağıyevin 50 illik məişəti və cəmiyyətə xidmətləri" adlanan bu kitabdan sonra onun bioqrafiyasının yazılmasına bir daha təşəbbüs göstərilmişdir.

Mənbələrdə müəllifi göstərilməyən bu ikinci bioqrafiya həm azərbaycanca həm də farsca nəşr edilmişdir. Azərbaycan dilindəki "Sərvət və səxavətlə məşhur cənab Hacı Zeynalabdin Tağıyevin tərcümeyi-əhvalı" adlanan bu əsər isə 1903-cü ildə hər iki dildə çapdan çıxmışdır. Kitabın üstündə onun kim tərəfindən yazıldığı qeyd olunmasa da, ehtimala görə, müəllif görkəmli yazıçımız Abdulla Şaiqin qardaşı Axund Yusif Talıbzadədir. əsərdə bol-bol sitat gətirilən Quran ayələri, hədislər, farsca şeirlərin mənzum tərcümələri, orijinal şeir nümunələri əsər müəllifinin A.Y.Talıbzadə olduğunu söyləməyə əsas verir. Axund Yusif Talıbzadənin əsrimizin əvvəlində yazdığı aşağıdakı sözləri isə bu ehtimalı daha da gücləndirir: "... ürəyim istəyirdi ki, H.Z.Tağıyevin fəaliyyətləri barədə bir kitab yazım və onun xidmətləri orada müfəssəl surətdə cəm olunsuz. Hörmətli Nəriman bəy Nərimanov böyük zəhmət çəkib, Hacının 20 sentyabr 1901-ci ildə qeyd ediləcək əlli illik fəaliyyəti münasibətilə müxtəsər bir kitab yazdığına görə mən həmin əsəri fars dilinə tərcümə etməyə başladım. Tərcümə zamanı məlum oldu ki, Hacı çox istəyir ki, N.Nərimanovun Azərbaycan dilində yazdığı çox gözəl kitab olan "Nadir şah"ı fars dilinə tərcumə edim və çap olunsun. Mən Hacının özü ilə danışdıqdan sonra "Nadir şah"ı tərcümə etməyə başladım və ona iki müqəddimə əlavə etdim. Ümüdvaram ki, millət və xalqın xadimləri cənab Hacının mədəniyyət sahəsindəki xidmətlərini heç vaxt yaddan çıxarmayacaq və onu həmişə uca tutacaqlar. Onun xeyir işləri daima söylənilləcəkdir". Deməli o vaxt Bakıda şəriət-ehkam müəllimi olan Axund Yusif Talıbzadə Hacının 50 illik yubileyi keçirildikdən sonra N.Nərimanovun yazdığı əsəri fars dilinə tərcümə etməklə kifayətlənməmiş və özü Azərbaycan və fars dillərində daha mükəmməl bir tərcümeyi-hal yazıb çap etdirmişdir.

Topluya daxil edilən tarixi sənəd və məktublar isə 1904-1906-cı illərdə çap olunmuş "Himəm ər-rical" (kişilərin himməti) adlı ikicildlik kitabdan götürülüb. Həmin kitabda H.Z.Tağıyevin millət və dövlət xadimi kimi çoxillik maarifpərvər və sülhsevər fəaliyyətini işıqlandıran sənədlər, həmçinin Yaxın Şərqdə ilk yeni tipli qız məktəbinin açılması münasibətilə ona göndərilən məktub və teleqramlar, Hacıya həsr edilmiş şeirlər toplanmışdır. Bu sənədlərin, xüsusilə, məktubların əhatə dairəsi,

coğrafiyası insanı heyrətə gətirir. “Xalqlar həbsxanası” olan Rusiyada yaşaya-yaşaya bütün İslam dünyasında Hacını tanımayan və Hacının əlaqə saxlamadığı bir maarifçi və ya bir elm, mədəniyyət mərkəsi, görəsən olubmu?! Biz bina şübhə edirik. Bu hissədə orijinalda Azərbaycanca olan məktub və sənədlərdən başqa, nümunə üçün və hədsiz maraq doğurduğundan farsca yazılmış məkrublardan bir neçəsini də ixtisarla tərcümə edib topluya daxil etmişik.

Heç şübhəsiz H.Z.Tağıyevin 1906-cı ildən 1920-ci ilə qədər olan xidmətləri barədə olan məlumatlar, sənədlər müxtəlif arxivlərdə saxlanılır. Yaranmış yeni şərait bizə imkan verir ki, bütün bu sənədləri araşdırıb çap etməklə Hacını olduğu kimi xalqa qaytaraq. Etiraf etməliyik ki, uzun müddət bu sahədə Hacının fəaliyyəti təhrif olunmuş, onun xidmətləri isə başqalarının adına çıxılmış, qaraya ağ, ağa qara deyilmişdir.

1989-cu ildə Novruz bayramında Arif Mənsurovun təşəbbüsü ilə Hacının məzarı qarşısında qoyulmuş büstün açılışı oldu. Bir neçə aydan sonra isə Hacının Mərdəkan qəsəbəsində tikdirdiyi məktəbin 95 illiyi münasibətilə onun məzarı üstündə və məktəbdə mitinq təşkil olundu. Məktəbə əsl sahibinin adı verildi. Vodnikov küçəsi H.Z.Tağıyev küçəsi adlandırıldı və bağının qapısına xatirə lövhəsi vuruldu. 1990-cı il dekabrın 8-də Mərdəkan qəsəbəsindəki Əzizbəyov adına mədəniyyət sarayında Hacının həyat və fəaliyyətinə həsr olunmuş sessiya keçidildi.

Hörmətli oxucular! Sizə təqdim olunan bu kitab xalqımızın mədəni və ictimai tərəqqisində böyük xidmətləri olmuş H.Z.Tağıyevin həyat və fəaliyyətini öz dövrünün aynasında işıqlandırmağa çalışan bir materiallar toplusudur. Materialların müasir əlifbaya çevrilməsi zamanı kütləvi oxucunun tələblərini nəzərə alaraq bəzi söz və ifadələrin yazılışı müasirləşsə də, dövrün dili və üslubu olduğu kimi saxlanılmışdır.

## MİLYONÇU – NEFTXUDA

Hacı Zeynalabdin Tağıyev bütün müsəlman aləmində tanınmış milyonçu-neftxudadır. Onu Bakıdakı müsəlman, rus, erməni və yəhudi cəmiyyəti xeyriyyələrinin hamısı özlərinə fəxri sədr seçmişlər. O, Rusiyada və bütün müsəlman aləmində tanınmış sərmayədar idi.

Atası İçərişəhərli başmaqçı Tağı, anası Bilgəhli Anaxanım olub. Zeynalabin uşaq ikən anası vəfat edib. Atası ikinci dəfə evlənib. Ikinci arvaddan onun 5 qızı olub. Tağı çox kasıb imiş. Zeynalabdin hələ uşaq ikən atası deyir ki, bala, görürsən ki, güzəranımız çox ağır keçir, gəl əlimin altında işlə, mənə həyan ol, bir təhər gündəlik çörək pulu qazanaq. Zeynalabdin cavab verir ki, mən başmaqçı yox, bənna olmaq istəyirəm. Kişi arvadına tapşırır ki, apar bunu qoy bənnanın əli altında işləsin. O vaxtdan başında çanaxda palçıq daşıyır, 6 qəpik günəmuzd alır.

Bir dəfə evə qayıdanda atası deyir ki, bu gün bir qəpik də qazanmamışam, acıq. Zeynalabdin aldığı 6 qəpik muzdu atasına verir. Atası gedib çörək və şirin bağırsaq alıb gətirir, arvadı bişirir, hamısı oturub bir yerdə yeyirlər. Uşaqlar süfrədən qalxmaq istəyəndə Tağı qoymur deyir: "Əyləşin!" Əllərinizi qaldırıb dua edin: "Pərvərdigarə, sənə çox şükür. Çox şükür ki, övladımın qzancından doyunca yedik." – oğluna tərəf dönüb əlavə edir: "Zeynalabdin, ac idik, sən pul gətirdin, bizi doydurdun, həmişə pullu olasan. Əlini, cibini Allah həmişə pullu eləsin".

Yaşı az olduğundan palçıq çanağını güclə daşıyırmış, yoldaşları ona kömək edirmişlər, tez-tez ağır çanağı qaldırıb başına qoyurmuşlar. O da canla-başla çalışırmış, bütün günü bir an belə bekar qalmır, hamıdan tez gələr, gec gedərmiş. 15 yaşında daşyonan, 18 yaşında bənna, sonra da memar – podratçı olur.

1873-cü ildə iki nəfərlə şərik olub Bibiheybətdə icarəyə yer götürüb, avadanlıq alır, usta və əmələlər tutub, buruq qurdurub başlayır quyu qazmağa. Günbəgün xərc artır, neft isə görünmür. Qışda soyuq, yayda cəhənnəm istisi, xəzri-gilavarın qaldırdığı toz göz çıxardır. İlantək qabıq qoyurlar, neft isə çıxmır. Düşmənlər Hacıya gah tamahkar, gah kələfin ucun itirən adam kimi baxırlar. Şəriklər ümidlərini itirir, öz paylarını satmağa müştəri axtarırlar, axırda Hacı özü onların pulunu verib buruğa və yerə yiyələnir. İş daha da ağır gedir. Hacı darıxmır, tək-tənha məşəqqətə dözür. Fəhlələrin muzdunu vaxtında verir. Nəhayət, quyu gözlənilmədən fantan vurur. Başmaqçı Tağının oğlu palçıqçı Zeynalabdin olur milyonçu Tağıyev. Buruq ustası və əmələlər deyirmişlər ki, biz bu adamın səbrinə və zəhmətsevərliyinə valeh olmuşduq, təəccüb edirdik. Bilmirdik 24 saat ərzində o, nə vaxt dincəlir. İş çətinliyə düşəndə də,

ümidsiz vaxtlarda da xoşrəftar, həlim olardı, onun insanlığı bizi vadar edirdi ki, xidmətində olaq. Yaman söz deməz, acıqlanmaz, səhv edənin təqsirindən keçərdi. Sağlam adama havayı pul verməzdi, xəstəyə, əlilə, yetim uşağa, dul qadına əl tutardı.

Şəhərdən Bibiheybətdəki mədəninə şosse yolunu öz xərcinə çəkdirir, eyni zamanda yolu ziyarətgaha qədər uzatdırır.

Üç ilə şəhərin mərkəzində (1895-1897-ci illər) böyük bir saray tikdirir. Bu kaşanənin hər dörd fəsadı və damdakı nəhəng qübbələr diqqəti uzaqdan cəlb edir, bir üzü Bariyatinski (Fioletov), digəri Starıy Politseyski (Məmmədəliyev), üçüncü Merkuri (Şaumyan), dördüncü isə Qarçekov (Malıkin) küçələrinə baxır. Hər cəhətdən, həm xarici arxitekturasına, həm də daxili bər-bəzəyinə görə şəhərin ən yaraşıqlı binalarından biridir. Layihəsinin müəllifi Qoslavski əsasən Avropa order memarlıq üslubundan istifadə edib, fərdi kompozisiya yaradıb (Azərbaycan tarix muzeyi).

Binanın hər dörd tinində və baş girəcəyinin qabağında nəhəng qaz fənarı yanardı, gecələr bu aralar işığa qərq olar, yerə iynə düşsəydi tapılardı.

Hacı Zeynalabdin Tağıyev əvvəl baba mülkündə neftxuda olandan sonra Aramyanın Sadovi (Çkalov) küçəsindəki (xanəndə Seyid Mirbabayevə satdığı) mülkündə kirayəçi olmuşdu. Həmin evi sonra M.Nağıyev kirayələmişdi.

Tağıyev həm neftxuda, həm dəyirman sahibi, həm fabrikant, həm böyük balıq sənayeçisi (bütün Kür ətrafı və Xəzər qırağı vətəkələr onun ixtiyarında idi), həm də ticarət və yük gəmilərinin sahibi idi. Quba tərəfdə Atlıxanda, Yevlax ətrafında böyük meşələri vardı. Ənzəli və Rəşt ərazisində də Hacının meşələri, böyük malikanəsi, binaları və nümayəndəliyi, başqa şəhərlərdə, o cümlədən Moskvada dörd mərtəbəli sarayı, İranda karvansarayları vardı.

Yuxarıda qeyd etdiyimiz kimi İmperator II Nikolayın qardaşı böyük Knyaz Mixail Aleksandroviç polyak qızına evlənib, taxt-tacdan əl götürəndən sonra Tağıyevdən xahiş edir ki, Yevlax ətrafı meşələrdə ov edib dincəlməyə ona icazə versin. O, Hacıya cəvahiratla bəzədilmiş bir qızıl çarka (neymanə) bəxşiş göndərmişdi.

Xəzərin Azərbaycan sahilindən tutmuş Dağıstanın sahillərinə, Dərbənd, Port-Petrovsk (indiki Mahac-Qala) daxil olmaqla uzunluğu 300 kilometr olan torpaq alıb

vətəkə salmışdı, əsasən siyənək balığı, Kür ətrafındakı vətəkələrdə isə qızıl, nərə, ağbalıq və sairə tuturdular. Bankada kürü zavodu vardı. Rusiyaya və Avropaya ixrac edilirdi. Kür qırağındakı vətəkələri dövlətdən icarəyə götürmüşdü.

Tağıyev xeyriyyə işlərinə çox pul xərcləyirdi. İstedadlı gəncləri Rusiya və Avropanın ali məktəblərinə göndərir, məktəb binaları tikdirir, ümid verən ziyalılara maddi yardım edirdi. Seyid Əzim Şirvaninin oğlu Seyid Cəfər deyirdi ki, "Hacı Zeynalabdin Tağıyev atamın ilk külliyatını öz xərcinə Bakıda çap etdirmək istədi, senzor və ruhanilər bu işə mane oldu, Tehrana göndərdi, daş üsulla çap etdirdi. Mətbəəsi vardı, həm azərbaycanca, həm də rusca qəzet və jurnal çap etdirirdi. Əvvəllər hər ay atama 10 manat, sonralar isə 20 manat pul göndərirdi. Neçə dəfə Bakıya dəvət etmişdi, qonaq saxlamış və yaxşı hədiyyələr və pulla yola salmışdı. Məhəmməd Hadinin ilk kitabı "Firdövsülhamat"ı öz xərcinə "Kaspi" mətbəəsində çap etdirmişdi".

1883-cü ildə dram teatrı üçün bina tikdirir. Hacıya ilk təbrik teleqramını məşhur erməni artisti göndərir, xalqı, milləti, doğma şəhəri üçün gördüyü bu nəcib, şərəfli, mütərəqqi iş üçün bir vətəndaş kimi minnətdarlığını bildirir. Hacı çox sevinir. 1893-cü ildə təzədən böyük xərc qoyaraq teatr binasını genişləndirir. 1909-cu ildə teatr binasını yandırırlar, təzədən bərpa etdirir. 1910-ce ildə Bakıda teatr tamaşası verilməsinin 30 illiyi bayram edilir. Bu münasibətlə Üzeyir Hacıbəyov xüsusi marş bəstələyir, Hacı təntənəli mərasimə girəndə artistlər və həvəskarlar ehtiram əlaməti olaraq kənara çəkilib ona yol verirlər, orkestr marşı ifa edir, hacı ortadan keçir.

H.Z.Tağıyev haqqında qısa məlumatda yazdığımız kimi o zamanlar dustaqları Nargin adasında saxlayırdılar. Camaat oraya gedib-gələndə çox əziyyət çəkirdi. Axırda Hacı Zeynalabdinə müraciət etdilər ki, bu işdə bizə kömək elə, dərdimizə çarə qıl. O, da, o zaman şəhərin ucqar yeri hesab edilən Quba (Qüzuli) meydanı ilə Kömürçü meydanı arasında tikdirdiyi beşmərtəbəli dəyirmanı (indiki şirniyyat fabrikini) dustaqxana üçün verir. Bu barədə digər bir rəvayət də var. Bakıya yüksək rütbəli təzə məmur təyin edilir. Hacı onun görüşünə gedir və deyir ki, sizə nə kömək lazımsa, utanmayın, söyləyin, mən padşahlıqdan heç nə müzayiqə edən deyiləm.

Yüksək rütbəli şəxs izah edir ki, "dustaqları Nargin adasında saxlayırıq, işçilər gedib-qayıtmağa çox vaxt sərf edirlər, həm də əziyyət çəkirlər. Mümkünsə bu işdə bizə kömək edin". Hacı Zeynalabdin tikilib qurtarmış dəyirman binasını dustaqxana üçün hökumətə verir. Xaricdən gətirdiyi dəyirman avadanlıqlarını toxuculuq fabriki yerləşən əraziyə daşıtdırıb, orda  dəyirman tikdirir. Özü və ailəsi yaşamaq üçün fabrikin yaxınlığında xüsusi mülk tikdirmişdi və vaxtaşırı orada qalırdılar.

Müəllim Soltan Məcid Qənizadə maarif-mədəniyyət işlərilə əlaqədar tez-tez Tağıyevlə görüşürmüş. Nəql edirdi ki, məşhur rus kimyagəri Mendeleyev Bakıya gələndə Tağıyev onu evinə dəvət edib, şərəfinə ziyafət verir. Hacının kabinetində, stol üstündə Mendeleyevin avtoqrafı ilə xatirə foto-şəkli dururdu. Mendeleyev Avropada ən ətraflı ensiklopediya hesab edilən Brakqauz və Yetron ensiklopediyasında Hacı Zeynalabdin Tağıyev, onun palçıq daşıyan fəhlədən milyonçu olması barədə xüsüsi məqalə nəşr etdirir. Mendeleyev deyir: - 1863-cü ildə V.A.Kokoryev neft zavodlarına baxmaq üçün məni Bakıya dəvət edir. Dövlət idarələri ilə əlbir neft sənayesində 6 nəfər: Bakıda, Kokoryev, Burmeyster, Hacı Tağıyev, Lents, Nobel, Kubanda isə polkovnik A.N.Novoseltski mühüm mövqe tuturdular.

Hacı Zeynalabdin Tağıyev Bakı neft sənayesində əsas hərəkətə təkan verən şəxslərdən biridir. Bakıda, Bibiheybətdə dəniz qırağında torpaq ələ keçirib əqlə gəlməyən qüvvə ilə, inadla quyu qazmağa başlayır və qazdığı çoxlu quyuların hamısı güclü fontan vurur, neft hasil edilən yerin lap yaxınlığında böyük zavod tikir, Rusiya şəhərlərilə ticarətə başlayır və işlərini çox ehtiyat və bacarıqla elə idarə edir ki, Bakıda hər gün baş verən çoxlu böhrandan salamat çıxır. 1863-cü ildə Bakıda olanda mən Tağıyevi balaca bir podratçı (ev tikən bənna) kimi tanıyırdım, işi ağılla aparmaq sayəsində zəngin vəsait və sərvət əldə etmək olar.

1883-cü ildə Tağıyevin mədənlərində 13 milyon put neft fontan vurmuşdu.

"Mazut" şirkətinin yaranması ilə əlaqədar, Hacının məsləhətilə yerli varlılardan çolaq Ağabala Quliyevin başçılığı ilə "Bakı-Batum" neft kəməri aksioner şirkətini yaradırlar. Bu neft kəmərinin əleyhinə həm açıq, həm də gizli çıxış edənlər olmuşdur. Əlaltından iş görənlər vardı, çünki bəziləri çox qazancın əllərindən çıxmasından

qorxurdular, paxıllar da az deyildi. O zaman üçün nəhəng inşaat hesab edilən bu neft kəməri Bakıdan başlayaraq Kür düzənliyindən keçib, Qafqaz dağlarının ətəyini və Suram qalasının yamacını aşıb, Peon düzənliyindən ötərək 800 kilometr məsafədə uzanıb Xəzər sahilini Qara dəniz sahiliylə birləşdirəcəkdi. Bakı nefti okeanlara, uzaq-uzaq ölkələrə, beynəlxalq bazarlara yol açacaqdı. Kəməri uzatmağa 1897-ci ildə başlayıb, 1907-ci ildə (on ilə) tamamlamışdılar.

## QIZ MƏKTƏBİ HAQQINDA

Professor Hadi Əliyev deyir ki, mühəndis dayım İbad Əliyev Tağıyevin Bibiheybətdəki mədənində müdir olmuşdu, onunla yaxın idi. Şollar su kəmərini çəkəndə avadanlığı gətirmək üçün İbadı yolladı Rusiyaya. 120 vaqon maşın nasos və digər avadanlıq gətirdi və işi tamamlayıb başa çatdırdılar. Hadinin dediyinə görə, dayısı İbad nəql edirmiş ki, imperator III Aleksandr sağ olanda Tağıyev ona ərzhal yazıb, müsəlman qızlarının öz ana dillərində oxumaları üçün Bakıda məktəb açmağa icazə istəyir. III Aleksandr bu xahişi rədd edir. O, öləndən sonra II Nikolay taxta çıxır. Tacgüzarlıq mərasimi münasibətilə Hacı bir senatorun vasitəçiliyi ilə Nikolayın arvadı Aleksandra Fyodorovnaya çox bahalı hədiyyə çatdırır və eyni zamanda Bakıda qız məktəbi açmaq barədə təkrar xahişnamə göndərir və rica edir ki, rus-müsəlman qız məktəbinə Saritsa Aleksandra Fyodorovnanın adı verilsin. Eyni zamanda qız məktəbinin xərcini ödəmək üçün banka 150.000 manat qoyur, bu da beş faizlə ildə 7500 manat gəlir gətirəcəkdi və bununla da məktəbin xərci artıqlaması ilə ödəniləcəkdir. İki gündən sonra 1896-cı ildə qız məktəbi açmağa icazə verildi. Tağıyev məktəb binasının layihəsini mahir memar Qoslovskiyə tapşırdı. Binanı 1898-ci ildə tikməyə başladılar. 1900-cü ildə hazır oldu. 184.000 manata başa gəldi. Bu məktəb Nikolayevski (kommunist) küçəsində (Azərbaycan SSR Elmlər Akademiyasının Əlyazmaları fondunun binası) yerləşir.

Qız məktəbi binası 864 kvadrat sajen yer tutur. Gözəlliyi küçənin və ətrafın memarlığında yeni, parlaq və zəngin səhifə açır. Həcminə görə bu bina istənilən vaxt ali məktəb üçün istifadə oluna bilər. Qız məktəbini açmaq üçün Hacı görkəmli din

xadimlərini, ruhaniləri, evinə dəvət edib əhvalatı onlara danışır, məsələni mümkün qədər xoşluqla həll etmək istəyir. Çünki o zaman bütün əhali onlara inanır və qulaq asırdı. İstədikləri vaxt "cihad" elan edə bilərdilər.

Ruhanilər qızlara təhsil vermək təklifindən qəzəblənir və camaatı ayağa qaldırırlar. O günün sabahı, təklifi bəyənmiş qazı Mir Məhəmməd Kərimin qapılarına ağ neft töküb evi yandırmaqla təhdid edirlər, axund Mirzə Abuturabın qapısına nəciz yaxırlar. Bu hadisədən sonra Hacı taktikasını dəyişir. Müsəlman qaragüruhçularının bəhanələrini kəsmək, ağızlarını yummaq üçün molla Mirzə Məhəmməd oğlunu çağırıb güclü pul və hədiyyələr verib müqəddəs hesab edilən yerlərə - Məkkəyə, Mədinəyə, Kərbalaya, Xorasana, Qahirəyə, İstanbula, Tehrana və sair yerlərə göndərir və tapşırır ki, oradakı mötəbər, rəsmi din xadimlərindən, müctəhidlərin hamısından imza və möhürlə təsdiq edilmiş rəsmi sənədlər alsın ki, müsəlman qızları da oğlanlar kimi şəriət məktəblərindən başqa müasir məktəblərdə təhsil ala bilərlər, burada heç bir xilaf şər yoxdur.

Müsəlman qızları üçün müasir məktəbin açılması xəbəri şəhərə vəlvələ salır, məclislərdə, bazarlarda, dükanlarda, toyda, yasda bu barədə söhbət gedir. Məhəllələrin başçıları, şəhərin ağsaqqalları qara camaatı bərk həyəcana gətirirlər.

Molla Mirzə çox bacarıqlı adam olduğundan Hacının tapşırığını yerinə yetirib müsəlman aləminin o zaman məşhur olan səkkiz müctəhidindən möhürlü, imzalı sənədlər alıb dala qayıdır. Tağıyev ruhanilərin başçılarını evinə dəvət edir, bir-bir soruşur ki, hansı müctəhidə etiqad edirsən? (o vaxtlarda hərənin etiqad etdiyi müctəhidi var idi, o nə desəydi sözsüz qanun idi). Hərə öz müctəhidini deyir, Hacı onların imzaladığı möhürlü məktubu göstərir ki, onlar qızların müasir elm oxumalarını şərən təsdiq edirlər.

Tağıyev Rusiya imperiyasında millətlərə fərq qoymadan maarif və mədəniyyət, bütün xeyriyyə işlərinə çox dəyərli xidmət göstərib, külli miqdarda pul xərclədiyinə görə imperator ona həqiqi dövlət müşaviri (deystvitelniy statiskiy sovetnik) rütbəsi vermişdi. Bu rütbə general, kontr-admiral, bir də ober-prokuror rütbəsinə bərabər idi. Böyük hüququ vardı. Ruhaniləri və məhəllə başçılarını, sözükeçən nüfuzlu şəxsləri Təzəpir məscidinə yığır və müsəlman qızları üçün müasir məktəb açmaq məsələsini

müzakirəyə başlayır. Gah başa salır, gah yalvarır, gah da qorxudur. Qaragüruhçu iri əmmaməli, qara əbalı ruhanilər, yekəqarın, enliqurşaq, saqqalı hənalı hacılar ortaya çıxıb isməti-nişvandan danışa-danışa, Qurandan ayələr, peyğəmbər, xəlifə və imamlardan hədislər və sübutlar gətirərək bu işi küfr adlandırırlar, Hacı Zeynalabdin Tağıyevi dindən kənar əməllərdə günahlandırırdılar. Tapançalı-xəncərli qoçular isə təhdidə keçirlər.

Tağıyev müqəddəs ziyarətgahlardakı mücəhid və din xadimlərinin imzaladıqları, möhürlə təsdiq etdikləri sənəd və şəhadətnamələri məsciddə də təkrar-təkrar oxutdurub camaata başa salmağa cəhd edirdi ki, qızların elm oxumalarında heç bir xilaf -şər yoxdur, əksinə, bu çox vacib və lazımdır.

Məclisdə iştirak edən ən mötəbər iki din xadimi Bakı quberniya qazisi Mir Məhəmməd Kərim və MİrzəAbuturab Axund Quran ayələrini ərəbcədən dilimizə tərcümə edib, müslüm (müsəlman kişiləri) kimi, müsluma (arvadları) da bütün biliklərə yiyələnməyə borcludur. Zəmanə elmi oxumaqda xilaf-şər yoxdur.

Yenə etiraz səsləri ucalır.

Bu dəfə Hacı Zeynalabdin özü danışmağa başlayır: "Camaat, qızlarımızın zəmanə dərsi oxumaları vacibdir, gözləri açılar, külfətdə rəftarları xoş olar. İngilistana, Germaniyaya, Firəngistana gedib oxuyan cavanlarımız, hərəsi oralardan qollarına bir arvad keçirib gətirirlər, çünki qızlarımıznan məcazları tutmur, dolana bilmirlər, əcnəbi arvadlardan doğulan uşaqlar öz-özünə olurlar mürtəd və bütün varidatlarımıza vərəsə çıxırlar. İşlər belə getsə ata-baba ocaqları qalacaq Quransız, namazsız, şəriətsizlərə. Təzə məktəbdə qızlara ehkami şəriyyə, paltar tikmək, toxuculuq, mətbəx işləri, müsəlman və rus dili oxuyub yazmaq elmi hesab, tifillərə tərbiyə vermək öyrədiləcək. Burda nə pis şey var?! Molla Əli Hacı Xəlil oğlu! Qulaq as! Mən qızları ismətsiz etmək istəmirəm, naməhrəmlə üzüaçıq olmağa çağırmıram, srağa gecə iyirmi yaşlı ortancıl qızım sancılanmışdı, az qalmışdı ölsün. Lopabığ Ambarsun həkimi gətizdirdim qızı yoxladı, dava-dərman elədi, qız ölümdən qurtardı. İndi de görüm, lopabığ Ambarsumun əvəzinə müsəlman arvad həkimi olsaydı, şəriətə hansı daha düzgün gələrdi? Arvad həkimlərinə, müəllimlərinə ehtiyacımız çoxdu. O

məktəbi mən, bizə padşahlıqda vəhşi deyiləndən sonra qərara gəldim açdırım. Ətək dolusu pul töküb, bu məqsədlə bina tikdirmişəm. Dərs deyənlər Zənən xeylağı olacaq, Kazan şəhərinə adam göndərmişəm ki, müsəlman – tatar arvadlarından dərs deyənlər tapıb gətirsinlər Xədicə xanım adında bir nəfər tapıblar. Bütün Urusiyyət qəzetlərində elan etdirmişəm ki, dilimizi bilən arvad müəllim axtarıram...” İki nəfər arvad müəllimə gəlmək istəyir. Biri Məryəm xanım Sürkevna Litva tatarlarından, o biri müəllimə isə Axelskidən Hənifə xanımdır.

Sabahı gün şəhərdə abır-həya pərdəsi altında qeylüqal qopur, qoçular küçələrə tökülüşüb dikdəban ayaqqabı geymiş müsəlman qadın və qızlarının tufli və çəkmələrini çıxardıb, zorla nəleyin geydirirdilər, azca üzüaçıq olanların başlarına iri, qara çadra örtürdülər, mane olmaq istəyənləri, danışanları döyür, ölümlə hədələyirdilər. Qızlarını təzə məktəbə göndərənlərin evlərinə soxulub öldürürdülər. O cümlədən İçərişəhərli, Axund Molla Ruhullanın evinə zorla girib namaz üstündə kişini qətl etmişlər ki, birdən-birə iki qızını şkola yollayıb.

Hökumət məmurları belə biyabırçılığa kənardan tamaşa edirdilər və deyirdilər ki, biz din-məzhəb məsələlərinə qarışmırıq. Onlar əslində bu məktəbin açılmasını istəmirdilər.

Tağıyev qızlara məsləhət görür ki, çarın arvadı Aleksandra Fyodorovnaya bir teleqram göndərin, minnətdarlığınızı bildirin ki, sizə məktəb açmağa icazə verib və razı olub ki, məktəbimizə onun adı verilsin.

İki gündən sonra Aleksandra Fyodorovna qızlara teleqramla cavab yollayır, yeni açılmış məktəbdə əla oxuyub Vətənə və cəmiyyətə faydalı olmalarını, həyatda xoşbəxt yaşamalarını arzu edir. Bu teleqramla bütün mübahisələr və müsəlman qız məktəbinin taleyi bir dəfəlik həll edilir.

Məktəbə 58 qız qəbul edilmişdi, onlardan 35 nəfəri kasıb ailələrdən idi, onlar təhsil haqqından azad edilmişdilər. Geyim və yemək-içməklərinin haqqını Tağıyev ödəyirdi. Əvvəldən 20 nəfər kasıb qızın pulsuz götürülməsi nəzərdə tutulmuşdu. Sonra Hacı bu siyahıya 15 nəfər də əlavə edir. Bu məktəb pansion və qapalı idi, qızlara həftədə bir dəfə, cümə günləri səhər saat 10-dan 17-yə qədər evlərinə getməyə icazə verilirdi.

Məktəbdə dərslər 1901-ci il sentyabrın 7-də başlamışdı. Sentyabrın 9-da isə dərs-açılış bayramı edildi. Krımdan, Özbəkistandan, Peterburq və başqa yerlərdən çoxlu təbrik teleqramı gəlir. Peterburqdan senator Yankovski Tağıyevə yazırdı: "Sizin xərciniz və sizin səyyiniz sayəsində açılan məktəbə müvəffəqiyyət arzulayırıq". Tağıyev yığıncaqdakı çıxışında deyir: "Bu qız məktəbini gələcəkdə gimnaziyaya çevirməliyik, bu mənim arzum və amalımdır."

Bu şənlik münasibətilə öz sevincini bildirənlərdən biri də Həsənbəy Zərdabi idi. O atəşin çıxışını bu sözlərlə tamamlayır: "Çox yaşa, Hacı!"

Çox keçmədi ki, Rusiya imperiyasının başqa yerlərində - Tiflisdə, Kazanda, Başqırdıstanda və Dağıstanda da müsəlman qız məktəbləri açıldı. 1915-ci ildə Bakıda 5 qız məktəbi vardı. Onlardan biri də Balaxanıda idi.

Bakıda ilk dəfə açılan Aleksandra Fyodorovna adına qız məktəbini Dl Bay adlı bir fransız Parisdə buraxdığı kitabda əcayib, ağlasığmaz bir möcüzə adlandırırdı.

Bakı rus-müsəlman qız məktəbinin şagirdləri üçün Dağıstan qızlarının geyimi rəsmi libas kimi qəbul edilmişdi. 1909-cu ildən isə bu məktəbin rəsmi paltarı rus qız məktəblərinin paltarı ilə əvəz edildi. Abı rəngli parçadan don, ağ fartuk, bir də pelorına. Gündəlik geyimdən başqa bayram və mərasim libası da vardı. Imtahan vaxtı, bayram günləri, teatra və gəzməyə gedəndə mərasim libasını geyirdilər. 4 illik məktəb 2 ildən sonra oldu 5 illik, sonra 6 illik, axırda da seminariya. Hacı banka 100.000 manat 5 faizli qızıl pul verib məktəbi seminariyaya çevirtdirmişdi. Onu da qeyd etmək vacibdir ki, təkcə məktəb binası tarixi sənədlərə görə 183.533 manat qızıl pula tamam olmuşdu. Tədris avadanlığına əlavə qızıl pulla 29.000 manat xərclənmişdi. Bankda da 125.000 manat toxunulmaz kapital 5 faiz gəlirlə saxlanılırdı ki, məktəbin xərclərini təmin etsin. Məktəb seminariyaya çevriləndən sonra vəsait 225.000 manat olmuşdu.

Binanın zirzəmisi Orucov qardaşlarına mətbəə üçün kirayəyə verilmişdi ki, buradan da əldə edilən pul yenə qız məktəbinin ehtiyacına sərf edilirdi. Həmin məktəbin nəzdində arvad müəllimlər üçün iki illik hazırlıq kursu açılmışdı.

Qız məktəbinin binası memarlıq baxımından maraqlı, Azərbaycan memarlığının milli-romantik üslubundadır. Əsas fəsaddakı divar bir cərgə ağ, digər cərgə isə qızılı daşdan hörülüb.

Məktəbi ilk dəfə qurtaran qızlara Hacı özü bir nüsxə Azərbaycan dilinə tərcümə edilmiş Quran, Sədinin “Gülüstan”, Lev Tolstoyun, Puşkinin, Qoqolun, Lermontovun əsərlərindən nüsxələr, təzə libas və başqa hədiyyələr verir və bundan sonra hədiyyə vermək ənənə olur.

Quranın tərcümə edilməsinin də tarixi maraqlıdır. Qara-güruhçu mollalar etiraz edirlər ki, Quranı ərəbcə oxuyarlar, kəlam ilahidir, heç kimin haqqı yoxdu və heç kəs onun mənasını dərk edib çevirə bilməz.

Tağıyev qazı Mirməhəmməd Kərimi Bağdada göndərib rəsmi sənədlər gətirdir ki, Quranı tərcümə etmək olar. Sonra da Leypsiqdən ərəb şriftləri gətizdirib Quranın Azərbaycan dilində tərcüməsini çap etdirir. Tərcüməçi qazı Mir Məhəmməd Kərim idi.

Qız məktəbinin birinci müdirəsi Hənifə xanım Məlikova idi (Həsənbəy Zərdabinin arvadı).

İran şahı yolüstü bakıda olanda, arvadı qız məktəbinmə gəlir və hər şagirdə qızıl zəncirdən asılmış bir onluq qızıl bağışlayır. Qızlar bu bəxşişi həmayıl kimi boyunlarından asırlar.

Hacı Zeynalabdin öz qızları – Sara və Leylanı Peterburqa Smolni qız institutuna oxumağa göndərmək qərarına gəlir, sənədləri ora yollayır. Çox keçmir, Smolnidən rədd cavabı gəlir ki, nə bəq, nə xan və nə də zadəgan olmadığınız üçün qızlarınızı qəbul edə bilmərik. Bu instituta yalnız qraf, knyaz, xan, bəy və əmir qızları qəbul edilir. Hacının arvadı Sona xanım rəsmi sənəd təqdim edir ki, atası general Ərəblinski müharibədə rəşadət göstərib və Rusiyaya sədaqətinə görə çar tərəfindən qızıl silahla təltif olunmuşdur, bu qızlar da onun nəvələridir, bütün imtiyazlardan istifadə etməyə hüquqları var. Tağıyevin qızları ana babaları – general Ərəblinskiyə görə Smolni institutuna qəbul edilirlər. Tağıyev Moskvanın mərkəsində, Lenin kitabxanasının yaxınlığında dəbdəbəli, dördmərtəbəli bir imarət tikdirib, yolu düşəndə həmin mülkündə qalırdı.

## HACI ZEYNALABDİN HAQQINDA ƏHVALATLAR

Təzə tədris üsulunun banilərindən biri, Bakı quberniyası maarif inspektoru, qocaman müəllim, yazıçı Soltan Məcid Qənizadə deyirdi ki, III Aleksandr taxta çıxıb tacgüzarlıq etdikdə Zaqafqaziya müsəlmanları tərəfindən Hacı Zeynalabdin Tağıyev Peterburqa nümayəndə göndərilmişdi. Mərasim zamanı nazirlər soveti sadri çarın sağ tərəfində dayanıb, gələnləri bir-bir ona təqdim edirmiş. Hacı Zeynalabdin müsəlman libasında, əynində arxalıq, üstündən çuxa, ayağında şirazi çarıq, əlində dəsmal, duz, çörək çara yaxınlaşanda nazirlər sovetinin sədri, elə güman edir ki, Tağıyev başa düşmür, deyir: "Vaşe veliçestvo, eto predstavitel dikoqo naroda (vəhşi xalqın nümayəndəsidir)". Tağıyev deyir: "mı ne dikie, moy narod ne dikiy, on imeet boqatuyu, mnoqovekovuyu svoi istorii (biz vəhşi deyilik, mənim xalqım vəhşi deyil, o çoxəsrlik zəngin tarixə maliokdir)".

Qənizadə başqa bir əhvalat danışaraq deyir ki, Qori şəhərində - müsəlman şagirdlərini seminariyaya yerləşdirməyə getmişdim. İmtahan vermiş müsəlman uşaqlarının ikisini məktəbə götürmürdülər ki, vəsait yoxdur. Direktorla toqquşduq və dedim ki, o uşaqlar bu seminariyada oxuyacaqlar. Gedib Hacıya teleqram vurdum ki, iki nəfərin xərcini boynunuza götürün. Cavab gəldi ki, dörd müsəlman, iki erməni və iki gürcü şagirdinin bütün xərclərini ödəməyi öhdəmə götürürəm.

Belə maraqlı bir əhvalat da nəql edirdi: "Rəssam Brodski Hacı Zeynalabdin Tağıyevin rəsmi statisti sovetnik libasında, xüsusi lentada orden və medallar döşündə bədənnüma portretini rəsm edir, iki seansda işi tamamlayır. Hacı nə qədər pul verəcəyini xəbər alır. Brodski deyir ki, on min manat. Hacı təəccüblə soruşur ki, "3 saata on min?!" Rəssam deyir: "xeyr, Hacı, üç saata yox, 25 il, yeddi ay, iyirmi bir gün və üç saat..."

Bu vaxt kabinetə ucaboy, orta yaşlı, ciddi simalı bir şəxs girir. Əynində çuxa, onun altından arxalıq, belində qurşaq, başında buxara papaq, ayaqlarında şirazi çarıq, saqqalı nadir, Hacı ilə görüşüb, qurşağın içəri tərəfindən bir pul kisəsi çıxarıb Hacıya uzadır və deyir: "Hacı, bu əmanətinizi alın, çox sag olun. Allah sizi üstümüzdən əskik

eləməsin, əliniz həmişə uzun olsun". Hacı hesabdarı çağırır: "Mir Həbib Ağa, gəl bu əmanəti al!" Mir Həbib pul kisəsini alıb kişidən adını xəbər alır və gedib haqq-hesab dəftərini yoxlayıb qayıdır, Hacıya xəbər verir ki, 1000 manatdır, 100 dənə onluq qızıl. Borc qaytaran deyir: "Hacı zəhmət olmasa, mənim sizə girov qoyduğum əmanətimi qaytarın". Hacı maraqla soruşur: "Nə qoymuşdun girov?" Kişi deyir: "Quranı açın, balaca zərfi Yasin surəsi olan vərəqə qoydunuz". Mir Həbib iri Quarnı açıb balaca zərfi götürdü və zərfin içindən iki dənə saqqal tükünü çıxardıb yiyəsinə qaytarır. Bu mənzərəni seyr edən rəssam məəttəl qalır, heç nə başa düşmür. Mir Həbib onu başa salır ki, bizdə borc alanda saqqaldan bir-iki tük girov qoymaq adəti var. Heç kəs bu qanunu pozmuq. Düşsə, pozan olsa, namussuz hesab edilir. Onunla heç kəs alış-veriş, dad-ustad etmir. Rəssam məəttəl qalır, gözləri kəlləsinə çıxır.

Çənbərəkəndli rəncbər Kərbəla Gülü deyirdi ki, qırx il bundan qabaq quraqlıq oldu, bərk qıtlıq düşdü, arpa-buğda tapılmadı, bir tərəfdən də vəba azarı düşmüşdü. Camaat acından qırılırdı. Dəllallar arpa-buğdanı baha qiymətə satırdılar. Hacı Zeynalabdin dörd taxta anbar tikdirib, birinə arpa, birinə buğda, birinə un, birinə düyü doldurur və ac əhaliyə-füqəra və möhtaclara, xəstələrə, yetimlərə kömək edirdi. Buna görə də camaat Hacıya mahnı qoşmuşdu:

Hacı Zeynal Abdin
Xasi bəndeyi xuda,
Açıb buğda anbarın
Paylayır füqəraya.

Dənə torpaq qatıb baha satan alverçilər Hacıya düşmən kəsilmişdilər.

1892-ci ildə vəba azarından çox adam öldü. Kasıblar kəfən ala bilmir, meyit ortada qalırdı. Sabunçulu Məhəmməd Cəfər bəy bir tay bez alıb qoyur məscidə ki, ölüləri tez kəfənləyib basdırsınlar, meyid yerdə qalmasın. Camaat arasında yarı zarafat, yarı ciddi, yarı istehza ilə deyirdilər: "Ölüm haqqdan, kəfən Məhəmməd Cəfər bəydən". Bu sözlər zərb-məsələ dönüb dillər əzbəri oldu.

Kərbəla gülü yenə nəql edirdi ki, bir arvad gəlir Hacının yanına ki, ərim ölüb. Heç kəsim yoxdu, uşaqlarım acından öləcək, onları dolandıra bilmirəm, kömək elə. O, da cavab verir ki, get fikirləşib, tədbir görərərm. Bir həftə sonra arvada gündə bir

vedrə süd verən Rusiyyət inəyi, bir də ələt xərci yollayır. Arvad süd, qatıq, qaymaq satıb uşaqlarını böyüdür.

Mərdəkanlı qoca bağban nəql edirdi ki, bir axşam bir qoca Hacının yanına gəlir. Qoca 20 dənə də yumurta gətirir və deyir ki, oğlumu evləndirirəm, istəyirəm pullu toy edəm. Hacı deyir: “Allah mübarək eləsin, amma toyu pullu eləmə. Kənddə hamı kasıbdır, çağıracaqsan, onlar sənə nə gətirəcək? Üç şahı, bir abbası, yuxarı başı yarım manat. Mən sənə 50 manat verim, get toy elə”. Çıxardıb verir, qoca gedir. Birdən Hacı nə fikirləşdisə məni onun dalınca göndərdi. Dedi ki, çağır qocanı dala. Yürüyüb qocanı qaytardım. Hacı dedi: “A kişi, o pul böyük puldu, yolda səni döyərlər, lap öldürə də bilərlər. Pulu qoy burda, sabah gəl apar”. Qoca dedi: “Xeyr, Hacı, bu pulu mən qaytara bilmərəm. Birdən sən gecə öldün, sabah uşaqlar mənə pul verər? Yox.” Hacı gülümsəyib razılaşdı: “Doğru deyirsən. Ola bilər. Nəfəsdir, getdi, gəlmədi. Nə etibar”. Dönüb mənə dedi: “Apar kişini evinə qədər yola sal”.

Hacı Zeynalabdin bir dəfə Parapetin yanından keçəndə görür ki, bir neçə nəfər aktyor, xanəndə restoranın qabağında dayanıb söhbət edirlər. Salamlaşıb ayaq saxlayır, niyə yığışdıqlarını soruşur. Onların əvəzinə restoran sahibi cavab verir: “Hacı, uşaqlar nahar etmək istəyirlər, amma pulları yoxdur”. Hacı gülümsəyir və deyir: “Yaxşı, uşaqları mənim hesabıma yedirt”. Üç gündən sonra Hacı ordan keçəndə qapı ağzında dayanmış restoran sahibindən xəbər alır: “O uşaqların yeyib-içdiklərinin hesabını niyə göndərməmisən?” Restoran sahibi irişə-irişə deyir: “Hələ qurtarmayıblar, yeyib-içirlər”. Hacı gülümsəyir: “Bu gün yola sal onları”.

Bir nəfər Hacının yanına dəfələrlə gəlib onun iş müdirlərinin birindən çuğulluq edir: “Əli əyridir, sənin hesabına ikimərtəbəli mülk tikdirib, qardaşına dükan açıb, fayton alıb, işdən qov”. Hacı gülümsəyib deyir: “Qalmağı məsləhətdir. O, nə lazımdır hamısını eləyib, alıb, tikdirib bundan sonra işləyəcək, onu çıxardıb, başqa adam götürsəm, o, da köhnənin elədiklərini təzədən başlayacaq. Qalmağı məsləhətdir”.

Zeynal bəy Səlimxanov deyirdi ki, axşamlar çox vaxt Hacı kabinetində olardı, yaxın adamları, şəhərin adlı-sanlı sakinləri söhbətə gələrdilər, qəzet və kitab oxuyardılar. Ərəb, fars, bir də türk qəzetlərini yaxşı səsi olan bir mirzə oxuyardı, rus

dilində başqa bir nəfər, fransız, ingilis dilində və alman dilindəki qəzetləri qoca bir kişi oxuyardı. Bir dəfə Mirzə Gürc Zeydanın, qazı Mir Məmməd Kərim ağanın tərcümə etdiyi "On yeddi ramazan" romanını oxuyurdu. Hacı kresloda oturub gözlərini yummuşdu, bilmək olmurdu, yatıb, ya ki, oyaqdır. Əsərdə Xəlifə Həzrət Əlinin şücaəti və xidmətləri təsvir edilirdi. Birdən Hacı gözlərini açıb dikəldi və dedi: "Başına döndüyüm imam Həzrət Əli ağa heç baltika-zad bilmirmiş, səlbəni elə düzünəqulu tolazlayırmış".

Mühəndis Rza Rzayev danışırdı ki, gimnaziyada oxuyurdum, 1919-cu ildə Novruz bayramı münasibətilə kasıb və yetim uşaqlara ianə toplayırdılar. Mənə üç nəfər şagirdlə birgə qıfıllı, möhürlü balaca bir qutu verib dövlətlilərin evinə, mağaza və kontorlarına ianə üçün göndərdilər. Bir neçə yerdən ianə toplayıb, sonra da getdik Hacı Zeynalabdin Tağıyevin evinə. Bizi içəriyə buraxmadılar. Qapıçını dilə tutub zor-bəla ilə Hacıya xəbər çatdırdım ki, İçəri şəhərli Hacı Əlinağının nəvəsi gəlib. O saat bizi içəri buraxdılar, qalxdıq kabinetə. Hacı kresloda oturmuşdu, məndən soruşdu ki, "Sən mənə xəbər verilən kiçinin nəvəsisən?" Cavab verdim ki, "Bəli, Hacı ağa". Hacı tənəkə qutunu göstərib xəbər aldı ki, "bu qutuya başqa adamlar pul salıb?" "Bəli, Hacı" – deyə dilləndim. Hacı dedi: "Onda bu qutunu aparın verin məktəbə, başqa bir boş qutu gətirin".

Boş qutu ilə geri qayıtdıq. Hacı qutuya bir çek saldı. Məktəbdə qutunu açanda məlum oldu ki, Hacı yetim və kasıb uşaqların xeyrinə 5000 manat ianə verib.

Bir gün Bakı varlıları Hacıya şikayət edirlər ki, şəhərin aşağı məhəllələrində ermənilər mülk tikdirirlər, tədbir görün, qabağını alın. Hacı deyir: "Qoy tiksinlər, qabağını almaq lazım deyil. Yeri düşəndə, mən özüm də onları şirnikləndirirəm ki, tiksinlər. Mülk yerdə qalacaq, heç kəs gedəndə bunları apara bilməyəcək. Aramyanı görmədiz, şahanə saray tikdirdi, özü getdi, mülk qaldı, xanəndə seyidə qismət oldu". Bir neçə adam küçədə Hacıya rast gəlirlər. Hacı soruşur: "Nə var, nə yox?" Deyirlər ki, "Hacı, neçə gündü şəhərdə bir dənə də olsun təzə balıq tapılmır. Kömək eləyin". Hacı deyir: "Arxayın olun, bu günlərdə şəhərə balıq gətirərlər". Sabahı gün faytona minib gedir vətəkələrindən birinə. Balıqçılar Hacını görəndə əl-ayağa düşür, torlarını yığır, canla-başla çalışırlar. Hacı təzə tutulmuş, çabalayan bir balığı gətizdirir,

barmağındakı brilyant üzüyü çıxardıb məftillə balığın quyruğuna bənd edib dənizə buraxır. Bu xəbər bütün vətəkələrə yayılır. Balıqçılar quyruğunda brilyant üzük olan balığı tutmağa cəhd edirlər. İki gündən sonra şəhər bazarlarına o qədər şamayı, kütüm, som, sazan, çapaq, leş, osetirin, sevruqa, qızıl və ağ balıq gətirirlər ki, tərpənmək olmur.

Hacı pula güvənib yolundan azmamaq üçün bənnalıq etdiyi baltanı imarətindəki iki otaq seyflərindən birinin divarından qapı ilə üzbə-üz asıbmış ki, hər açanda görsün və o günlərini yadından çıxartmasın.

Xalq artisti Sidqi Ruhulla deyirdi ki, “Hacı palçıq daşıyan zamanlarda yaşca ondan böyük Murad adında usta köməkçisi ona çox mehribanlıq göstərir, tez-tez palçıq dolu çanağı götürüb onun başına qoyurmuş, nərdivana qalxanda qolundan yapışıb həyan olurmuş, dostlaşırlar. Murad elə sonradan da bənna olaraq qalır, Hacı olur milyonçu. Bir dəfə rast gələndə Murad söhbətarası deyir ki, Hacı camaat danışır ki, Tağıyev birdən-birə alış-verişdə 50.000 manat qazanıb, axı bu necə olur. Hacı deyir: “Usta Murad, on gündən sonra Parisə yola düşürəm, get hazırlaş səni özümlə ora aparacam”. Vaxt çatanda gedirlər Parisə, “luvr” mehmanxanasına düşürlər. Usta Murad məəttəl qalır. Yeni aləm ona əfsanə, xəyal kimi görünür. Hacı “luvr” mehmanxanasında işləyən bütün xidmətçilərə, xörək paylayanlara eyni rəngdən olan parçadan bir dəst gözəl libas, ayaqqabı və baş geyimi bağışlayır. Bu məsələ bütün Parisdə sensasiyaya dönür. Restoranda nahar edəndə hacı sifariş verir ki, ən əla növ kürü gətirin. Bir azdan abı rəngli dəmir qutunu gətirib açılar. Bu beş girvənkə (2 kq) kürü olan qutunun üstündə iri hərflərlə Q.Z.A.Tağıyüv yazılmışdı. Murad məəttəl qalır ki, Hacının burada da adı-sanı var.

Bir axşam üç nəfər gəlib Hacıdan xahiş edir ki, Hacı, sabahkı hərraca gəlməyin, Parisdən çıxın gedin, sabah 100.000 manat pulu sizin şəxsi hesabınıza keçirib, sənədləri sizə təqdim edərik. Sizin təkcə adınız hərracda bizim işləri alt-üst edər.

Hacı razılaşır, sabahı gün banka keçirilən 100.000 manatın sənədlərini alıb, usta Muradla bərabər yollanır Romaya və söhbət arası deyir: “Usta Murad, gördün

birdən-birə yüz min manatı necə qazandım? Atalar boş yerə deməyib ki, pulu pul qazanar, igid oğul palçıq tapdalayar".

Usta Murad bir neçə ildən sonra dilənçi kökünə düşür. Onu tanıyanlar məsləhət görür ki, get Hacıya de sənə köməklik eləsin. Utanır. Axırda nəalac qalıb gedir. İçəri buraxmırlar, ha dil tökür, yalvarır, nəticə hasil olmur. Axırda deyir ki, gedib teleqram vuracam, onda sizi tənbeh edər. Qapıdakı gözətçilər, qoçular onu qabaqlayır, Hacıya xəbər verirlər ki, bənna Murad adlı bir nəfər gəlib. Hacı deyir: "Usta Murad? Buraxın gəlsin!" Başa salırlar ki, içəri buraxılası deyil, cır-cındır içindədir. Hacı tapşırır ki, onu göndərin hamama, alt və üst libasını dəyişdirin, gətirin yanıma. Elə də edirlər. Köhnə dostlar görüşür. Ordan-burdan söhbət edirlər. Murad dərdini Hacıya deyir, kömək istəyir. "Usta Murad, səni bəzzaz dükanına qoyacağam, göz-qulaq olarsan". Bənna Murad boyun qaçırır ki, bacarmaram. "Bacararsan", deyə Hacı onun sözünü kəsir, "əlaltılar işləyəcək, sən də baxacaqsan".

Bir rus mühəndisi belə bir xatirə nəql edirdi: "Hacı Zeynalabdin Tağıyevə rast gəldim. Parijdən təzə qayıtmışdı. Hal-əhvaldan sonra o tərəflər barədə nə fikirdə olduğunu soruşdum. Heyrətlə dedi: "A kişi, faytonda gedirdik, yanımda dilminc, bizə sağ tərəfə dönmək lazım idi, faytonçu atları sola döndərdi, mən onun kürəyinə toxunub işarə ilə başa saldım ki, o biri səmtə getməliyik. Birdən sürücü faytonu dayandırıb yerə hoppandı və əllərini oynada-oynada, qışqıra-qışqıra başladı qəzəblə deyinməyə. Məəttəl qaldım, dilmancdan xəbər aldım ki, nə olub ona, nə deyir, nə baş verib? Dilmanc məni başa saldı ki, qəzəblənib ki, necə cürət edib onu bizdəyirsən, təhqir edirsən. Sözün var dillə de. Məəttəl qaldım. Hər şeyi başa düşdüm. Burda, bizdə o cür qayda-qanun olanda adamlar rahat xoşbəxt olacaqlar.

Ömründə bir sətir oxumamış, imzası beş-altı cızmaqara xətdən ibarət olan, rusca lorı danışan bu qocaya hörmətim qat-qat artdı. O nə Fransanın cah-cəlallarından, nə parıldayan mehmanxana və restorandan, nə əzəmətli binalardan, nə teatrlardan danışdı, o əxlaq normasından, azad, məğrur insana rast gəlməyindən danışdı."

Rəssam Əmir Hacıyev nəql edirdi ki, Tağıyev Qərbi Avropadan bir neçə məşhur rəssamın əsərlərini baha qiymətə gətizdirmişdi. Ayvazovski onun sifarişiylə

bir neçə tablo çəkmişdi, onlardan biri "Bosfor" adlı kompozisiya idi, rusca "Prinsevil ostrova" adlanırdı. 1921-ci ildə yoxa çıxır. Başqa bir dəniz mənzərəsi də "Tufana düşmüş gəmi", indi Bakıda R.Mustafayev adına İncəsənət muzeyindədir.

Müəllim Əliməmməd Mustafayev deyirdi ki, Orucov qardaşları Nikolayvski (Kommunist) küçəsindəki mağazanın vitrinində iki şəkil qoymuşdular satmağa. Biri "Bibiheybət məscidi", o birisi "Çeşmə başında" idi. Birisinə beş yüz manat, ikincisinə üç yüz manat qiymət qoymuşdular. Hər ikisini də Əlibəy Hüseynzadə rəsm etmişdi. Müəllimlərin yığıncağında Həbibbəy Mahmudbəyov deyir ki, Əlibəyin, görünür, əli aşağıdır, öz çəkdiyi əsərləri satır, gəlin adam başı on manat qoyaq, "Çeşmə başında"kı şəkli alaq, püşk ataq, kimə düşdü olar onun malı. Elə də edirlər. "Çeşmə başında"kı şəkildə meşənin içində, bulaq başında yaşlı bir adamın namaz qılması təsvir edilmişdi. "Bibiheybət məscidi" əsərini isə Bakıdakı ingilis konsulu Mak Donnel alıb Londona göndərmək istəyir. Dükana girib sifariş verir ki, şəkli sabah gətirin İçəri şəhərə - İngilis konsulxanasına. Bu söhbəti "Bəradərən Orucovların" böyük qardaşı o axşam Hacının evində olanda danışır. Hacı Zeynalabdin beş yüz manat verib deyir ki, həmin əsəri sabah göndər bizə. Amma bu barədə Əlibəy Hüseynzadə heç nə bilməsin, pul almaz. Çünki "Həyat" qəzetinin və "Füyüzat" jurnalının baş redaktorudur, məndən maaş alır, pul götürməz. Bibiheybət məscidinin şəkli qoy bakıda qalsın, gedib Londona düşməsin. Baxara Əmiri padşahdan icazə alıb Peterburqun göbəyində məscid tikdirir, biz Bakı müsəlman dövlətləri də ona kömək edirik. Murtuz Muxtarov Vladiqafqaz (Orconigidze) şəhərində ikimərtəbəli, qoşaeyvanlı məscid tikdirir. Qədim məscidimizin şəkli öz şəhərimizdə qalmalıdır.

Tağıyevin qızı Sara nəql edirdi ki, "Atam bizə ayda beş manat xərclik verirdi. Kitabça açmışdı, hərəmizə ayrı-ayrı, gedib kontordan qol çəkib alırdıq. Görünür atam bizi qayda-qanuna öyrətmək istəyirdi. Bir gün yazda qulluqçu məni, bacım Leylanı və qardaşım Məhəmmədi dənizə apardı "Abo" gəmisində gəzməyə. qulluqçu kapitanla söhbət edirdi, biz də göyərtədə hərlənirdik. Məhəmməd ventilyator şüşəsini göztərib dedi ki, "gör nə qalındır, heç kəs sındıra bilməz". Dedim ki, mən sındıraram.

Mərcləşdik bir qutu şokoladdan. Yerdən bir dəmiri götürüb ilişdirdim şüşəyə, tikə-tikə oldu. Kapitan və qulluqçu qorxdu, yürüyüb gəldilər. Dedik ki, mərcləşmişik. Sabahı gün məni atamın kabinetinə çağırdılar. Gördüm qaşqabaqlıdır, acıqla soruşdu: "Aboda şüşəni kim sındırıb?" Dedim: "Mən Məhəmmədlə mərcləşmişdim". "Kim şüşəni saldıracaq?" çiyinlərimi qaldırdım "Bilmirəm" dedim. Atam deyindi: "Sındıra bilirsən, amma kim düzəldəcəyini bilmirsən?" Dedim ki, sən düzəltdirərsən. Soruşdu: "Niyə mən? Bir aylıq xərciyin veriləcək şüşənin təmiri üçün. O biri uşaqlar xərclik alacaq, sən yox. Get otağına".

"Atama xəbər verdilər ki, orta məktəbi bitirmiş bir oğlan üzü açıq nişanlısı ilə teatra gedəndə qoçu Bəşir bəy onları görüb, hədələyib ki, öldürəcəyəm. Atam qradonaçalniki evimizə dəvət edib məsələni danışdı. Qoçu Bəşir bəyi çağırıb qulaqburması verdilər, dilindən iltizam aldılar".

Respubikanın xalq artisti Sidqi Rufulla nəql edirdi ki, aktyorları Hacı Zeynalabdin Tağıyevin yanına teatrın binasına dəvət etdilər. Hacı sözə başladı: "Sizi İrana göndərdirəm. İran şahı xahiş edib. Bütün xərcinizi mən çəkəcəyəm. Ailənizin dolanacağı üçün pul da verəcəyəm, hesabdardan alıb qoyarsınız evə, ailəniz korluq çəkməsin. Dərziyə tapşırmışam, hərənizə iki kostyum tikəcək, hərənizə bir cüt ayaqqabı, üç dəst çamaşır veriləcək. Orada üzümüzü  ağ eləyin, ədəb-ərkanla durub-oturun".

Hacı Zeynalabdin Tağıyev 1924-cü il sentyabrın 1-də səkkizin yarısında 101 yaşında Mərdəkandakı bağında vəfat edib. Sentyabrın 4-də dəfn edilib. Öz vəsiyyətinə görə Molla Əbuturabın ayağı altında basdırılıb. Bu vəsiyyət barədə bir neçə rəvayət var. Onlardan biri belədir: "Tağıyev özü nəql edirmiş ki, kefimin kök vaxtı idi, karetada Mərdəkana bağa gedirdim. Pəncərədən gördüm ki, Axund Əbuturab ağa köhnə bir faytonda gedir. Karetanı saxlatdırıb, sürücüyə dedim ki, onu yanıma çağırın. Soruşdum: "Ağa, bu cah-cəlal ki, məndə var, əlimdən çıxa bilərmi?". Əbuturab ağa dedi: "Hacı, sən Məkkəyə gedib Allah evini ziyarət eləmisən, əstəğfurullah de, Allah istəsə, bir ləhzədə bütün dövləti əlindən alar". İyirminci ildə (şəhər evimdən) bağa həmişəlik köçəndə başa düşdüm ki, Əbuturab ağanın ayağı biləni mənim başım bilmir. Məni onun ayağı altında basdırın".

Azərbaycanda Sovet hakimiyyəti qurulduqda Hacı Zeynalabdinə təklif edilir ki, o istədiyi yerdə azad yaşaya bilər. Hacı Mərdəkandakı evində qalmağı üstün tutur və həyatının sonuna qədər orada yaşayır.

Hacının qəbri dağılmışdı, nəvəsi, geofizika elmləri doktoru, professor Rəsmi Əsəd oğlu Abdullayev bu yaxınlarda qismən bərpa etdirib.

Çox maraqlıdır ki, inqilabdan əvvəlki mətbuata nəzər saldıqda Tağıyevin nə qədər xeyirxah işlər gördüyü hamıya məlum olur. Təkcə Rusiya şəhərlərinə yox, İran, Hindistan, Misir, Türkiyə və digər ölkələrə də yardım əlinin uzadırdı. Hindistanda çıxan "Həblül məten" qəzetini maddi vəsait olmadığına görə bağlamaq istəyirdilər. Hacı vəsait göndərir, qəzet fəaliyyətə başlayır.

Verdiyi ianələrin məlum olanlarından bir neçəsini qeyd edirəm: Peterburqda tikilən müsəlman cəmiyyəti xeyriyyə binasına 11.000 manat, erməni yetim uşaqlarının təlim-tərbiyəsinə 3000 manat, "Svyataya Nina" rus qız məktəbinə 5000 manat, Qafqaz və Dağıstandakı məscidlərin təmirinə 5000 manat, bakı qəbiristanlığını hasara almağa 5000 manat, Həştərxanda məscid təmirinə 5000 manat, "Səadət" məktəbinə yardım üçün 5000 manat, Tehrandakı mədrəsə binasına 55000 manat, "Şəfa" məktəbinin təmirinə 500 manat, yetim uşaqlara, dul və xəstə arvadlara 8500 manat, Kamerçeski məktəbə, müsəlman uşaqlarının təlimi üçün 50.000 manat və sair. Bunlar onun etdiyi ianələrin cüzi hissəsidir. Nəriman Nərimanov 1900-cü ildə Hacının 50 illiyinə yazdığı kitabında qeyd edir ki, "Bu vaxtadək qeyrətli Hacının ümumi camaat və millət işlərinə bir milyon manata qədər xərci olubdur".

## BAKI MÜSƏLMAN ALEKSANDROVSKİ QIZ MƏKTƏBİ

Bu barədə kitabın əvvəlində qismən yazılıb. İndi isə bu qız məktəbinin qayda-qanunu haqqında oxuculara qısa məlumat vermək yerinə düşər. Məktəbin məzunları məktəb haqqında həvəslə danışır və sanki xəyala dönmüş o illərə bir də qayıtmaq istəyirdilər, gözləri yaşaranlar da olurdu. O günləri ömürlərini ən xoş günləri hesab edirdilər.

*Əşir Başiroğlu*

N.Nərimanovun qardaşı qızı Nabat xanım Nərimanova deyirdi: "Bizim Bakı müsəlman qız məktəbi Rusiya imperiyasında ilk və vahid qız məktəbi idi. Bütün müsəlman aləmində avropasayağı birinci qız məktəbi idi. Bu məktəbi qurtaran qızlar Azərbaycanın ilk və əsas qadın müəllimlər kadrası idi. Məktəbimizi bitirəndən sonra, oxuyub həkim, ekonomist, kitabxanaçı, elmi işçi, rəssam, hətta dosent və professor olanlar da vardı."

İlk illərdə geyim forması dağıstan qızlarının libası idi. Bir neçə ildən sonra rus qız məktəblərinin geyimi ilə əvəz edildi. Həm qış, həm yay forması vardı. Gündəlik paltarlardan başqa bayram və mərasim geyimi də vardı. Ayaqqabı həmişə təmiz olmalı idi. Məktəbdə xüsusi dərzixana vardı. İki dərzi arvad həyətdəki binada işləyirdilər. Məktəb hər cəhətdən gözəl idi.

Dərs otaqları, laboratoriyalar, kitabxana, qiraət zalı, qəbul otağı 1-ci mərtəbədə idi. Aşxana, mətbəx, qızların yataq otaqları, tamaşa salonu, müəllimlər (hamısı qadın idi) otağı, məktəb müdirəsinin kabineti, həkim kabineti, müalicəxana, namaz otağı üst mərtəbədə idi. Hamam, xəstəxana, paltar yuyulan otaq və anbarlar həyətdəki ayrı-ayrı binalarda idi. Gözəl bağçamız vardı. Bu məktəbdə təmizliyə xüsusi fikir verilirdi. Hər gün şəxsi təmizlik yoxlanırdı. Qızların dırnaqlarına, qulaqlarına, saçlarına arvad feldşer baxırdı. Həftədə bir dəfə hamamda çimərdik. Qadın həkim üç gündən bir qızların dişlərini yoxlayardı. Birinci və ikinci sinifdə oxuyan qızların saçlarını iki arvad darayırdı, onları çimizdirirdi. Gündə 4 dəfə bizə yemək verirdilər. Naharda duru xörək, plov, dolma, qovurma, bir sözlə şərq xörəkləri, bəzən Avropa xörəkləri də bişirirdilər. Şirniyyat, meyvə, kampot, çay və s. Payızda və qışda zəif qızlara xörəkdən əvvəl, bədənlərini möhkəmlətmək üçün balıq yağı içirdirdilər. Məktəbin kənarla heç bir əlaqəsi yox idi. Ata, analar, ən yaxın qohumlar qızlarla xüsusi otaqda görüşə bilərdilər. Bayramlarda bizi kinoya, ya da ki, Tağıyev adına teatra aparardılar. Çadrasız gedərdik. Qohumlarından qorxan qızlar getməzdilər. Yuxarı sinif qızlarını klassiklərin əsərləri ilə tanış etmək üçün faytonlarda teatra aparardılar. "Yevgeni Onegin", "Demon", "Otello", "Razboyniki" və s. tamaşa edər, sonra onlardan inşa yazdırardılar.

1915-1916-cı illərdə yuxarı sinif qızlarını oğlan gimnaziyasına, realni məktəbə də konsertə aparardılar.

Məktəbimizdə xor, dram, ədəbiyyat, rəqs dərnəkləri vardı. Cümə günləri dram dərnəyi konsert verərdi və ya pyes oynayardılar. Bir dəfə "Arşın mal alan"ı göstərdik. Avtorun özünü dəvət etmişdik. əsgər rolunu Reyhan Axundova (sonra rəssam oldu), xalanın rolunu Dostu Cəfərova ifa etdi. Dərnəyimizi Üzeyir bəy çox bəyəndi.

Konsert verəndə Sabirin "Oxutmuram əl çəkin", "Xan dostu amandı, qoyma gəldi", "Fəhlə, özünü sən dəmi insanmı sanırsan?" şeirlərini, Puşkinin, Lermontovun, A.Şaiqin, Abbas Səhhətin şeirlərini oxuyardıq.

Yuxarı sininflərdə əl işləri, toxuma, paltar tikmək öyrədirdilər. Məktəbi qurtaran qızlar böyük bir tikmə şal düzəldib Tağəyevə bağışladılar. Hacı məktəbi bitirən qızları evinə dəvət edər, meyvə-şirniyyat süfrəsi açardı, sonra hərəyə bir qutu şokolad, ipək baş şalı, Tolstoy, Puşkin, Lermontov, Karamzin və başqa yazıçı və şairlərin əsərlərini, Quranın Azərbaycan dilində tərcümə edilmiş nüsxəsini bağışlayardı.

Tağıyevin arvadı Sona xanım tez-tez məktəbimizə gələr, meyvə-şirniyyat gətirərdi. Hacı arabir gəlib dərslərimizə qulaq asardı, axırda da deyərdi: "Qızlarım, balalarım, yaxşı oxuyun, səyy edin. Xoşbəxtlik oxumaqdadır. Bilik ən böyük dövlətdir".

Bir dəfə "Molla Nəsirəddin" – Mirzə Cəlil məktəbimizə gəldi. Bizimlə söhbət etdi. Qızlardan bir neçəsi Sabirinm şeirlərini, bir nəfər də Abdulla Şaiqin Sabirin ölümünə yazdığı şeiri oxudu, çox razı qaldı.

Bizim ailədən, Nərimanov ailəsindən 6 nəfər Asya, Xədicə, Məryəm, İltifat, Simuzər və mən (Nabat) bu məktəbdə pulsuz oxuyurduq. Məktəbimiz çox gözəl idi. Sinif otaqları geniş, hündür, işıqlı, hava bol. Dəhlizlər iri, həyətdə gözəl bağça, müəllimlər xoşrəftar, lakin tələbkar, qayda-qanun. Yataq otaqlarında aptek təmizliyi, yorğan-döşək yumşaq, çamaşır ağappaq, hər həftə dəyişdirilərdi.

Aşxanada uzun iri stollara qar təki ağ süfrə döşənərdi. Qablarda təzə xörək, yeməklər ləzzətli, stolların ətrafında yuxarı sinif qızları növbə çəkərdilər. Hacının

qızlara göstərdiyi qayğı tükənməz və əvəzsiz idi. Belə bir əhvalat da danışırdılar: “Məktəbə ət verən qəssabı çağırıb abırını verir ki, göndərdiyin qoyun cımdəklərindən biri dişi imiş. Bilmirsən ki, dişi qoyun ətindən qız balalar azarlaya bilər? Bir də belə etmə!”

Novruz, orucluq, qurban bayramlarında məktəbdə sərgi düzəldərdilər. Qızların əl işləri nümayiş etdirilərdi. Analar, bacılar, qohum-əqraba sərgiyə dəvət edilərdi. Balaca qonaqlıq da verilərdi. Qızlqrın əl işləri, bacarıqları barədə min bir xoş söhbət eşidilərdi.

Məktəbimizin müdirələrindən biri Səlimə xanım Yaqubova idi. Peterburq Universitetində iki fakultə, fizik-riyaziyyat, bir də pedaqoji fakultəni bitirmişdi. Çox tələbkar idi. Məktəbimizin nəzdində 2 illik müəllimlər kursunun da müdiri idi.

Məktəbimizin kitabxanası çox zəhgin idi. Hacı bu sahəyə pul əsirgəməmişdi Klassiklərin və müasir yazıçı və şairlərin hamısının kitablarından var idi. “Molla Nəsrəddin”i və başqa qəzet, jurnallar alırdıq.

Məktəbdə başqa qiymətli tədris vasitələri də var idi. Məsələn: heyvanlar aləminin gözəl şəkilləri, coğrafiya xəritə və atlasları, zooloji və anatomik atlaslar, heyvanların və quşların müqəvvaları. Bunlardan imtahan vaxtı istifadə edirdik. Gərək görəydiniz imtahan vaxtı yaxşı cavab verəndə bu savadsız milyonçu necə sevinir, necə fərəhlənirdi. Elə bil öz qızı, öz övladının müvəffəqiyyəti idi. 1906-cı ildə Tiflisdə müsəlman qız məktəbi açıldı. Hacını açılışa dəvət etdilər, xəstə olduğu üçün gedə bilmir. Lakin məktəbi maliyyə cəhətdən möhkəmləndirmək üçün 25.000 manat toxunulmaz vəsait göndərir.

Ömər Faiq Nemanzadə əsrin əvvəllərində Bakıya gələndə qız məktəbini görüb məəttəl qalır, belə qaranlıq bir mühitdə bu məktəb əqləsığmaz bir möcüzə idi. O, bu barədə məqalə yazıb Türkiyəyə “Sərvət tium” jurnalına göndərir. Bu məqalə bütün islam aləmində səs-küy qaldırır. Bu məktəb 1913-cü ildə müsəlman qızları üçün müəllimlər seminariyası oldu. Hacı əvvəl ayırdığı 150.000 manat toxunulmaz vəsaitdən əlavə 100.000 manat da vermişdi.

O zaman bu məktəbi bitirənləri barmaqla göstərirdilər. Qeyri-adi, yaxşı mənada möcüzə hesab olunurdu. Onlara hər yerdə hörmət edirdilər.

## AZƏRBAYCAN MÜSƏLMAN MÜƏLLİMLƏRİNİN QURULTAYI

1906-cı ilin may ayında "Nicat" maarif cəmiyyətinin qiraətxanasındakı yığıncaqda müəllimlərin (avqustda) qurultayının çağırılması qərara alınır. Aşağıdakı tərkibdən ibarət komissiya təşkil edilir. Həsənbəy Zərdabi, Ə.Ağayev, N.Nərimanov, Ə.Cəfərzadə, A.Əfəndiyev, H.Mahmudbəyov, H.M.Hacıbababəyov, M.Y.Əfəndiyev. Ciddi hazırlıq başlanır. H.B.Zərdabi "Kaspi", N.Nərimanov "Həyat", Ə.Ağayev "İrşad" qəzetlərinə məktub yazır, qurultayın məqsəd və təkliflərini aydınlaşdırırlar.

1906-cı il avqust ayının 15-də, səhər saat 10-da II şəhər məktəbinin salonunda qurultay işə başlayır. Təsis komissiyasının sədri N.Nərimanov qısa giriş sözü ilə qurultayı açır. H.B.Zərdabi sədr, N.Nərimanov onun müavini, Fərhad Ağayev isə katib seçilir. Qurultayda münaqişə baş verir. Qocaman müəllim Səmədbəy Acalov o münqişəni belə izah edir: "Bakıda məktəblər üzrə Livitski adlı bir inspektor var idi. O, məktəbdə azərbaycanca danışmağı qadağan etmişdi. Bu əmri pozan müəllimlər işdən qovulurdu. Müəllimlər balaca uşaqları azərbaycanca danışmadan başa sala bilmirdilər. O uşaqlar rus dilini çox pis bilirdilər".

Qurultay nümayəndələri qərara aldılar ki, belə yaramazlığa qarşı Livitskidən Qafqaz canişininə şikayət etsinlər və ana dilini sərbəst dərs kimi keçmək barədə sərəncam verilsin.

Teleqramı tərtib etmək qurultayın sədrinə tapşırıldı. H.B.Zərdabi tapşırığı yerinə yetirdi, teleqram mətnini nümayəndələrin nəzərinə çatdırmaq üçün oxudu, sonuncu cümlə belə qurtarırdı: "qurultay ədalətli sərəncam verməyinizi xahiş edir". N.Nərimanov bu cümləyə etiraz etdi: "Qurultay tələb edir! Xahiş yox".

Zərdabi həlim bir tərzdə izah elədi ki, "tələb" sözü canişinlikdə oturmuş çinovniklərin qəzəbinə səbəb olar, teleqramı cırıb atarlar, sərdara verməzlər, deyərlər, siz nəsiz, kimsiz ki, tələbiniz də nə ola. Burda evimizin içində bir Livitski ilə bacarmırıq, bizi saya salmır. Teleqramı sərdara versələr, hiddətlənər, təhsil işlərimizə əngəl törədər, Livitskiyə əhsən deyər, hələ üstəlik səlahiyyətinin bir az da artırar. Xahiş daha münasibdi, nəzakətlidir.

Münaqişə başladı, iki cəbhəyə bölündülər, təklif səsə qoyuldu. Nərimanovun "qurultay tələb edir" təklifi keçdi. Bir cavan müəllim qışqırdı: "Əqil yaşda yox, başdadır". H.B.Zərdabi qurultayı tərk edir. Bu əhvalat avqustun 21-də baş verir. Bu münaqişəni Tağıyevə çatdırırlar. O, avqustun 22-də qurultaya gəlir, müəllimlərə müraciətlə deyir: "Sizin dünənki qərarınız göstərir ki, qurultaya N.Nərimanov kimi uzağı görməyən adamlar rəhbərlik edir. Bilirsiniz Nərimanov kimdir? Onun cibində bir qəpiyi yoxdur, mənim pulumla oxuyur. İndi gəlib burda inqilabi danışıq aparır, sizi də yoldan çıxarmaq istəyir. Xahiş edirəm, dünənki qərarınızı dəyişin, çünki hökumət yanında bütün millətimizə ayıb gətirən işdir".

Dərin sükut idi. "Yoldaşlar, deyə Nəriman kürsüyə qalxıb asta səslə sözə başlayır. Mən cənab Tağıyevdən təqaüd alanlardanam. Cənab Tağıyev yoxsul müəllimlərə kömək etməklə onları öz tərəfinə çəkmək istəyir. Istəyir ki, onların öz fikri olmasın, onun sözü ilə durub otursunlar. Mən qurultay qarşısında bu gündən cənab Tağıyevin təqaüdündən imtina edirəm". Bu hadisə uzun illər tək müəllimlər arasında yox, başqa sənət sahibləri arasında da geniş söhbət mövzusu oldu. Tağıyevin baş mühasibi deyirdi ki, "Hər il, payızın əvvəlində təqaüd göndərdiyimiz tələbələrin siyahısını tutub Hacının təsdiqinə verirdim. Həmin qurultay olan ili, o əhvalatdan 2 ay sonra Hacıdan xəbər aldım ki, Nərimanovu siyahıya salım, ya yox? Dedi ki, sal. Nərimanov isə sözünün üstündə durub pulu almamışdı. Amma Nərimanovun qardaşı və bacısı uşaqlarından 6 nəfər qız uşağı Tağıyevin qız məktəbində pulsuz oxuyurdular.

Ancaq Sovet hakimiyyəti qurulandan sonra Nərimanov Hacıya çox kömək elədi. Heç kəs ona gözün üstə qaşın var demədi. Mərdəkandakı bağ evini Hacıya verdi. Zarafat deyil, on dörd otaq aşağıda, on dörd otaq üst mərtəbədə. Bağı, çar hovuzu hər şeyi var idi. Deyilənə görə Nərimanov Odessa universitetində oxuyarkən Hacıdan aldığı pullarını da ödəmişdi. Hətta iyirmi dördüncü ildə Hacı vəfat edəndə, qəzetlərə onun haqqında yazılarda yazırdı. Bunlar hamısı Nərimanovun hünərinə idi. Hacı da hər yerdə tanınmışdı, Qafqazda, İranda, Türkiyədə, Misirdə, Hindistanda. Hacı öləndə hələ xüsusi mülkiyyətçilik idi. Dükanlar hamısı xüsusi adamların əlində

idi, kooperativ, hökumət mağazası yox idi. Bakıda müsəlmanlar üç gün Hacıya yas saxladılar, dükanlarını açmadılar.

## BİRİNCİ DÜNYA MÜHARİBƏSİ

Birinci Dünya müharibəsi (1914-cü il avqust ayı) elan edilən gün Almaniyada olan bütün rus təbəələrini əsir tutub xüsusi düşərgələrə saldılar. O vaxt Hacı Zeynalabdin Tağıyev də öz ailəsi ilə birlikdə Almaniyada istirahət edirdi.

Tağıyevin qızı Sara əhvalatı belə nəql edirdi: “Peterburqda Smolin qız institutunda oxuyurdum. Bacım Leyla xəstələnib Bakıya qayıtmışdı. Mən tək idim. Hər yaz, mayın axırında Bakıya tətilə gəlirdim, payızda geri qayıdırdım. 1914-cü ilin yazında atamın etibar etdiyi yəhudi Samoil Moesoviç Dembo Peterburqa gəlib məni Varşavaya apardı. Atam, anam, bacılarım Leyla və Sürəyya, qardaşlarım Məmməd və İlyas, anamın ən yaxın qulluqçusu Raisa, bir də atamın köhnə tanışlarından qoca, 90 yaşlı Məstanbala Almaniyaya getdik. Məstanbala söhbət vaxtı atama deyir ki, Hacı varlı adamsan, pulun çoxdu, Firəngistana gedəndə bir dəfə məni də apar, atam da onu götürmüşdü. Əvvəl Berlinə getdik, ən məşhur “Ekspolenada” otelinə düşdük. Bir neçə gündən sonra Ems mədən sularına yollandıq. Bir ay orada qaldıq, Marenbadenə getdik. Atam bir ay da orada müalicə oldu, biz isə dincəldik. Axşamüstü bir rus ruhanisi atamın yanına gəlib xəbər verdi ki, məni rus səfiri göndərib: - “Deyir ki, Hacıya de tez yola düşsün, Almaniya Rusiyaya müharibə elan edib. Xəbər qəzetlədə dərc olunandan sonra rus tələbələrini vətənlərinə buraxmayacaq, əsir saxlayacaqlar.” Biz Berlinə çatanda müharibənin elan xəbəri artıq yayılmışdı. Vağzalqabağı meydanda adam əlindən tərpənmək olmurdu. Kişilər əllərindəki ağacları havada hərlədib, hədələyə-hədələyə “Rus...rus...rus” deyə qışqırırdılar. Keçmiş Qafqaz canişini qraf Voronsov Daşkovun arvadı, milliyyətcə erməni olan Liza Kinikorun qızını (Elizaveta Qriqoryevna) almanlar küçədə saçlarından yapışıb sürütləmişdilər. Vağzal binasından çıxa bilmirdik. İki saat keçdi, atam dedi: “Sandıqlar qalsın burda, hərə çamadanını götürsün, gəlsin dalımca.” O, qabaqda, biz də onun dalınca çıxdıq meydana. Polsi nəfərləri bizi o saat araya aldılar. Mindirdilər bir maşına. Atam dedi:

"Ekspolenada mehmanxanasına sür". Bizi orda qəbul etmədilər. Şəhərin bütün mehmanxalarına baş vurduq, nəticəsiz qaldı. Axırda ucqar məhəllələrdən birində yerləşən mehmanxanada bizə yer verdilər. Atamın Berlin bankındakı 100.000 manat pulundan bir qəpik də vermək istəmirdilər. Atam Franktfur Mayn şəhərinə zəng çaldı. Bakıda su kəməri çəkmək məsələsi üçün bura gəlmiş Lindleyə əhvalatı başa saldı. Lindley Berlinə Qeviner adlı bir şəxs göndərdi. Qeviner bankla danışıq aparıb, atama xəbər verdi ki, sizin bütün xərclərinizi bank, təqdim ediləcək sənəd əsasında ödəyəcək, amma sizə nəqd pul verməyəcək. Atam getdi Türkiyə səfirliyinə, çıxılmaz vəziyyətə düşdüyünü xəbər verdi, yardım istədi. Türk səfiri birbaşa Almaniya kayzeri II Vilhelmə müraciət edir ki, müsəlman aləminin ən məşhur kübarı, neft milyonçusuna kömək eləyin vətəninə, Bakıya qayıtsın.

Şübhəsiz ki, Vilhelm bütün dünyada tanınmış Nobel, Rotşıld və digər neft maqnatları kimi Tağıyevi də tanımamış deyildi. Kiçik Qafqaz dağlarında, Gəncə quberniyasında, Kiragidzor və Gədəbəydə alman sənaye maqnatı Simens qardaşları hələ on doqquzuncu əsrin ortalarında mis, sürmə, qızıl, gümüş və s. zəngin filiz damarlarını istismar edib. Azərbaycanın milli sərvətini öz ölkələrinə daşıyırdılar.

Gədəbəydə meşənin içərisində yerləşən Qala kəndindəki misəritmə zavodundan Simenslər 2 tona qədər qızıl, beş ton gümüş istehsal edib Almaniyaya aparmışdılar. Şübhəsiz, Hacının ailəsini buraxmaqda Bakı neftinə, tükənməz sərvətə çoxdan göz dikmiş olan Vilhelmin öz mülahizəsi, öz hesabı varmış. Neft maqnatı Boron Bekondort başda olmaqla Bakıda alman neft sənayeçiləri, ticarət işgüzarları və texniki-maliyyə mütəxəssisləri vardı.

"Kayzer Vilhelmin şəxsi sərəncamı ilə bizə gəmi verib, dənizdəki çoxlu mərmilərdən qorumaq üçün bir kreyser də qoşdular".

Bizim əyan olduğumuzu polis bildikdə deyir ki, madam, gedən adam kübardır, məşhur əyandır, onun məiyyəti olmalıdır, siyahı verin. Atam Berlində çarəsiz qlmış 35 nəfər rus, erməni, gürcü və yəhudi, təbəələrini siyahıya daxil edib polisə göndərdi. Beləliklə, onları da əsirlikdən xilas etdik. Əvvəl bizi Kopenhagenə yola saldılar. Kreyser qabaqda, gəmi də onun dalınca üzürdü ki, minaya toxunmasın. Gəlib çıxdıq Finlandiyaya, oradan da Peterburqa.

Vilhelmin Bakı neftxudasına göstərdiyi lütf əlbəttə, nə Tağıyevin qara gözlərinin xatirinə, nə də türk səfirinə olan ehtiramından idi. Birinci növbədə əlbəttə, gələcəkdə Bakının tükənməz neft sərvəti xatırınə və buradan da bütün Qafqaz mineral-filiz sərvətinə sahib olmaq, sonra da İran, Yaxın və orta Şərq və Hindistana yol tapmaq üçün idi.

## H.Z.TAĞIYEVİN QIZI SÜRƏYYƏNİN DEDİKLƏRİ

Hələ ötən əsrin doxsanıncı illərindən Əmiri-Buxara Seyid Mir Əbdül Əhəd Xan hər il Qafqaz mineral sularında müalicəyə gedirdi. Yolu təbii olaraq Bakıdan keçirdi, hər dəfə gedəndə və dala qayıdanda məiyyəti ilə bərabər bir neçə gün şəhərimizdə qalar, neft mədəninə, toxuculuq fabrikinə, bu və ya digər zavoda, Mərdəkandakı bağbançılıq məktəbinə, Bibiheybət məscidinə, teatra və digər yerlərə gedərdi. Buxara Əmiri həmişə gah şəhərdəki evimizdə, gah da Mərdəkandakı bağımızda qalardı.

Əmiri çox yüksək rütbəli bir rus generalı, bir rus həkimi, Şıxəlibəyov adlı dilmanc, iyirmidən çox yüksək rütbəli Buxara əyanı və zədəganı müşayiət edirdi. Bütün mərasimlərdə İran konsulu Mirzə Mehdi xan da iştirak edirdi. Buxara əmiri hər dəfə bakının bir neçə nəfər yüksək rütbəli mənsəb sahibinə, milyonçulara və hətta adi adamlara bir dərəcəli iki dərəcəli qızıl və gümüş Buxara "Ucalan Ulduz" ordeni və digər Buxara medalları bəxş edərdi. Atam və ana babam general-mayor Ərəblinskini də birinci dərəcəli "Ucalan Ulduz" qızıl ordeni ilə təltif etmişdi. Hacıya iri, çox qiymətli bir qızıl saat da bağışlamışdı; arxa tərəfində xoş sözlər həkk edilmişdi.

Çərxləri üfürmə yumşaq rezinli kolyaska Əmirin çox xoşuna gəlmişdi. Atam həmin kolyaskanı bütün mayətacı, atları və mehtərilə Əmirdən xəbərsiz Buxaraya hədiyyə göndərmişdi. Mehtər Buxarada qala bilməyib doğma Bakıya qayıtmışdı.

Buxara əmiri birinci dünya müharibəsindən bir il əvvəl Bakıya, evimizə xüsusi qonaq gəlmişdi. O qədər qiymətli hədiyyə gətirmişdi ki, deməklə, saymaqla başa gələn deyildi. Topal Teymur vaxtından qalmış boyunbağı, təsbeh, həmail, belbağı,

kəmər, Türküstan qumaşları, parçaları... Qonaqlığa Bakının ən kübar, zəngin ailələri dəvət edilmişdi.

Nazı-nemət içində üzən, qızıla, pula, bəzəyə gözucu baxmayan milyonçu arvadlarının, elə kişilərində heyrətdən ağızları açıq qalmışdı. Yaşımın az olmağına baxmayaraq əmir mənə elçi gəlmişdi, oğluna nişanlamaq istəyirdi. Atama deyib ki, Hacı, necə məsləhət bilsəniz, nə vaxt istəsəniz toyu onda edərik. Neçə il desəniz gözləməyə hazırıq. Buxara Əmiri məni çağırıb, zərli-zibalı çapanın qoltuğundan çıxardığı uzunsov brillyant qaşlı üzüyü barmağıma taxdı. Barmağım nazik, üzük iri, qoydu ovcuma. Məclisdəki kiloqramla qızıl, cəvahirat, mirvari taxmış milyonçu arvadları, elə kişilər də üzüyə həsrətlə, qibtə ilə, paxıllıqla baxırdılar. Elə bil ovcumda ulduz parıldayırdı. Üzüyün qaşı ən azı iyirmi karat olardı. Şəfəqdən göz qamaşırdı. Bərq vurduqda min bir əlvan rəngə çalırdı.

Atam Buxara Əmirinin xahişini rədd etdi, dedi ki, mən qürbətə, Bakıdan kənara qız vermərəm, övladlarım gözümün qabağında olmalıdır. Buxara Əmiri üzüyü dala almamışdı. Hacı nə qədər təkid etmişdisə, Əmir demişdi ki, biz nişanı, bir də bəxşişi geri almırıq.

## SAÇIN UCUN HÖRMƏZLƏR

İkinci əhvalat 1918-ci ilin payızında, oktyabr ayında baş vermişdi. Adı dillər əzbəri İslam türk ordusunun baş komandanı general-leytenant Nuru paşa Bakını almışdı. On dörd-on beş yaşım vardı. Hər şeyi başa düşürdüm. Romantik, şairanə, əfsanəvi arzularla yaşayırdım. Paşa neçə dəfə evimizdə ziyafətdə olmuşdu. Bağımıza gəlmişdi. İslam türk ordusu on səkkizinci ildə sentyabr ayında Bakını alandan sonra Nuru paşa Təzəpir məscidində çıxış etdi. Ətraf küçələr, məscidin həyəti adamla dolu idi. Mən də arvadlar üçün ayrılan yerdə, pərdə arxasında idim. Nuru paşa minbərə qalxdı, üç pillə, minbərin o tərəf bu tərəfində iri qara ələm sancılmışdı. Ələmlərdən birinə yanaşdı. Səbrlə, təmkinlə atəşin danışdı. Ucaboy, gözəgəlimli, bir qədər arıq adam idi. Gözəl, mərdanə üzü, zəkalı gözləri vardı, əynində türk paşası hərbi libası, şinelin hər iki tərəfində parıldayan düymələr düzülmüşdü. Saçı-bığları qara. O, danışanda məscid sükuta qərq olmuşdu. Hamı heyran qalmışdı. Gözlərimdə, elə

hamının nəzərində qeyri-adi qəhrəman sayılırdı. Tək mənim yox, elə hamının. O, da Hacıya ağız açıb mənə evlənmək istədiyini demişdi. Atam ona da Buxara Əmirinə verdiyi cavabı vermişdi.

Nuru paşa evimizdə ziyafətdə olanda bir neçə türk şeiri oxudu. Adım Süreyyəyə uyğun bir şeir də oxudu, özü də sevinə-sevinə, gülərüzlə, o da yadımdadır:

Çox qədim zamanlarda
Bizim ana Turanda
Lahıdud Türküstanda
O müqəddəs torpaqda
Bir Pəri qız varmış
İsmi Sürəyyə imiş,
Sevgilər ulduzuymuş,
İgidlər qibləsiymiş.

"Əh!" deyə susdu, çöhrəsindəki ələm buludları daha da qatılaşdı, söhbətin mövzusunu dəyişdirdi.

Hacı Əhməd paşa adı dillər əzbəri olmuş Ənvər paşa və Nuru paşanın atası evimizə və bağımıza ziyafətə gəlmişdi. Nuru paşanın əmisi Xəlil paşa Osmanlı şərq cəbhəsinin ordu komandanı idi. Bəxtəvər günlərimiz idi. O, on illər ərzində qorxduğu, hamıdan gizlətdiyi əziz xatirələri danışıb, ürəyini boşaltmağa, heç olmasa öz dilindən eşidib xəyalən o zamanlara qayıtmaq istəyirdi. Səsi səssiz və ahəngdar idi. Məlal dolu gözləri uzaq keçmişə, o təntənəli, dəbdəbəli mənzərəyə, ehtişama baxırdı. Dərindən ah çəkib dedi: "Hey gedi dünya...Təlatümlü, vəfasız dünya".

Birdən qonşu otaqda radioda çalmağa başlayan həzin musiqiyə Xan Şuşunskinin məlahətli səsi qoşuldu:

Saçın ucun hörməzlər,
Səni mənə verməzlər...
Əyil üzündən öpüm
Qaranlıqdır görməzlər.
Ay gülüm, bülbülüm

Sənsən, mənim öz gülüm...

Bayaqdan gözlərində oynayan gulab qədər saf, şəffaf yaş damcıları yanaqları ilə üzü aşağı yuvarlandı... "Vəfası, nəşəsi, cəzası belə olur ilk məhəbbətin" deyə öz-özünə qəhərləndi.

## HACININ HƏYATINA BİR DƏ NƏZƏR SALAQ

Yuxarıda qeyd etdiyimiz kimi, Tağıyevin anası çox tez ölmüş və o, 10 yaşınadək İçəri şəhərdə başmaqçı işləyən atası tərəfindən tərbiyə edilmişdir. Atasının 2-ci arvaddan 5 qızı olsa da, Zeynalabdin uşaqlardan tək böyümüş, müstəqil pul qazanmağa vərdiş etmişdir. Atası oğlunun onun yoli ilə getməsini istəməyərək bənna şagirdliyinə göndərmişdi. O, öz əmək fəaliyyətinə tikintidə palçıq daşıyan kimi başlamışdır.

Ailə böyük ehtiyac içində idi. Zeynalabdin hər gün qazandığı 6 qəpiyi atasına gətirir, o, isə bu pula çörək və pendir alardı. 12 yaşında Zeynalabdin artıq daş yonmağa başlayır. 15 yaşında isə bənnalıq sənətinə yiyələnir. Təbiətən hər şeylə maraqlanan bu uşaq ustaların işini xüsusi diqqətlə müşahidə edirdi. Təcrübədə qazandığı bilik və qabiliyyət sonrakı sahibkarlıq fəaliyyətində onun çox karına gəlmişdi.

Bir qədər sərmayə topladıqdan sonra Tağıyev podrat işləri ilə məşğul olmaqdan əl çəkir və xırda manifaktura malları alverinə başlayır. Bəzi məlumatlara görə 1860-cı ildə onun artıq manufaktura malları satan bir və ya iki dükanı var idi. H.Z.Tağıyev ağ neft istehsalı ilə məşğul olmuş ilk azərbaycanlılardan biri idi. 1870-ci ildə onun iki qazanlı ağ neft zavodu vardı. Bu qiymətli məhsulun istehsalındakı müvəffəqiyyət onda neft işinə maraq oyadır.

H.Z.Tağıyevin birinci dəfə evlənməsi haqqında çox az məlumat var. Ancaq o məlumdur ki, arvadının ölümündən sonra onun üç uşağı – oğlanları İsmayıl (1865-ci il), Sadıq (1868-ci il) və qızı Xanım (1871-ci il) qalmışdı. Birinci oğlu İsmayıl Nurə Ərəblinckaya ilə evlənmişdi. İkinci oğlu Sadıq Qacarlar nəslindən olan mələksima (M.F.Axundovun nəvəsi) ilə evlənmişdi. Sadığın Ağa Zeynalabdin, Zərintac və Zeynəb adlı üç uşağı olmuşdur.

Zənnimizcə, aşağıdakı faktlar da oxucularda maraq doğurar. Azərbaycanın ilk kimyaçı alimi Mövsüm bəy Məhəmməd bəy oğlu Xanlar H.Z.Tağıyevin birinci qızı Xanımın əri idi. O, 1857-ci ildə Bakıda doğulmuş, realnı məktəbini bitirdikdən sonra Almaniyanın Strasburq şəhərindəki universitetin riyaziyyat-təbiətşünaslıq fakultəsində oxumuşdur. 1883-cü ildə universitetin elmi şurasında dissertasiya müdafiə edərək kimya elmləri doktoru alimlik dərəcəsi almış və Bakıya qayıtmışdır. Mövsüm bəy 1921-ci ilin fevralında vəfat etmişdir. Onun qızı Züleyxa tanınmış hüquqşünas Qasım Qasımova ərə getmişdi. Onların oğlu – H.Z.Tağıyevin nəvəsi Yusif (yaxud Yunis) hazırda ABŞ-da yaşayır.

H.Z.Tağıyev 1877-ci ildə ikinci gildiya taciri zümrəsinə qəbul olunur, 1882-ci ildə isə 1-ci gildiya taciri rütbəsi alır.

XIX əsrin 80-ci illərində H.Z.Tağıyev tam imkanlı bir şəxs kimi “Təzəpir” məscidinin yaxınlığındakı evə köçür. Həmin evdə Hacı H.Zərdabi ilə tanış olur. Onların tanışlığı sonradan dostluğa çevrilib. Həsənbəy Zərdabi H.Z.Tağıyevin ictimai mövqeyinin formalaşmasına böyük təsir göstərmiş, onun xeyriyyəçilik və maarifçilik fəaliyyətinin müəyyənləşməsində mühüm rol oynamışdır.

Tağıyevin dünya görüşünün formalaşmasında dövrünün görkəmli ictimai xadimləri olan M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov, N.Nərimanov, Əhmədbəy Ağaoğlu və başqa görkəmli ziyalılarımızın böyük təsiri olmuşdur.

XIX əsrin sonunda Tağıyevin şəxsi həyatında dəyişikliklər baş verir. 1896-cı il iyunun 28-də o, Dərbənddə 1881-ci il təvəllüdlü Sona xanım Ərəblinskaya (kübar cəmiyyətdə Sofiya Vladimirovna adı ilə tanınırdı) ilə evlənir. Bu qadından onun 5 uşağı olur: qızları Leyla (1898-ci il), Sara (1899), Sürəyyə (1904) və oğlanları Məhəmmədtağı (1900) və Məmmədkazım (1903). Doğrudur, H.Z.Tağıyevin vəfatı ilə əlaqədar “Kaspi” qəzetində dərc edilmiş nekroloqda İlyasın da adı çəkilir, lakin onun haqqında heç bir məlumat yoxdur.

1900-cü ildə H.Z.Tağıyev nəsli fəxri vətəndaş adına layiq görülür. 1907-ci il yanvarın 25-də isə ona 4-cü dərəcəli həqiqi mülki müşavir rütbəsi verilir. Neft sənayeçiləri arasında həqiqi mülki müşavir rütbəsi Tağıyevdən başqa bir də E.Nobelə

verilmişdir. Senatın 1910-cu il 8 fevral fərmanı ilə H.Z.Tağıyev nəsli zədagən rütbəsinə də layiq görülmüşdü.

H.Z.Tağıyev Müqəddəs Stanislav ordeninin III və II dərəcələri, habelə aşağıdakı medallarla təltif olunmuşdur. Üzərində "Səyyinə görə" yazısı olan (biri Anna, ikinci isə Stanislav lentindən) boyundan asılan 3 qızıl, Stanislav lenti, biri boyundan asılan, digəri sinəyə taxılan 2 gümüş medal. Tağıyevin mükafatları arasında imperator III Aleksandrın hökmranlığı dövrünün gümüş xatirə medalı da var. Bunlardan başqa o, xarici ölkələrin mükafatları ilə İarnın Şiri-Xurşud ordeninin IV, II və I dərəcələri, habelə Buxaranın II dərəcəli qızıl ulduzu ilə təltif olunmuşdu.

Azərbaycanda Sovet hökuməti qurulandan sonra Tağıyevin bütün müəssisələri milliləşdirilmiş və ona Mərdəkandakı bağ evində yaşamaq imkanı verilmişdi. İrana getmiş böyük qızı Leyladan fərqli olaraq, Vətənindən ayrılmaq istəməyən H.Z.Tağıyev 1924-cü il sentyabrın 1-də 101 yaşında ikən vəfat etmiş və özünün vəsiyyətinə görə Bakıda ən tanınmış din xadimlərindən olan Axund Hacı Əbu Turabın Mərdəkandakı məqbərəsinin önündə dəfn edilmişdir.

## H.Z.TAĞIYEVİN FƏALİYYƏTİNİN KAPİTALİST SAHİBKARLIĞI

Tarixi ədəbiyyatda ayrı-ayrı məlumatların olmasına baxmayaraq, H.Z.Tağıyevin sahibkarlıq fəaliyyətinin bir çox cəhətləri indiyədək öyrənilməmiş qalmışdır. Məsələn, özünün etiraf etdiyi kimi "heç bir sistenatik təhsil almamış" H.Z.Tağıyevin iri firmalar və bütöv inhisarçı birləşmələrlə sərt rəqabət mübarizəsində nəinki var-yoxdan çıxmadığını, həm də öz müstəqilliyini qoruyub saxlayaraq Nobel, Rotşild, Mantaşev kimi neft kralları ilə bir cərgədə dayanmağa necə nail olduğunu araşdırmaq çox maraqlıdır. Yaxud neft sənayeçilərinin çoxu özlərinə nə üçün onun yardımını təmin etməyə çalışırdı? Tağıyevin öz neft müəssisələrini satmaq barədə gözlənilməz qərarının həqiqi səbəbi nə idi?

H.Z.Tağıyev Azərbaycan ticarət və sanaye maliyyə burjuaziyasının yuxarı təbəqələrində ən hörmətli və sayılan simalarından biri idi. O, hökumət və bank məmurları dairələrində böyük nüfuza malik idi. Azərbaycan neft sənayesinin bir çox vacib məsələlərinin həllində fəal iştirak edirdi. Hər hansı xüsusi təşkilatçılıq vərdişi

olmasa da o, qəribə fərasətlilik, işgüzar fəhmlilik, kapitalist təsərrüfatı sahəsində dərin bilik nümayiş etdirirdi. Tağıyev öz müəssisələrini təşkilatca yenidən qurmaq, texniki və enerji ilə təchiz etmək hesabına onları öz dövrünün qabaqcıl kompaniyaları səviyyəsinə çatdırmışdır. Buna görə də həm alimlərin, həm də ədəbiyyatçıların ona marağı təbiidir. H.Z.Tağıyev uzun müddət tədqiqatçıların nisbətən az bir hissəsinə məlum idi. Onun barəsində ya susur, ya da olduqca az məlumat verirdilər. Bəziləri isə onun fəaliyyətini yanlış şərh edirdilər. Azərbaycan burjuaziyasının görkəmli nümayəndəsi olan Tağıyevin fəaliyyətinin öyrənilməsi çox vacibdir.

B.Y.Axundovun monoqrafiyasında ilk dəfə olaraq H.Z.Tağıyevin Bakı neft sənayeçilərinin XIX əsrin sonlarında təşkil olunmuş müxtəlif birliklərdə iştirakı, ingilis kapitalı nümayəndələrinin onun neft mədənlərini satın alması barəsində faktik materiallar gətirilir. Digər tədqiqatlarda da ingilislər tərəfindən Tağıyevin neft mədənlərinin satınalınma şərtləri işıqlandırılır. İngilis kapitalistlərinin Rusiyanın neft sənayesinə soxulmaq planlarında tağıyev firmasının yeri aydınlaşdırılır. H.Z.Tağıyevin Azərbaycanın rayonlarında torpaq alması barədə məlumat verilir.

M.A.Musayevin 70-ci illərdə çapdan çıxmış iki monoqrafiyasında H.Z.Tağıyevin firmasının ticarət əməliyyatları barəsində məlumatlar verilir. D.B.Seyidzadənin kitabında xalq təsərrüfatının bir sıra sahələrində Azərbaycan burjuaziyasının, o cümlədən də H.Z.Tağıyevin mövqeyi barəsində maraqlı materiallar toplanmışdır.

Yazıçı Manaf Süleymanovun kitabında sahibkarlardan: - Mirzəyev qardaşları, Murtuza Muxtarov, Seyid Mirbabayev, Ağabala Quliyev, H.Z.Tağıyev və digər sənayeçilərin fəaliyyətini təhlil etməyə ilk cəhd göstərilmişdir.

H.Z.Tağıyevin firmasının yaranması və fəaliyyəti tarixinin öyrənilməsi üçün “Rusiyanın neft sənayesində inhisarçı kapital: 1883-1914” və “Yeni inqilabi yüksəliş illərində Azərbaycanda fəhlə hərəkatı” adlı sənədlər topluları böyük əhəmiyyətə malikdir. Bunların birincisində 1897-ci ildə Tağıyev firmasının ləğvinədək fəaliyyətini, Tağıyevin inhisarçı birləşmələrdə iştirakını, neft məhsullarının ixracı uğrunda mübarizəsini və s. işıqlandıran qiymətli sənədlər və bu sənədlərə izahlar

toplanmışdır. Ikinci topluda cəmlənmiş sənədlərə Azərbaycan sahibkarlarının XX əsrin əvvəllərindəki fəaliyyətlərini səciyyələndirən izahlar əlavə olunmuşdur. “SSRİ tarixinə dair materiallar”da toplanmış sənədlər də diqqətəlayiqdir. Burada “Bakı ağ neft zavodçuları ittifaqı”nın təsisi və ölkə ağ neftinin birgə ixracı barəsində müqavilələrin layihələri verilmişdir.

## ÖLKƏNİN İCTİMAİ VƏ MƏDƏNİ HƏYATINDA HACININ ROLU

General Balakişi bəy Ərəblinskinin qızı Sofya xanımla evlənəndən sonra Hacı şəhərin mərkəzində, Qorçakov küçəsində mülk tikdirmək qərarına gəldi, 1895-ci ildə binanın tikilməsinə başlandı və o, 1902-ci ildə hazır oldu. Binanın fəsadları, qübbələri uzaqdan diqqəti cəlb edir. Binanın memarı Qovlovski Avropa memarlıq üslubndan istifadə etmişdir. Birinci mərtəbədə Hacının kontoru yerləşirdi. Hacının divar boyu dəmir seyfi də kontorun gizli guşələrindən birində yerləşmişdi. Seyfdə qiymətli sənədlər, veksellər və az miqdarda pul saxlanılırdı. Bu bina öz arxitekturasına görə şəhərdə ən gözəl binalardan biri idi.

1896-cı ildə Peterburqda qeyrətli müsəlmanlar cəmiyyəti xeyriyyənin binasını qoyublar. Qeyrətli Hacı o binaya 11 min manat pul vermişdir. Bunun əvəzində xeyriyyəni bina edənlər hörmətli hacını ömürlük üzv seçib, böyük təşəkkürlər ediblər.

Qeyrətli Hacı bunlarla kifayətlənməyib türk və fars ədəbiyyatına xidmətlər göstərib. Axır vaxtlar ədəbiyyat yolunda çalışan cavanların sayı günbəgün artırdı. Ancaq yazdıqlarını çap etdirməyə onların pulu yox idi. Hacı bütün deyilənləri nəzərə alaraq millətə lazım olan kitabları öz xərcinə çap etdirirdi. O kitablar bunlardı:

1. Tarixi – müqəddəs əsəri. Molla Əbdül Salam Axundzadə - 500 manat xərc olunub.
2. “Şərabçı”, “Allah divanı” əsəri. Soltan Məcid Qaniyev – 300 manat xərc olunub.
3. “Əşəari Seyid Əzim Şirvani” – 500 manat xərc olunub.
4. “Nadir şah” əsəri. N.Nərimanov – 350 manat xərc olunub. Bu əsər Hacının xahişinə görə fars dilinə tərcümə edilərək çap olunmuşdur.

1895-ci ildə Badkubədə rus dilində verilən "Kaspi" qəzetini 57 min manata alıbdır. Bu qəzeti almaqla Hacının məqsədi vətəndaşlara xidmət etməkdir.

N.Nərimanov demişdir: - Xalq Hacının adını həmişə uca tutacaq, qələm sahibləri onun xidmətlərini vəsf edəcəkdir. Bəli, belə də oldu, Hacı barəsində çox yazılıb. Biz də bu yazı ilə onun gördüyü işlərin cüzi bir hissəsini xalqa çatdırmaqla özümüzü xoşbəxt sayırıq.

Hacı böyük din xadimlərinin, üləmaların, açıqgözlü ruhanilərin hörmətini həmişə saxlardı. Yuxarıda qeyd etdiyimiz kimi, Hacı qabaqcıl maarifpərvər ruhanilər Mir Məhəmməd Kərim Mircəfərzadə, Mirzə Axund Əbu Turab, Axund Molla Ruhulla ilə həmişə məsləhətləşərdi. Quran Hacının pulu ilə azərbaycancaya tərcümə edilərək nəşr olunmuşdur. Tərcüməçi Axund Məmməd Kərim Ağa olmuşdur. H.Z.Tağıyev ölərkən vəsiyyət etmişdir ki, onu Axund Əbu Turabın ayağı altında dəfn etsinlər: "Çünki onun ayağının bildiyini mənim başım da bilmir" demişdir. Burada Bakı milyonçusu Muxtarovun Axund Əbu Turabın qəbri üzərində əzəmətli günbəz tikdirdiyini qeyd etməmək olmur.

Hacı Cənubi Azərbaycandakı milli azadlıq hərəkatının başçısı Səttarxanın İran istibdadına qarşı apardığı mübarizəyə rəğbət bəsləyir, Səttarxana və onun mücahidlərinə kömək edirdi. 1905-ci il erməni-müsəlman qırğınının qarşısını almaqda Hacının müstəsna xidməti olmuşdur. 1902-ci ildə Şamaxıda baş vermiş və şəhəri viranəyə çevirmiş zəlzələ xəbərini alan kimi H.Z.Tağıyev ianə yığmaq üçün komitə yaratdı və birinci özü 1000 manat verdi. Daha sonra o fevralın 2-də şəhərin bütün fəxri vətəndaşlarını Bakı şəhər Dumasının zalına dəvət etdi. İanə yığmaq qərara alındı. Şamaxıya çadırlar, həkimlər göndərildi. Bu yığıncaqlarda H.Z.Tağıyev əlavə 4000 manat verdi. H.B.Zərdabi zərərçəkənlərə yardım üçün Şamaxıya getdi. Rusiya imperiyasının hər yerindən Hacının adına ianə gəlirdi. Məsələn: Savva Mozozovdan 1000 manat, "A.Knoi" ticarət evindən 2000 manat və sair. O vaxt türmə Nargin adasında idi. Camaat öz düstaqlarının yanına getməkdə çətinlik çəkirdi. Hacı bu ağır vəziyyəti aradan qaldırmaq üçün özünün hazır dəyirman binasını içərisində dəyişiklik apararaq onu hökumətə icarəyə verdi. O bina türmə kimi 1910-cu ilin

fevralından istifadə olundu. Bununla da şəhər əhlinin canı Nargin adasına gedib gəlməkdən qurtardı. İndi də bu bina xalq arasında "Tağıyev qazamatı" adı ilə məşhurdur.

Bakı şəhər təsərrüfatının inkişafında Tağıyevin xidmətləri xüsusilə böyükdür. Bakının həyatında elə bir az çox əhəmiyyətli sahə yox idi ki, Tağıyev orada iştirak eləməsin. Ümumən xalqın xeyrinə olan tədbirlərdən Tağıyev heç vaxt yaxasını kənara çəkməzdi. Şəhərin və camaatın ehtiyacını təmin etmək məqsədilə bəzən rəsmi hökumət orqanlarının və Dumanın qərarlarını gözləmədən özü işə müdaxilə edirdi.

Belə tədbirlərdən biri şəhərin su ilə təchiz edilməsi məsələsi idi. Əhalinin bu böyük tələbinə şəhər bələdiyyəsinin etinasız yanaşdığını gördükdə Hacı öz hesabına isə girişdi. Öyrəndi ki, Rusiyada su kəməri çəkilişi üzə D.İ.Şipov adlı bir mütəxəssis yaşayır. Hacı aşağıdakı məzmunda teleqram vuraraq onu Bakıya dəvət etdi "Moskva, D.İ.Şipova. Sizin ictimai işlərdə məhsuldar, yorulmaz işinizlə tanış olduqdan sonra arzu edirəm ki, namizədliyinizi şəhər nizamnaməsinin 103-cü maddəsi əsasında su kəməri şöbəsinin müdiri kimi Bakı şəhər idarəsinin üzvlərinə təqdim edim. Bu təzə bir işdir, sınanmış, təcrübəli xadimlər tələb edir. Maaş məsələsi ikinci dərəcəli məsələdir. Təki siz bu vəzifəni tutmaq üçün razılığınızı bildirəsiniz. Xahiş edirəm ki, teleqramla cavab verəsiniz".

Fevralın 24-də D.İ.Şipov, Londondan bu məsələ ilə əlaqədar dəvət edilmiş mühəndis Lindleylə birlikdə Bakı-Şollar su kəmərinin çəkilişi barədə danışıqlara başladı. Tağıyev bu danışıqlarda şəxsən iştirak etdi. Bakı-Şollar su kəmərinin çəkilişi, İngiltərə-Amerika firmasına tapşırılmışdı. Hələ 1901-ci ildə Lindley Şahdağın ətəyində güclü su mənbəyi olduğunu aşkar etmiş və oradan su çəkilməsi layihəsini təsdiq olmaq üçün Dumaya təqdim etmişdi. Lakin Duma qlasnılarının əksəriyyəti Şahdağın ətəyində su olmasına şübhə edərək layihəni rədd etmişdi. Bütün şəhər camaatının sudan korluq çəkdiyi bir şəraitdə Dumanın bu məsələyə etinasız münasibətini görən H.Z.Tağıyev şəhər idarəsinə ərizə yazaraq bildirdi ki, o, Lindleyin fikrinə şərik olaraq kəmərin çəkilişinə təcili başlamaq üçün öz hesabından 25 min manat pul ayırır. Bu şərtlə ki, Duma üzvləri orada kifayət qədər su olduğuna inanandan sonra şəhər idarəsi verdiyim pulu geri qaytarsın. Əgər o mənbədə su

olmazsa mən verdiyim 25 min manat puldan imtina edəcəyəm. Bakıya su kəməri çəkilməsi işi ləngiyirdi. H.Z.Tağıyev kəməri çəkmək işini davam etdirmək üçün Rayovski adlı mühəndisi Bakıya dəvət etmişdi. Rayovski bu işin öhdəsindən şərəflə gəlmiş və Bakıya Şollar su kəməri çəkilib başa çatdıqdan sonra öz yurduna qayıtmışdı.

Tağıyev Azərbaycan torpaqlarını həmişə əziz tuturdu. Doğma vətəni onun üçün hər şeydən əziz idi. Dövləti,sərvətinin çoxluğu onu heç zaman ölkəsinə xəyanət etməyə sövq etməmişdi. 1912-ci ildə Tağıyevin Behbudovla olan məhkəməsi ilə əlaqədar şaiyə yayılmışdı ki, H.Z.Tağıyev Osmanlı Türkiyəsinə getmək fikrindədir. O, "Qolos Moskva" və "Utro Rossii" qəzetləri vasitəsilə bu şayiəni yayanlara belə cavab vermişdir: "... o ki, qaldı mənim vətəni buraxıb, Osmanlı torpağına getməyimə məcburam, qəti surətdə bəyan edim ki, belə bir iş heç vaxt xəyalımdan keçməyib və heç vaxt xəyal etmirəm ki, öz vətənimi buraxıb, bu qoca vaxtımda qürbət vilayətə gedim. Behbudovla mənim işim nə yerə müncər olarsa (amma mən inanıram ki, axırda ədalət qələbə calacaqdır) mən öz vətənimi buraxa bilmərəm. O vətəni ki, mən orada doğulmuşam, mən orada işləmişəm, mən orada var qüvvəmlə vətənə, dövlətə, camaata xidmət etmişəm. Mən öz vətənimi sevirəm. Gələcəkdə keçəcəyim imtahanlar nə qədər ağır olsa da mən öz vətənimdən əl çəkmərəm. Burada mənim atamın qəbri vardır. Mənim qəbrim də burada olmalıdır."

Belə bir sədaqətin nəticəsidir ki, H.Z.Tağıyev başqa Bakı milyonçuları kimi inqilab zamanı xaricə qaçmadı, ya da inqilab düşmənlərinə qoşulmadı. Sovet hökuməti də ona toxunmadı. Bu işdə N.Nərimanovun Tağıyevə bəslədiyi humanist münasibət də xüsusi qiymətləndirilməlidir. H.Z.Tağıyev ömrünün sonuna kimi hökumətin ona verdiyi Mərdakandakı bağ evində yaşadı.

Tağıyev tükənməz bir enerji sahibi idi. Bu onun 1922-ci il yanvarın 20-də Nərimanova yazdığı məktubunda öz əksini tapır. Hacı məktubda işsiz qala bilmədiyini, işləmək istədiyini göstərirdi. H.Hərimanov onun arzusunu Moskvaya çatdırsa da Moskva onun işləməyinə mane oldu. Çünki sovet hökuməti ona inanmırdı.

## H.Z.TAĞIYEVİN SAHİBKARLIQ FƏALIYYƏTİ

Bildiyimiz kimi H.Z.Tağıyev o dövrün iri kapitalistlərindən biri idi. İndi biz onun bir kapitalist kimi kənd təsərrüfatı, ticarət, sənaye və balıqçılıq üzrə fəaliyyətindən danışacığıq. O, savadsız olmağına baxmayaraq iqtisadiyyatı dərindən bilirdi. Hər hansı mütəxəssis-iqtisadçı ilə mübahisəyə girməyə hazırdı. O, heç bir işə əvvəlcədən hər şeyi ölçüb-biçmədən başlamazdı. O, öz fəaliyyətində şəxsi mənafeyi ilə xalq mənafeyini qoşa yaşadırdı.

H.Z.Tağıyevin varlanmasını bəxtlə, təsadüf və əfsanəvi hadisələrlə izah edənlər də olmuşdur. Məsələn, Manaf Süleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" kitabında bu əfsanələrdən biri təsvir olunmuşdur. Guya çoxlu balıq tutmaq üçün Hacının öz üzüyünü balığın quyruğuna bağlayaraq dənizə atması ilə balıqçıları şirnikləndirmək istəməsi kimi əhvalatlar başdan ayağa uydurmadır. Belə şeylər Tağıyevin təbiətinə yad idi. O, ağıllı kapitalist idi, hər şeyə açıq gözlə baxırdı. Əgər qoyduğu hər qəpik ona 3 qəpik mənfəət gətirməyəcəkdisə o, bu işə qoşulmazdı. 1912-ci il sentyabr ayında "Qolos Moskva" və "Utro Rosii" qəzetlərində çap etdirdiyi açıq məktubunda o, öz-özünü çox gözəl xarakterizə etmişdir: "Hərgah mən ticarətgah satıb, yainki alıramsa, bunu mən ancaq ticarət məqsədilə edirəm. Mən alqı-satqını sərt-nəzər edərək iş görürəm."

H.Z.Tağıyev bir kapitalist kimi fəaliyyətinə neft sənayesində başlamışdır. XIX yüzilliyin 70-90-cı illərində ölkədə baş vermiş burjua dəyişiklikləri məhsuldar qüvvələri feodal asılılıq zənciri buxovlarından xeyli dərəcədə azad etdi, kapitalist istehsal münasibətlərinin inkişafına şərait yaratdı. Feodal qalılqarının mövcudluğu ölkənin intensiv surətdə "burjualaşması" prosesinə müəyyən dərəcədə mane olsa da, ticarətin inkişafı müxtəlif təbəqələrin sahibkarlıq fəaliyyəti sahəsinə cəlb edilməsi ilə müşahidə olunurdu. Kəmiyyətcə xırda burjuaziya ən çoxsaylı idi. O hələ kapitalizmin təşəkkülündən əvvəlki mərhələdə formalaşmağa başlamışdı. Mahiyyətcə əmtəə təsərrüfatı şəraitindəki azad xırda istehsalçı əslində elə xırda burjuaziya nümayəndəsi idi. O nəinki mülkiyyətə, o cümlədən istehsal vasitələri üzərində mülkiyyətə malik idi, həm də əmək prosesində özü ondan istifadə edirdi.

*Hamının Sevimlisi*

Qeyd etdiyimiz təkamülə ən səciyyəvi məsələlərdən biri doğulmaqda olan Azərbaycan milli burjuaziyasının ən görkəmli nümayəndəsi H.Z.Tağıyevdir. Öz sahibkarlıq fəaliyyətinə xırda manufakturadan başlayan Tağıyev 60-cı illərin sonuna neft məhsulları tacirləri içərisində mühüm simalardan birinə çevrilmişdir. V.A.Koxorevin dəvəti ilə Bakıya gəlmiş böyük rus alimi D.İ.Mendeleyev yerli ticarət-sənaye həyatının ən iri sahibkarları barədə aşağıdakıları yazmışdı: "Kokorevdən sonra burada birinci yeri hökumət tədbirləri və Bakıda Burmeyster, Hacı Tağıyev, Lens və L.E.Nobel kimi xadimlərin səyləri tutur." XIX əsrin 70-ci illərində Azərbaycan neft sənayesində baş verən köklü dəyişikliklər də buna şərait yaradırdı.

1872-ci il 1 fevral qanununa müvafiq olaraq Abşeronun hər birində 10 desyatin olmaqla 48 sahəyə bölünmüş neftli sahələrin açıq hərrac vasitəsi ilə xüsusi şəxslərə icarəyə verilməsi barədə fərman imzalandı. Tağıyev də bu sahədə bəxtini sınamaq istədi. 1873-cü ildə öz şəriki ilə birlikdə Bibiheybətdə 9 min manata torpaq sahəsi aldı. Avadanlıq əlavə etdi, fəhlə və ustalar tutub quyu qazdırmağa başladı. Həmin ildə ilk 12 neft hasilatı müəssisəsi yaradılmışdı, bunlardan biri də "H.Z.Tağıyevin neft sənayesi firması" idi. Özünün 25 illik fəaliyyəti dövründə xırda neft hasilatı müəssisəsindən quyu qazmaq, neftin hasilatı, emalı və daşınmasını, başqa sözlə, neft işinin bütün sahələrini birləşdirən iri istehsal kombinatınadək böyük bir yol keçən kompaniya belə yarandı.

Uzun müddət qazma işləri görülməsinə baxmayaraq neftdən əsər-əlamət yox idi, lakin Tağıyev ruhdan düşmür və əhatəsindəkilərə qəribə gələn bir inadla axtarışı davam etdirirdi. O, həsəd aparılacaq dərəcədə qətiyyət və əməksevərlik göstərərək səhərdən axşamadək qazma işlərində şəxsən iştirak edirdi. Eyni zamanda o, özünün ticarəd fəaliyyətini davam etdirirdi.

Hələ 70-ci illərin əvvəllərində Bakıda ilk ticarəd evləri meydana çıxdı. Bunların ən məşhurlarından biri manufaktura satışı ilə məşğul olan "Sarkısov qardaşları" ticarət evi idi. Sonralar H.Z.Tağıyev də bu ticarət evinin fəaliyyətinə qoşuldu. Bu zaman o, artıq özünün ticarət əməliyyatlarını genişləndirməyə imkan

verən müəyyən kapitala malik idi. Onun bir neçə ticarət dükanı var idi. 1877-ci ildə isə Hacı Axundovdan "ağ neft zavodları və digər sənaye məhsullarının tikintisi üçün" nəzərdə tutulmuş torpaq sahəsini icarəyə götürdü.

1878-ci ilin əvvəlində Tağıyevin mədənində çoxdan gözlənilən, neft fəvvarə vurdu və onun bütün səyləri axır ki, hədər getmədi. Tağıyev birdən-birə Bakının ən varlı adamlarından birinə, onun az tanınan mədəni isə böyük müəssisəyə çevrildi. Güman etmək olar ki, əldə olunmuş kapital ona "Sarkısov qardaşları" ticarət evinə müvafiq pay qoymağa imkan verdi. Artıq 1878-ci ildə bu ticarət evi "H.Z.Tağıyev və Sarkısov qardaşları" ticarət evinə çevrildi. Bu vaxtdan etibarən həmin evin fəaliyyəti daha böyük vüsət aldı. Başqa işlərlə yanaşı, bu ev neft və neft məhsulları ticarəti ilə məşğul olmağa başladı. Ticarət evi ağ neft emalı zavoduna, iki yelkənli gəmiyə, üç neftli sahəyə, Saritsın və Nijnı Novqoroddakı anbarlara, manufaktura mağazasına malik idi. Həm də əgər 70-ci illərin əvvəllərində Azərbaycanın neft hasilatı sənayesində qarışıq Azərbaycan – erməni kapitalını təmsil edən cəmi bir kompaniya vardısa və ümumi heft hasilatında onun payı çox cüzi idisə, artıq 1878-ci ildə gündəlik neft hasilatının 4,2 faizi Azərbaycan, 1,6 faizi Azərbaycan-rus, 8 faizi izə Azərbayca-erməni kapitalını təmsil edən firmaların quyularının payına düşürdü.

Azərbaycan kapitalı neftayırma sənayesində daha geniş təmsil olunmuşdur. 70-ci illərin əvvəllərində Bakıda 46 ağ neft zavodu sahibindən 25-i və yaxud 54 faizi azərbaycanlılar idi. H.Z.Tağıyev bunların ən irilərinin sırasında idi. 70-ci illərin sonuna yaxın Tağıyevin artıq 3 ağ neft zavodu vardı. Bunlardan kifayət qədər "geniş" olan biri Bibiheybətdə onun mədənlərinin yanında tikilmişdi. 1878-ci ildə ticarət və sənaye müəssisələrinin baş yoxlama jurnalında 9-cu nömrə altında H.Z.Tağıyevə mənsub olan "iki qazanı və altı fəhləsi olan ağ neft zavodu" və texniki xarakteristikası verilməmiş başqa bir zavod qeydə alınmışdı. 72-ci nömrə altında verilmiş anbarı, çəllək emalatxanası və 7 fəhləsi olan 3 qazanlı daha bir ağ neft zavodunun Hacı Hüseyn Tağıyevə mənsub olduğu göstərilmişdir. Hacı Hüseyn Tağıyevin H.Z.Tağıyevin müvəkkili olduğunu nəzərə alsaq, zavodun kimə mənsub olduğu aydınlaşır.

O da maraqlıdır ki, Bakı quberniyası neft sənayeçilərinin 1883-cü il siyahısında bir ağ neft zavodunun sahibləri kimi Tağıyev və Sarkısov, digər zavodun sahibkarı kimi isə tək H.Z.Tağıyev göstərilmişdir.

80-ci illərin ortalarında Tağıyev Sarkısov qardaşlarından ayrılır, öz payını satın alır və özünün müstəqil "H.Z.Tağıyev ticarət evi"ni təşkil edir. Bu, həmin dövrdə ticarət evləri formasında fəaliyyət göstərən, ayrı-ayrı şəxslərə mənsub fərdi müəssisələrin yaranması nümunəsi idi.

80-ci illərin əvvəllərində Tağıyev firmasına Bibiheybət və Balaxanıda 30 desyatin neftli torpaq, neft məhsulları daşımaq üçün 2 yelkənli gəmi, Sarıtsin, Nijni Novqorod və Moskvada anbarlar və iki zavod (biri ağ neft, digəri idə sürtkü yağları istehsalı zavodu) mənsub idi. 1885-ci ildə firma 7 mln.pud neft çıxarmış və 2 mln.pud ağ neft istehsal etmişdir. Öz istehsal gücünə görə Tağıyevin zavodları ancaq "Nobel qardaşları" və "Xəzər" şirkətlərinin, habelə "Batum neft sənayesi və ticarət cəmiyyəti"nin zavodlarından geri qalırdı.

D.İ.Mendeleyev yerli sahibkarlar içərisində Tağıyevi xüsusi qeyd edərək onun işgüzar keyfiyyətlərini xüsusi qiymətləndirirdi: "Bakı neft işinin mühüm yerli hərəkətvericisi Hacı Tağıyev sayılmalıdır. O, Bibiheybətdə dəniz yaxınlığında və Bakıda yer alaraq orada inadla qazma işinə başladı, demək olar, hamısı fontan vurmuş çoxlu quyular qazıldı, birbaşa mədənin yanında geniş zavod tikdi və özünün Rusiyada və xaricdə ticarətini təsis etdi. Həmişə bütün işlərini elə ehtiyatla aparmışdı ki, Bakıda olmuş bir çox böhranlara sakitcə davam gətirmiş və cüzi vəsaitlə (1863-cü ildə mən Tağıyevi xırda podratçı kimi tanıyırdım), lakin bütün əməliyyatlara ağıllı münasibət bəsləmək şərtilə, neft işinin sürətlə vəsait yığımına necə xidmət etməsinə aydın nümunə olmaqdan qalmamışdır".

H.Z.Tağıyev neft sənayeçiləri içərisində təkcə özünün heyrətamiz uğurluluğu ilə deyil, həm də neft bazarının dəyişkən konyukturasından dərindən baş çıxarmaq bacarığı ilə getdikcə daha çox məşhurlaşırdı. Qarşıya qoyulmuş məqsədə çatmaq yolunda uzaqgörənlik və qətiyyət Tağıyevə, nəinki 1886-cı və 1892-ci illərdə neft sənayecini çulğayan və onlarca rəqabətə davamsız müəssisəni müflisləşdirmiş

böhranların zərbəsinə tab gətirməkdə, həm də ən iri kompaniyaların neft işini inhisarlaşdırmaq cəhdləri şəraitində öz müstəqilliyini qorumaqda kömək etmişdir.

Azərbaycan neft sənayesini sindikatlaşdırmaq üçün göstərilən ilk cəhdlər "Nobel qardaşları" şirkəti ilə bağlıdır. Hələ 1883-cü ildə, daha sonra isə 1885-ci ilin sonunda ağ neftin satışı sahəsində birgə siyasət işləyib hazırlamaq məqsədilə ağ neft zavodçuları sazişin bir neçə layihəsini təklif etdirir. Sindikata "Nobel qardaşları" şirkətinin, "Bakı neft cəmiyyəti"nin, "Xəzər" şirkətinin, "H.Z.Tağıyev və Sarkisov qardaşları", "Mirzəyev qardaşları" və S.S.Palaşkovskinin ticarət evlərinin nümayəndələri daxil olmalı idi. Sindikatda orta və xırda firmalarda iştirak edə bilərdilər. Lakin yüksək senz sistemi ilə əlaqədar olaraq onlar sindikatın qərarlarına təsir göstərə bilməzdilər. Bu sistemə görə sindikatın ümumi yığıncağında hər firmanın səslərinin miqdarı neft hasilatına müvafiq şəkildə müəyyənləşdirilirdi: illik neft hasilatının hər bir milyon pudu üçün firmaya bir həlledici səs verilirdi. Lakin xırda firmaların uduzması hesabına "Nobel qardaşları" şirkətinin gücləndiyindən qorxan iştirakçılar arasındakı ciddi fikir ayrılıqları bu layihələrin keçirilməsinə mane oldu. Çünki ağ neft istehsalının normalaşdırılması özündən xırda firmalar özlərinin bütün məhsullarını iri firmalara, ilk növbədə "Nobel qardaşları" şirkətinə verməli olacaqdılar.

1886-cı ilin lap əvvəllərindən Azərbaycan neft sənayesində hücuma keçən ifrat neft istehsalı böhranının əlamətləri açıq-aşkar görünməyə başladı. Artıq 1885-ci il noviqasiyasının bağlanmasından sonra (deməli, həm də 1886-cı il noviqasiyasının açılışınadək) Bakı anbarlarında satılmamış 4 mln.puddan çox ağ neft qalmışdı. Satışın mürəkkəbləşməsi neft sənayeçilərini kartel-sindikat tipli müxtəlif birliklər yaratmaq haqqında layihələr irəli sürməyə vadar etdi. Belə layihələrdən biri də Bakı neft sənayeçisi H.Z.Tağıyevə mənsub idi, 1886-cı ilin yanvar ayının 11-də o, Rus texniki cəmiyyətinin Bakı şöbəsinin iclasında neft sənayesinin vəziyyətinin kəskinləşməsinə həsr olunmuş məruzə ilə çıxış etdi. Burada qaldırılan məsələlərin fövqəladə nəcibliyi ilə əlaqədar olaraq, məruzəni "Neft sənayesi böhranından necə çıxmalı" adı altında nəşr etmək və bütün neft sənayeçilərinə göndərmək qərara alındı.

H.Z.Tağıyev öz məruzəsində neftin satınalınma qiymətlərində, digər materiallarda, əlavə xərclərdə fərqlərin mövcudluğunu və s. qeyd edərək, qarşıya qoyulmuş məsələyə cavab verməyə çalışırdı. O, yazırdı ki, "Bunların hamısına bir tərəfdən bizim parçalanmış olmağımızı və qarşılıqlı rəqabətimizin, digər tərəfdən isə heç bir ehtiyac olmadan başqalarının zərərinə bəzi bazarların molla həddən artıq doldurulduğunu əlavə etsək, onda indiki böhranı yaradan səbəblərin aydın mənzərəsini alarıq".

Hamı (həm istehlakçılar, həm də zavodçular) üçün məqbul "normal qiymətlər" müəyyən olunması məqsədilə Tağıyev bir neçə təklif verdi. Bunların içərisində "birinci yeri fabrikin keyfiyyəti tuturdu". Digər mühüm təklif bütün ağ neft zavodçularının həm daxili, həm də xarici bazarlarda ölkə ağ neftinin ticarətini əlinə alacaq Bakı ticarət şirkətində birləşdirilməsi barədə idi.

Bakı zavodçuları layihələşdirilən şirkət qarşısında aşağıdakı öhdəliklər götürürdülər: 1) il ərzində istehsal olunan bütün ağ nefti ona təhvil vermək; 2) bütün əməliyyət ili ərzində xam nefti hamı üçün eyni qiymətə almaq; 3) noviqasiya dövründə bütün növlərdən olan gəmiləri hər növ üçün eyni qiymətə kirayə etmək; 4) sulfat turşusu, soda və digər materialları əməliyyat ili ərzində eyni qiymətə satın almaq; 5) ən aşağı qiymətləri rezervuarlarda müəyyənləşdirəcək ağ neft və digər materialların satışını Bakıda şirkətin mərkəzi stansiyasına həvalə etmək.

Layihənin həyata keçiriləcəyi təqdirdə hansı nəticələr əldə oluna bilərdi? Tağıyev bu suala belə cavab verirdi: "Əvvəla zavodlarımızda iş sahmana düşəcək, çünki xam neft, turşu və s. materiallar hamıdan ötrü eyni olacaq və deməli, ağ neftin istehsalı da hamımıza eyni qiymətə başa gələcəkdir. İkincisi, hamıya eyni məsrəfə başa gəlmiş, eyni dərəcədə yüksək keyfiyyətli ağ nefti biz əlbəttə, hamı üçün eyni olan ümumi, normal, lakin zərərsiz qiymətə sata bilərik. Üçüncüsü, şirkət təsis edildikdən sonra hamımızın yalnız bir ticarət məsrəfi – şirkətin idarə heyyətinin saxlanılması üçün çəkəcəyimiz məsrəf olacaqdır". Tağıyevin qərarının ədalətli olmasına baxmayaraq, o, da iri neft sənayeçilərinin xeyrinə idi. Ona görə də bu qərar da həyata keçmədi.

Neft sənayesindəki böhran şəraitində H.Z.Tağıyevin layihəsinin həyata keçməsi daxili bazardakı rəqabəti müəyyən qədər yumşalda bilərdi. Ölkənin daxilində ağ neft satışının olması ilə Bakı ağ neft zavodçuları qarşısında xarici bazarlarda möhkəmlənmək prespektivləri açırdı. Məhz buna görə də Tağıyevin məruzəsində ağ neft ixracının təşkili məsələsinə xüsusi yer verilmişdi. H.Z.Tağıyev deyirdi: "Əvvəlcədən inamla demək olar ki, bizim şirkət Türkiyənin, Yunanıstanın, Balkan xalqlarının, Avstriyanın, Almaniyanın, İtaliyanın və Aralıq dənizi limanlarının bazarlarına tam hazırlıqla, yəni yüksək keyfiyyətli və ən ucuz qiymətli ağ neftlə gələcək, bizim ağ neftimizin ucuzluğu, tədricən Amerika ağ neftini sıxışdırıb bazarlardan çıxaracaq".

Göstərilən vəzifənin yerinə yetirilməsi üçün H.Z.Tağıyev təkcə ağ neft istehsalını ildə 50 milyon puda çatdırmağı deyil, həmdə ağ neftin ixrac qiymətini azaltmağı təklif edirdi. O, "Kaspi"nin səhifələrində öz layihəsini izah edərək daha sonra yazırdı: "Bu tədbir bizim öz istehsalımızın artığı üçün zəruri olan qədər amerikalılar bizimlə sazişə girməkdə ləngiməyəcəklər və qarşılıqlı rəqabəti dayandırmaq üçün biz bazarları bölüşdürəcəyik".

H.Z.Tağıyev haqlı olaraq güman edirdi ki, onun ağ neft zavodlarını birləşdirmək layihəsinin həyata keçiriləcəyi təqdirdə, xam neftin satışı barədə də buna bənzər sazişlər meydana çıxacaqdır ki, bununda nəticəsində Bakı neft sənayeçiləri daxili bazarda öz mövqelərini möhkəmləndirəcək. Avropa və Asiya bazarlarında Amerika kapitalı ilə layiqincə rəqabət apara biləcəkdir. Tağıyevin bütün cəhdlərinə baxmayaraq neft sənayeçilərinin ayrı-ayrı qrupları arasındakı ciddi ziddiyyətlər üzündən həmin illərdə sindikat tipli hər şansı bir sabit birlik təşkil etmək cəhdləri baş tutmadı.

"Nobel qardaşları" şirkəti tərəfindən yerli sahibkarlara qarşı elan olunmuş "açıq müharibə" 1886-cı ilin qışında genişləndi. L.E.Nobel xam neftin üzərinə vergi qoyulması uğrunda geniş kompaniya təşkil etdi. Buna cavab olaraq yerli sahibkarların digər səlahiyyətli nümayəndələri ilə (S.Şastlivçev, S.Bağırov, Q.Əlibəyov və s. ) birlikdə Bakının neft sənayeçiləri və ağ neft zavodçularından biri olan H.Z.Tağıyev 1886-cı il oktyabrın 31-də Qafqazın baş milli rəisi A.M.Dondukov – Korsakova

xahişlə müraciət etdi. Xahişdə qeyd olunurdu ki, xam neftin üzərinə vergi qoyulması "ancaq hər vasitə ilə bunun həyata keçirilməsinə çalışan bir və ya iki iri firmanın varlanmasına səbəb olacaq, qalan bütün sənayeçilər, xüsusən orta və xırda sənayeçilər üçün bu tədbir büsbütün müflüsləşməyə gətirib çıxaracaq". Neft sənayeçilərinin müraciətini D.İ.Mendeleyev də müdafiə etdi. "İri sahibkarlar üçün bu qədər arzu olunan" vergiyə qarşı mübarizə apararaq o, xəbərdarlıq edirdi ki, "xam neftin üzərinə vergi qoyulsa, bütün neft işinin inkişafı ləngiyəcək", çünki "neft hasilatı bütün neft işinin bünövrəsini təşkil edir".

H.Z.Tağıyevin dünya bazarlarını Amerika kapitalının nümayəndələri ilə bölüşdürmək barəsində Y.K.Şonun layihəsində əks olunmuş çoxdankı ideyası "Nobel qardaşları" şirkəti tərəfindən müdafiə edilmədi. Şirkət öz layihəsini təqdim etdi və hökümət bunu bəyəndi. Uzun müzakirədən sonra 1893-cü il oktyabrın 26-da "Bakı ağ neft zavodçuları ittifaqı"nın yaranması ağ neftin qiymətlərinin kəskin surətdə aşağı düşməsinə gətirib çıxarmış, 1892-ci il böhranı ilə şərtlənmişdi, bu da rəqabətin güclənməsinin, iri firmaların xırda və orta sənayeçilərini özlərinə tabe etmək cəhdlərinin nəticəsi oldu.

"Bakı ağ neft zavodcuları ittifaqının təşkilat strukturunun mürəkkəbliyi onun üzvlərinin qarşılıqlı münasibətlərinin də mürəkkəbləndiyini sürətləndirdi. "İttifaq" 80 firmanı birləşdrirdi. Rusiya inhisarlarının bütün tarixi heç bir birlik üzvlərinin sayına görə onunla müqayisə oluna bilməzdi. "İttifaq"da iki qruplaşmanın yaranması da rəqabət mübarizəsinin davam etməsi ilə izah olunur. Bunlardan birinə "Nobel qardaşları", "S.M.Şibayev və $K^{o}$", "Xəzər şirkəti", "Xəzər-Qara dəniz cəmiyyəti", "Q.M.Arafelov və $K^{o}$" və "Musa Nağıyev" ticarət evləri, habelə onlara qoşulan orta və xırda ağ neft zavodçuları daxil idi; digər qrupa "Bakı standartları"nin üzvləri – "H.Z,Tağıyev", "O.M.Lianozov və oğlanları", "A.İ.Mantaşev və $K^{o}$" şirkəti və "Budaqov qardaşları" ticarət evi başçılıq edirdi.

1894-cü ilin əvvəlində ağ neftin birgə xarici ticarəti barədə iki qrup arasında müqavilə imzalandı. Eyni zamanda qruplardan hər biri "qrupların iştirakçılarının

bağladığı təşkilatı müqavilələr əsasında öz hərəkətlərində tam müstəqilliklərini" saxlayırlar.

Bildiyimiz kimi neft sahəsində Tağıyevin bəxti gətirmişdi. O, sahədə milyonlara sahib olmuşdu. Lakin Tağıyev birdən-birə bütün neft sərvətini ingilislərə satdı. O, 20 milyon manata gedən şirkətini onun 4-də birinə satdı. Onun bu hərəkəti onu tanıyanlar arasında böyük təcübə səbəb oldu. Lakin Tağıyev neft sahəsindəki böhranı vaxtında görmüşdür. O, pulunu başqa sahəyə yönəltdi. Bakı toxuculuq fabrikinin tikintisinə başladı.

İngilis kapitalistləri Tağıyevin 20 milyon manat dəyəri olan mədənləri, ağ neft, yağ və kükürd turşusu zavodlarını, neft kəmərini, neftdaşıyan donanmanı, dəmir yolu çənləri parkını, Rusiyanın bir çox şəhərlərindəki ağ neft-mazut anbarlarını 5 milyon yarıma almağa müyəssər oldular.

İngilis kapitalistləri H.Z.Tağıyevin satın alınmış müəssisələrindən çoxlu gəlir götürdülər. Tağıyevin başa çatdırmadığı quyular tezliklə güclü fantan vurdu. Təkcə 4 ay ərzində (1897-ci ilin noyabrından 1898-ci ilin martınadək) "Oleum" 40 milyon pud neft çıxartdı ki, bu da cəmiyyətə 300 min funt sterlinqdən çox və ya 30 milyon manat xalis gəlir gətirdi. Sövdələşmənin bağlanmasından sonrakı 2 il 4 ay ərzində isə ingilislər 7,25 milyon manat xalis gəlir götürdülər.

H.Z.Tağıyevin firmasının satın alınması ilə qazanılan uğurlar bütün ümüdləri ötüb keçdi. Maliyyə nazirliyinin Londondakı agenti Q.P.Kamenski 1898-ci il yanvarın 28-də yazırdı ki, "Son zamanlar İngiltərədə təzə quyu istismar etmək və ya istismarı daha da yaxşı üsullarla davam etdirmək üçün neftli torpaqların xüsusi mülkiyyətə satın alınması meydana çıxmışdır. İngilislər özləri bu istismara fövqəladə dərəcədə xeyirli bir iş kimi baxırlar.

"H.Z.Tağıyev" firmasının satın alınması İngilis kapitalının Azərbaycan neft sənayesinə coşğun müdaxiləsi üçün mühüm təkan oldu. İngilis kapitalı fəaliyyət sərbəstliyi aldı və XX əsrin əvvəllərində, tədqiqatçıların ifadəli təbirincə desək, "Neft Bakısında kök saldı".

H.Z.Tağıyev öz müəssisələrini satdıqdan sonra neft sənayesindəki fəaliyyətini dayandırmadı. Ancaq bu dəfə o, yeni cəmiyyət yaratmaqdan deyil, artıq fəaliyyət

göstərən firmanı yenidən qurmaqdan başlamağı qərara aldı. Bu qərarı Rusiya cəmiyyətinin sındıkatların fəaliyyətlərindən narazılığının təzəhürü doğurmuşdu. Həmin narazılıq sonralar, ölkədə neft azlığının başlaması ilə əlaqədar, duru yanacaq istehlakçılarının hökümətin ünvanına yığın-yığın tələb və şikayətlər yazdıqları müharibə qabağı illərdə, xüsusən, güclü şəkildə aşkara çıxdı.

Sahibkarlar yaranmış vəziyyətdən çıxış yolunu onları maraqlandıran müəssisələrin səhmlərinin böyük hissəsini almaqda tapdılar.

H.Z.Tağıyevin diqqətini "Ararat" adlı kiçik neft sənayeçi şirkəti cəlb edirdi. 1902-ci il dekabrın 30-da Tağıyev tacirlər Arafelov və Pirican Cəbiyevlə, habelə mühəndis-texnoloq Əmirovla "Yeni Ararat" adlı şirkətin yaradılması haqqında müqavilə imzaladı. Bu firmaya tam hüquqlu üzv kimi daxil olan P.Cəbiyev təkcə öz əmanəti ilə deyil, həm də özünün bütün əmlakı ilə, qalan bütün iştirakçılar isə ancaq öz əmanətləri ilə cavabdeh idilər. Cəmisi 42 min manat olan şərikli kapital hər biri 6 min manatlıq 7 paydan ibarət idi. Bu paylardan Cəbiyev, Tağıyev və Aratelov adama ikisini, Əmirov isə birini qoymuşdu. Yuxarıda qeyd olunur ki, "10 faizi ehtiyat kapital üçün ayrılandan sonra xalis gəlir hər il şirkətin üzvləri arasında onların şərikli kapitaldakı paylarına müvafiq şəkildə bölünür.

Şirkət iştirakçıların üçdə ikisinin razılığı ilə istənilən vaxt ləğv oluna bilər, əgər ilin sonunda kapitalın yarısından çoxuna zərər aşkara çıxsa, onda iştirakçıların hər birinin tələbinə görə ləğvetmə məcburidir. Belə şərt öz kapitalı ilə risk etməyən H.Z.Tağıyevin arzusuna uyğun idi.

Müqaviləyə uyğun olaraq 1906-cı ilin iyulunda Tağıyev 12 min manatlıq öz payını P.Cəbiyevə ödədi. 1907-ci ildə firmanın nizamnaməsi təsdiq olundu. Birinci ildə 484 min pud neft çıxarıldı. Firma 7 quyuya, o cümlədən, 4 məhsuldar quyuya, 2 daxili yanma və 1 elektrik mühərrikinə malik idi.

1907-ci ildə H.Z.Tağıyevin iştirakı ilə "N.A.Aratelov və K$^{o}$" cəmiyyətinin yeni "Anait" şirkəti yaradıldıqda 1908-ci ildə firmanın Balaxanıda yerləşən mədənlərindən 1015 min pud neft çıxarılmışdı.

İstehsalı artırmaq məqsədilə şirkət neftli sahələr almağa başladı. Hələ 1906-cı ilin dekabrında bağlanmış müqaviləyə görə A.M.Lalayeva özünün Sabunçudakı 1 desyatın 60 kv sajinlik neftli torpağını Tağıyevə satmışdı. 1909-cu il aprelin 13-də "Yeni Ararat" şirkəti "Anait" neft sənaye şirkətindən onun Balaxanı kəndində yerləşən, 11 quyusu olan neft mədənini 4 desyatın 2030 kv sajin" icarəyə götürdü. 1909-cu ilin iyunun əvvələrində "Yeni Ararat" şirkəti yaxınlıqda yerləşən "Günəş" adlı mədəni satın aldı. "Anait" mədəninin icarəyə götürülməsi və "Günəş" mədəninin alınması ilə əlaqədar zəruri xərcləri ödəmək üçün şirkətin kassasına hər pay üzrə 4 min manat olmaqla cəmi 28 000 manat köçürülməlidir. 1) 8000 manat Tağıyev, 2) 8000 manat N.M.Arafelov, 3) 8000 manat P.Cəbiyev, 4) 4000 manat Əmirov. Pullar şirkətin tam üzvü Pirican Cəbiyevin ilk tələbi ilə verilməlidir.

1909-cu ildə N.M.Arafelov və "Yeni Ararat"ın başladıqları müqaviləyə görə "Anait" şirkəti Balaxanıdakı neftli əlavə sahəni 25 min manata 12 illiyə icarəyə verdi. 1912-ci ildə A.M.Lalayev Sabunçudakı neftli daha bir sahəni 10 min manata H.Z.Tağıyevə satdı.

XX yuzilliyin əvvələrində H.Z.Tağıyev əslində "Ananim" neft sənaye şirkətinin şəriklərindən idi. 1906-cı il dekabrın 18-də o, Sabunçu kəndindəki neftli torpağın X.B.Arzumanyansa icarəyə verilməsi barədə müqavilə bağladı. 1907-ci ilin yazında Arzumanyans bu hüququ "Anonim"  şirkətinə verdi. 1911-ci il iyulun 18-də Tağıyev şirkətlə həmin sahənin "onun Tağıyevin, sahibkarlıq hüquqları və üstünlükləri çərçivəsində" sonrakı istifadəsi barəsində müqaviləni bərpa etdi. Bu müqaviləyə görə "Anonim" şirkəti "bütün hasilatın, o cümlədən fontan neftinin, iyirmi səkkiz faizindən on üç – on dörd pay miqdarında torpağın icarə haqqını" H.Z.Tağıyevə ödəyirdi. Sonralar şirkətin fəaliyyətinin əlverişli şəraitini nəzərə alaraq Tağıyev özünün neftdən ayırmalarındakı payının 50 faizdən, 28 faizə endirilməsinə razılıq verdi.

Daha bir müəssisə "H.Z.Tağıyev və Q.S.Hüseynov" neft sənaye firması barədə çox az məlumat var. Ancaq o məlumdur ki, 1914-cü ildə firmanın 43 min pud neft verən 2 məhsuldar quyusu var idi. Görünür Tağıyevin neonlarında tirmə ikinci

dərəcəli əhəmiyyətə malik idi. Ona görə də o, bu müəssisəni Q.S.Hüseynova güzəştə getdi.

H.Z.Tağıyev Bakı sakini Balaxanım Rzaqulu qızı və onun uşaqları ilə 1912-ci il mayın 23-də bağlanmış müqaviləni bərpa etdi. Müqavilədə deyilirdi: "Bizim hüquqverənlərimizin Bakı Quberniya İdarəsi ilə 1874-cü il iyunun 7-ci və 1877-ci il dekabrın 22-də bağladıqları iki müqaviləyə görə Bakı şəhərinin Suraxanı yolu yaxınlığında, Fotogen zavodlarının və digər sənaye müəssisələrinin tikintisi üçün nəzərdə tutulmuş yerdəki örüş torpaqlarında uzunu 40 və eni 75 sajın iki sahənin nəsli iltizam sahibliyi şəriksiz surətdə bizə və Tağıyevə məxsusdur. Bu sahələrdə Tağıyevlə bizim müxtəlif tikililəri və əmlakı ilə birlikdə şərikli ağ neft zavodumuz var.

1913-cü il dekabrın 21-də N.İ.Cakeli Bakı sakinləri olan həkimlər M.D.Mdivani və M.İ.Ter-Ohanesyansdan Bakı qəzasının Binəqədi kəndində sahəsi 4945,3 kv sajına bərabər neftli torpağı 24 illiyə icarəyə götürdü. Sonralar, 1916-cı ilin martında N.İ.Cakeli və H.Z.Tağıyev arasında aşağıdakı sərtlərlə müqavilə imzalandı: Köməkçi icraçı Tağıyev torpaq sahibləri Ter-Ohanesyans və Mdivaninin xeyrinə faydalı neft hasilatının 15 faizinin dəyərinə bərabər icarə haqqından əlavə ilkin icarəçiyə (yəni Cakeliyə) icarə olunmuş sahədə əldə edilən bütün faydalı neft hasilatının 9 faizinin dəyərini verməyi öhtəsinə götürür.

Neftli sahələrin icarəyə götürülməsi barədə arabir bağlanan bütün bu müqavilələr, eləcə də bir sıra neft sənayesi müəssisələrində iştirak etmək H.Z.Tağıyevin öz neft kompaniyasını yaratmaq niyyətlərinə cavab verirdi. Bu niyyətin yerinə yetirilməsində mühüm addım 1913-cü ilin aprel hərracında H.Z.Tağıyevin vasitəçisi Ağahüseyn Tağıyevin Sabunçuda, Ramanada və Balabəy Aşurbəyovun Şıx kəndində torpaq sahələri icarəyə götürmələri oldu. Bu neftli sahələr yeni firmanın yaradılması üçün əsas oldu. Firmanın təsisçisi H.Z.Tağıyev idi. 1915-ci il aprelin 10-da Tağıyev, onun arvadı Sona xanım Tağıyeva, oğlu Sadıq Tağıyev, əsilzadələr Əlibəy və Balabəy Aşurbəyovlar, tacirlər Ağahüseyn Tağıyev və Əsədulla Əhmədov tam şirkətin təşkili haqqında müqavilə bağladılar.

Yeddi paya bölünən əsas kapital (hər iştirakçıya bir pay) 3,5 milyon manata bərabər idi. Şirkətin məqsədi quyu qazımaqdan, nefti çıxarıb satmaqdan ibarət idi. Təsisçilər "H.Z.Tağıyev və $K^0$" "Neft sənaye cəmiyyəti" adlı səhmdar cəmiyyətinin yaradılması barədə məsələ qaldırmağı öz öhtələrinə götürürlər. "H.Z.Tağıyev" cəmiyyəti 1917-ci ildə mart-iyul aylarında pudu 61,7 qəpiyə-cəmi 90 min pud neft satmışdı.

1915-ci ilin əvvəlində "T.B.Qulubəyov və N.K.Məmmədov" firmasından təşkil olunmuş "Şərqi Qafqaz neft sənayesi və ticarət səhmdar cəmiyyəti" fəaliyyətə başladı. Cəmiyyətin üzvlərinin təsis qurultayında H.Z.Tağıyev idarə heyətinin sədri T.B.Qulubəyov, L.B.Yakuboviç, N.K.Məmmədov və A.A.Kərimov üzvləri seçildilər. Əsas kapital 1,5 milyon manata, əmlakın dəyəri 2 milyon manata bərabər idi. Cəmiyyətin tərkibinə Bakı quberniyasındakı neft mədənləri, ağ neft, benzin və yağ zavodları, Xəzər dənizindəki gəmilər, Bakı, Tiflis, Petrovsk və Vladiqafqz şəhərlərində , habelə Stovropol və Minnsk quberniyalarındakı ağ neft anbarları daxil idi.

"H.Z.Tağıyev və $K^0$" və "Şərqi Qafqaz neft sənayesi və ticarət cəmiyyəti"nin təsisi ilə H.Z.Tağıyev özünün neft sənayeçiləri içərisindəki şöhrətini, nüfuzunu müəyyən dərəcədə bərpa etdi. Amma, ümumiyyətlə, XX yüzilliyin əvvəlində olan neft sənayesindəki fəaliyyəti XIX yüzilliyin sonundakı kimi vüsətli deyildi. Lakin neft cəmiyyətlərində, Bankir kontorunda və Azərbaycan xalq təsərrüfatının digər müəssisələrində iştirak etməsi Azərbaycan sahibkarlarının maliyyələşdirilməsi üzrə iri bankın yaradılması planının həyata keçirilməsi üçün kapital yığılmasına şərait yaradırdı.

## İQTİSADİ HƏYATDA H.Z.TAĞIYEVİN İŞTİRAKI

H.Z.Tağıyevin neft sənayesindən əldə etdiyi külli miqdarda vəsait onun xalq təsərrüfatının müxtəlif sahəsində fəaliyyət göstərməsinə imkan verirdi. Torpaq sahələri ilə əmaliyyatlar ona xüsusilə gəlirli görünürdü. XIX yüzilliyin sonuna yaxın neftli sahələrin qiymətləri artırdı. Əgər XIX yüzilliyin 70-ci illərinin əvvələrində bir desyatin torpağın qiyməti onlarla manat idisə əsrin sonunda belə sahə 100 minlərlə

manata qiymətləndirilirdi. Məsələn , “Nobel qardaşları” şirkəti 1879-cu ildə 8 desyatin neftli sah üçün cəmi 15,5 min manat ödəmişdisə, XX əsrin əvvələrində Sabunçuda bir desyatin torpağa 500 manat qiymət qoyuldu. Təbii ki, Tağıyevin satın aldığı bütün torpaq sahələrinin heç də hamısı yalnız neft çıxarmaq üçün istifadə olunmurdu. Onların bəziləri yaşayış evləri, ticarət dükanları, mədəni və inzibati mərkəzlər tikilməsi üçün nəzərdə tutulurdu.

Görünür , H.Z.Tağıyev 1862-ci il noyabrın 2-də Bakı sakini Ağaqulu Ağarəhim oğlundan Bayırşəhər ərazisində sahəsi 27,5 kv sajin olan həyətli daş zirzəmini 175 manata olmasını torpaq sahələri ilə ilk əməliyyatlar sırasına aid etmək lazımdir. 1872-ci ilin əvvəlində o, şəhər torpağının 3 sahəsinin hərracla ona verilməsi barədə xahişlə Bakı şəhər idarəsinə müraciət etdi. 80-ci illərdə Tağıyev 300 kv sajinlik daha bir torpaq sahəsi aldı. 90-cı illərin əvvəlində isə şəhər idarəsi onun İçərişəhərdə ikimərtəbəli daş ev tikmək barədə xahişinə razılıq verdi.

Torpaq əməliyyatlarında Tağıyevin 1900-cü ildə Hacı Axundovdan bir torpaq sahəsinə 1877-ci ildə bağlanmış icarə hüquqlarını satın alması mühüm yer tutmuşdu. H.Z.Tağıyev o torpaq sahəsindən yol çəkmişdi. XIX yüzilliyin 70-80-ci illərində Bibiheybətdə neft mədənlərinin istismarı ilə əlaqədar bu yolun əhəmiyyəti son dərəcədə artmışdı. Güclü Bibiheybət mədənlərindən qara şəhərə neft, mədənlərə isə avadanlıq və tikinti materialları bu yolla daşınırdı.

Yuxarıda qeyd olunduğu kimi, H.Z.Tağıyevin 1882-ci ildə birinci gildiya taciri rütbəsini almışdı. Onun ticarət əməliyyatları getdikcə genişlənir, ona məxsus olan ticarət müəssisələrinin miqdarı da artırdı. Məsələn, 1884-cü ilin dekabrında Bakı şəhər idarəsi onun, şəhərin ikinci hissəsində (Baryatinski küçəsində) daş dükanlar tikmək planının layihəsini təsdiq etdi.

Neft məhsulları satışı H.Z.Tağıyevin ticarət əməliyyatlarda getdikcə daha böyük yer tutur. Əgər 80-ci illərin ortalarında onun illik ticarət dövriyyəsi 3 milyon manat idisə 1897-ci ildə bu 4,9 milyon manata çatmış və Tağıyevə 1 200 min manat gəlir gətirmişdi.

1882-ci ildə keçirilən Moskva sənaye-bədii sərgisində “H.Z.Tağıyev və Sarkisov qardaşları” firması “Ağ neftin yaxşı keyfiyyətinə görə” bürünc medala layiq görülmüşdü. Bu mükafat Tağıyevin zavodunda emal olunan məhsulların yüksək keyfiyyətini göstərir və istehsal bazarlarında onun rəqabət qabiliyyətini artırırdı.

Bakı xəzinə palatasının məlumatlarına görə H.Z.Tağıyev 1897-ci ildə gəmi kontorlarının sahibi idi. H.Z.Tağıyev 3 buxar gəmisi (“lənkəranlı”, “Salyanlı”, və “linbirq”) və buxarla işləyən 2 şxuna (“Bibiheybət” və “linbirq”) məxsus idi, 3 şxunanı (“Abbas Həsənov”, “Dərbənd” və “Moskva”) isə icarəyə götürmüşdü. Bundan başqa, onun ixtiyarında dəmiryol laqon-çənləri parkı var idi. Böyük nəqliyyat vasitələrinə malik olması Tağıyevə həmişə Xəzər dənizi və Zaqafqaziya dəmiryolu ilə neft məhsulları daşıyan aparıcı Bakı firmaları qrupunda olmaq imkanı verirdi. Məsələn, 1894-cü ildə H.Z.Tağıyevin firması 2 milyon pud ağ neft, 130 min pud sürtgü yağları , benzin, qudron və digər məhsullar 23,9 milyon pud neft qalıqları, 2,4 milyon pud xam neft - cəmi 28,5 milyon pud mal daşımışdı. Aparılan yüklərin həcminə görə firma ancaq “Nobel qardaşları” şirkətindən (81,7 milyon pud) geri qalırdı.

Qeyri-adi dərəcədə yüksək sürətlə inkişaf edən şəhərin memarlıq-planlaşdırma strukturunun təşkilində yeni mərhələninin başlanması XIX yüzilliyin 70-ci illərinə təsadüf edir.

Bakıda su məsələsi problemə çevrilmişdi. Hökümət isə bu sahəyə əhəmiyyət vermirdi. Məhz buna görə də H.Z.Tağıyev özü bu işə müdaxilə etməyə başladı. Öyrəndi ki, Rusiyada su kəməri çəkilişi üzrə D.İ.Şipov adlı bir mütəxəssis yaşayır. Hacı aşağıdakı məzmunda teleqram vuraraq onu Bakıya dəvət etdi: “Moskva, D.İ.Şipova. Sizin ictimai işlərdə məhsuldar, yorulmaz işinizlə tanış olduqdan sonra arzu edirəm ki, namizədliyinizi şəhər nizamnaməsinin 103-cü maddəsi əsasında su kəməri şöbəsinin müdiri kimi Bakı şəhər idarəsinin üzvlərinə təqdim edim. Bu təzə bir işdir, sınanmış, təcrübəli xadimlər tələb edir. Maaş məsələsi ikinci dərəcəli məsələdir. Təki siz bu işə razı olasınız. Xahiş edirəm ki, teleqramla cavab verəsiniz.

Fevralın 24-də D.İ.Şipov, Londondan bu məsələ ilə əlaqədar dəvət edilmiş mühəndis lindleylə birlikdə Bakı-şollar su kəmərinin çəkilişi barədə danışıqlara

başladı və Tağıyev şəxsən bu danışıqlarda iştirak etdi. Bakı-Şollar su kəmərinin çəkilişi, məlum olduğu üzrə, İngiltərə-Amerika firmasına tapşırılmışdı.

Hələ 1901-ci ildə lindley Şahdağın ətəyində güclü su mənbəyi olduğunu aşkar etmiş və oradan su çəkilməsi lahiyəsini təsdiq olunmaq üçün Dumaya təqdim etmişdi. Lakin Duma qlasnilarının əksəriyyəti Şahdağın ətəyindəki mənbədə kifayət qədər su olmasına şübhə edərək, layihəni rədd etmişdir. Şəhər camaatının sudan korluq çəkdiyi bir şəraitdə Dumanın bu işə laqeyd qalması Tağıyevi şəhər idarəsinə ərizə yazmağa vadar etdi. Ərizəsində göstərdi ki, mən Şahdağın ətəyində güclü su mənbəyinin olduğuna şübhə etmirəm və bu iş üçün öz hesabımdan 25 min manat pul ayırıram. Bu şərtlə ki, Duma üzvləri göstərilən mənbədə kifayət qədər su olduğuna inanandan sonra şəhər idarəsi verdiyim pulu geri qaytarsın. H.Z.Tağıyevin o sahəyə sərmayə qoyması və ciddi nəzarəti sayəsində su çəkilişi başa çatdı.

Bakının yüksəlişi şəhər ərazisinin genişlənməsi, yeni rayonların meydana gəlməsi ilə müşayiət olunur, bu da öz növbəsində ajiotajın güclənməsinə, şəhər torpaqlarının bahalaşmasına, torpaq sahələri ilə möhtəkirliyin genişlənməsinə, şəhərin mərkəzi və ucqarları arasında ziddiyyətlərin kəskinləşməsinə təkan verirdi. Bütün bunlar şəhər torpaqlarının ayrı-ayrı sahibkarlar tərəfindən tutulması, torpaqlara sahib olmaq üstündə müxtəlif çəkişməyə gətirirdi.

H.Z.Tağıyev 1885-ci ildə şəhər üçün çox vacib olan məsələni nizama salmağa dair geniş şəhərsalma proqramı ilə çıxır etdi. O, təklif edirdi ki, şəhər duması indidən boş torpaqların planlaşdırılmasına başlasın, yəni küçələri, bağları, bulvarları, meydanları, bazarları, məscid, kilsə, məktəb və s. istimai binalar tikmək üçün sahələri layihələşdirsin və tərtib olunmuş planı hökümətin təsdiqinə versin.

H.Z.Tağıyevin fikrincə, mübahisəli məsələlərin həllində aşağıdakı şərtləri rəhbər tutmaq lazımdır. Birinci, mübahisəli torpaq sahələrini onların sahiblərinə o şərtlə vermək lazımdır ki, onlara şəhərə, layihələndirilən plana görə bağ, meydan və ictimai binalar üçün lazım olan qədər torpaq güzəştə getsinlər. İkincisi, torpaq sahələrinin sahibləri 5 il ərzində öz sahələrinin 1/3-nə və ya hətta yarışma ağac əkməli idilər. Beləliklə, H.Z.Tağıyev təklifi çox vacib bir problem- geniş boş torpaq

sahələrinin müvafiq şəhərsalma elementlərini nəzərdə tutan perspektiv planlaşdırma üçün ayrılmasını həll edirdi. Bu isə şəhərin ərazisində geniş küçələr, meydanlar, bulvarlar salmağa imkan verirdi.

H.Z.Tağıyevin evtikmə sahəsində geniş fəaliyyəti 90-cı illərə təsadüf edir.. 1893-cü ilin mayın 25-də üçmərtəbəli evinin, sonra isə digər yaşayış evlərinin layihələri təsdiq olundu. 1895-ci ildə Mərdəkanda şəxsi villa tikdirdi. 1896-1898-ci illərdə memar K.B.Skureviçin layihəsi ilə şəhərin mərkəzində Tağıyev passajı tikildi, o tesliklə ticarət-sənaye fəaliyyətində mühüm yer tutdu. Tağıyev passajini təkcə Rusiyada yox, Avropada da məhşur olan Yelisey passajı ilə müqayisə etmək olar.

1898-1902-ci illərdə İ.V.Qoslavski Bakıda Tağıyevin gözəl sarayını (Azərbaycan Tarixi muzeyinin indiki binası) ucaltdı. Burada ərəb memarlığından uvrajlarda, interjerin bəzəklərində, parketin naxışlarında və hətta mebeldə ustalıqla ifadə olunmuşdur.

## GƏMİ NƏQLİYYATINDA TAĞIYEVİN ROLU

Neftin daşınmasını ələ keçirmək uğrunda mübarizə xüsusi kəskin xarakter alırdı. Hər bir iri firma öz əlində mümkün qədər çox nəqliyyat vasitələri toplamağa can atırdı. Ona görə də 1910-cu ildə “Saruxanov-Kür neft sənayesi üçün konsessiya alanda bu işə ən maraqlı olanlardan biri də H.Z.Tağıyev idi.

Hələ XIX yüzilliyin 90-cı illərində ilk dəfə H.Z.Tağıyev Şuşa-Yevlax dəmir yolunun tikintisinin layihəsini təşkil etmişdi. 1898-ci ildə o, 1891-ci ildə tərtib olunmuş müvafiq sənədlərin ona verilməsi barədə xahişlə Zaqafqaziya dəmiryol idarəsinə müraciət etdi. Lakin H.Z.TağıyevXasayxan Usmiyevlə birlikdə tikinti üçün özlərinə məxsus torpaq sahəsini ayırdılar, bu halda isə artıq senatın razılığı tələb olunmurdu. Tağıyevin təklifi Yollar Nazirliyində müsbət qarşılandı, lakin naməlum səbəblər üzündən layihə o zaman həyata keçirilmədi.

Lakin neft məhsullarının 80 faizinin Xəzər dənizi ilə daşınması neft sənayeçilərinin diqqətini Xəzər nəqliyyatına yönəldirdi. XX yüzilliyin əvvələrində Xəzər gəmiçiliyində neftdaşıyan donanmaların xüsusi çəkisi böyük idi, bütün daşımaların 80-85 faizi onun payına düşürdü. D.S.Hüseynovanın hesablamalarına

görə Azərbaycan kapitalistlərinin Xəzər ticarət donanması gəmilərinin miqdarında payı 44,4 faizə, yükgötürmə qabiliyyətində isə 42,1 faizə bərabər idi.

1898-ci ildə Xəzər gəmi sahiblərinin bir naviqsiya müddəti üçün sindikat sazişi bağlandı. "Neftdaşıma gəmiləri sahiblərinin birliyi" fəaliyyətə başladı. Başlıca olaraq xırda Azərbaycan sahibkarlarının birləşməsinin məqsədi gəmi kirayəsinin yüksək qiymətini təmin etmək idi. 1903-cü ildə Azərbaycanlı gəmi sahiblərinin bir qrupu - H.Z.Tağıyev, Bünyadov, Aşurov, Hüseynov, Quliyev qardaşları və s. saziş haqqında müqaviləni daha bir naviqasiya üçün bərpa etdi. "Nobel qardaşları"şirkəti də bu müqaviləyə qoşuldu. Sonuncu belə hesab edirdi ki, kontragentlərin müstəqil kirayə haqqı qoymaq hüququndan məhrum edilməsi "Neftdaşıma gəmi sahibləri birliyi" nə daxil olmağın məcburi şərtidir. Tezliklə birliyin sahibləri başa düşdülər ki, onlar bu sazişdə heç bir şey udmamışlar. Naviqasiya başa çatdıqdan sonra birlikdən çıxdılar.

Qeyd olunmalıdır ki, azərbaycanlı gəmi sahibləri içərisində təksahiblik formasının yayıldığı şəraitdə "Xəzər" şirkəti, Xəzər dənizi və Volqa, Oka, Kama çayları və onların qollarında gəmiçilik, səhmdar müəssisə idi. Şirkətin 5 iri mayedaşıyan gəmisi vardı. Şirkətdə mühüm rol, 1896-cı ildə onun ən iri payçısı (1898-ci ildə Tağıyev 738 paya malik idi), sonra isə idarə heyətinin sədri olan H.Z.Tağıyevə məxsus idi. Onun arvadı və oğlu da idarə heyətinə daxil idilər. Bu zaman Tağıyevin özünün 3 gəmisi ("Leyla" "Aba" və "Bakı") var idi. 1898-ci ildə o, şirkətin idarə heyətini Moskvadan Bakıya köçürdü. Normal surətdə səhmdar müəssisəsi kimi qalan "Xəzər", əslində, ən iri Xəzər gəmi sahiblərindən birinə çevrilən H.Z.Tağıyevin mülkiyyəti olurdu.

Lakin XX yüzilliyin əvvələrində "Xəzər"in mövqeləri zəifləməyə başladı və iki gəminin başqa sahibkarların əlinə keçməsindən sonra H.Z.Tağıyev öz mayedaşıyan donanmasını yenidən qurdu və 1904-cü ildə İ.Vəliyevlə birlikdə əsas kapitalı 2 milyon manat olan "Kür-Xəzər paraxod cəmiyyəti"nin 3 mayedaşıyan gəmisi, 2 quru yük-maye, 8 yük-sərnişin, 2 yedək gəmisi, cəmisi ümumi yükgötürmə qabiliyyəti 516 milyon pud olan 15 gəmisi var idi. Bu da Xəzərdəki bütün gəmilərin ümumi sayının 5,7 faizinə bərabər idi. Belə qüvvətli donanmaya malik olan H.Z.Tağıyevə Xəzər

dənizindəki daşımalarda aparıcı rol oynamaq imkanı verirdi. Cəmi bir neçə il ərzində onun firması Rusiyanın ən iri gəmi müəssisələrinin ciddi rəqibinə çevrildi. H.Z.Tağıyevin "Kür-Xəzər" cəmiyyəti" əslində Xəzərdə "Qafqaz və Merkuri" sindikatına və "Şərq cəmiyyətinə" qarşı duran yeganə qüvvə idi.

1907-ci ildə Xəzər mayedaşıyan donanma sahiblərinin sazişi məhz "Kür-Xəzər cəmiyyəti"nin bazası əsasında meydana çıxdı. H.Z.Tağıyev Nobelə yazırdı: "1907-ci ildə mənim təşəbbüsümlə burada bir ümumi "Gəmi sahibləri sazişi" adı altında maye yüklərin daşınması ilə məşğul olan gəmi sahiblərinin birliyi yaradıldı".

Tağıyev yeni birliyin nəinki təşəbbüsçüsü, həm də canı idi. O, Xəzərdəki bütün mayedaşıyan gəmilərin yükgötürmə qabiliyyətinin 65 faizə qədərini və onların tutumunun 62,5 faizini öz əllərində saxlayan 45 gəmi sahibini birləşdirən təşkilatın başında dururdu. 1908-ci ildi sindikat artıq mayedaşıyan donanmanın payına düşən bütün yüklərin 40, 1909-cu ildə isə 37 faizini daşımışdı.

H.Z.Tağıyevin sədrlik etdiyi xüsusi rəhbər orqan sərəncamverici komitə vahid yüksək kirayə haqqını və sifarişlərin illik bölgüsünü müəyyənləşdirirdi. Birlikdə iştirakının müəyyən üstünlüyü ondan ibarət idi ki, sifarişlər və yüksək istisnasız olaraq, bütün kontragentlərin gəmiləri arasında bölüşdürülürdü. Sindikatın fəaliyyət göstərdiyi birinci ildə onun iştirakçılarının gəmilərinin ikiqat artırılmış kirayə haqqı ilə 110 milyon pud neft məhsulları (dənizlə bütün neft daşınmalarının 30 faizi) daşınırdı.

Kirayə haqqının artırılmasına baxmayaraq azərbaycanlı neft sənayeçiləri sindikatın yaradılmasını rəğbətlə qarşıladılar. Çünki gəmi sahibləri birliyinin simasında, onlar XX yüzilliyin əvvələrində yaradılmış və nəqliyyat-satış vasitələrinin çoxunu öz əllərində toplamış "Nobmazut"un inhisarına qarşı mübarizədə müttəfiqini görürdülər. "Şərq cəmiyyəti"nin Xəzər şöbəsinin müdiri V.Q.Xelius yeni saziş ərəfəsində yazırdı ki, "Tatar(azərbaycanlı) gəmi sahibləri neft sənayeçilərinə təzyiq göstərməklə bu və ya digər formada buna (sazişə) qoşulmaq niyyətindədirlər". O, həmçinin bildirirdi ki, sindikatın iştirakçıları neftin qiymətinin aşağı düşməsinə qarşı birgə mübarizə etməyi qərara almışlar. Qiymətlərin aşağı düşməsi isə Rusiya bazarlarının vəziyyətindən daha çox "Nobel" və Rotşildin neft sənayeçilərini istismar

etmək arzularındam irəli gəlirdi. H.Z.Tağıyev sindikatı möhkəmləndirmək cəhdlərini rəhbər tutaraq, birliyin gəmi sahiblərini səhmdar cəmiyyətinə çevrilməsi təklifini irəli sürürdü.

H.Z.Tağıyevi birbaşa yükdaşıma yollarına buraxmamaq üçün "Qafqaz və Merkuri", "Nadejda" və "Şərq cəmiyyəti" hökümətə təsir göstərirdi. Bəhanələri də bu idi ki, güya o, inqilabçılara kömək edir. Onlar tələb edirdilər ki, gəmiçilikdə işləyənlərin hamısı rus millətindən olsun. Tağıyev öz gəmilərini Qara dəniz-Qafqaz-Volqa-Xəzər yoluna çıxara bilmədi. Bütün bu haqsızlıqlarla üzləşən H.Z.Tağıyev özünün bütün donanmasını "Qafqaz və Merkuri"yə və "Şərq cəmiyyəti"nə satmağa və gəmiçilik sahəsində öz fəaliyyətini dayandırmağa məcbur oldu.

## XALQ TƏSƏRRÜFATININ BAŞQA SAHƏLƏRİNDƏ H.Z.TAĞIYEVİN ROLU

H.Z.Tağıyev müvəqqəti olaraq neft işlərini dayandıraraq bütün enerjisini və kapitalını qarşısına qoyduğu böyük bir planın həyata keçirilməsinə - Zaqafqaziya regionunda sənaye sahəsinin yaradılmasına yönəltdi. Bu məqsədlə o, özünün pambıq parça istehsal edən fabrikini açmaq qərarına gəlir. Bu Hacının ən böyük müəssisəsi idi.

H.Z.Tağıyev cəmiyyətdə tutduğu mövqeyi, ölkənin ictimai-iqtisadi və mədəni-maarif sahəsində misilsiz xidmətləri ilə başqa kapitalist və milyonçulardan fərqlənirdi. Onun fəaliyyətində elə hallar olmuşdur ki, xalqın ehtiyacını öz şəxsi mənafe və qazancından qat-qat yüksək tutmuşdu. Məsələn, 1896-cı ildə Hacı zavod və mədənlərini beş milyon yarım zərərinə satıb, bu fabriki tikdirmək qərarına gəlmişdi. Hacının bu hərəkəti Bakı varlılarının və hətta ən yaxın dostlarınını rişxəndli atmacalarına səbəb olmuşdur. Bundan Hacının məqdəsi nə idi? O, belə düşünürdü ki, zavod və mədənlərdə cəmi yüz nəfər adam özünə çörək pulu çıxarırsa, fabrikdə minlərlə adamın əli çörəyə çatacaqdır. Hacının bu hərəkəti N.Nərimanovun dediyi kimi "puldan, dövlətdən doymayanları, dövlətdə ancaq xoşbəxtlik görənləri təəccübə

gətirirdi. Hacının bu fikrindən xəbərdar olanlar onun bu işdə fədakarlığına təəccüb edirdilər”.

Tağıyevin təşəbbüsləri çox vaxt çətinliklə həyata keçirdi. Əcnəbi və erməni kapitalistləri, yerli çar məmurları Hacının hər bir təşəbbüsündən qorxuya düşərək, hər vasitə ilə ona pəl vurmağa çalışırdılar. Bez fabrikinin tikilişi də onların tərəfindən belə narazılıqla qarşılandı. H.Z.Tağıyev fabrik üçün Xəzərin Şimal-qərb hissəsində yer seçdi. Əhmədli, Zığ kəndləri icmalarından torpaq icarə etməyə başladı. Lakin torpaqlar Hacıdan qabaq başqa adamlar tərəfindən icarəyə götürüldüyündən o, torpağı ikinci və üçüncü adamlardan icarəyə götürməyə məcbur oldu. Həmin bu yerlərdə Hacıdan əvvəl Nobel, Şibayev, Montoşev və başqaları torpaq sahələrini icarəyə götürmüşdülər. Hacının qarşısına çıxan bir çətinlikdə ondan ibarət idi ki, kəndlərin öz torpaqlarını ancaq 30 illiyə icarəyə verməyə ixtiyarı var idi. Bu isə iri sənaye müəssisəsi üçün çox az müddət idi. Buna baxmayaraq Hacı müqavilələri şəhər idarəsinə təqdim edir, onları 99 illiyə vahid bir müqavilə ilə əvəz etməsi barədə əkinçilik nazirliyi qarşısında olmasını xahiş edirdi.

Hacı əleyhinə qızışdırılan kompaniya nəticəsində ərizə yarım il hərəkətsiz qaldı. “Noveye vremya” qəzeti Hacıya hücum edərək, onu saxtakarlıqda, dövlət torpaqlarını zəbt etməkdə təqsirləndirirdi. Dövlət əmlak idarəsi rəisi Şopoşnikov da bildirirdi ki, Əhmədli və Zığ kəndlərinin icma torpaqlarını icarəyə verməyə ixtiarı yoxdur. Halbuki yuxarıda adları çəkilən əcnəbi kapitalistləri icma kəndlərindən onlarca desyatın torpaq icarəyə götürmüşdülər.

Nəhayət, H.Z.Tağıyev özü əkinçilik nazirliyinə müraciət etdi. Nazirlik fabrikin tikilməsinə icazə verdi və göstərdi ki bu işdə heç bir saxtakarlıq yoxdur. Beləliklə, 22 desyatindən artıq torpaq sahəsində fabrik tikilməyə başladı.

1897-ci ilin əvvəlində H.Z.Tağıyev – İplik və digər pambıq parça istehsalı üzrə səhmdar cəmiyyəi yaradılmasına icazə verilməsi xahişi ilə hökümət orqanlarına müraciət etdı. 1897-ci il iyunun 27-də Qafqazın baş mülki rəisi cəmiyyətin nizamnamə layihəsinin təsdiq olunması barədə yazırdı: “göstərilən cəmiyyətin təşkili çox faydalıdır və Tağıyevin mötəbərliyi isə tamamilə uğurlu nəticələr vəd edir”

Nəhayət, Tağıyev məqsədinə nail oldu. Bu nəhəng kompleks ona 3 milyon 310 min manata başa gəldi.

1897-ci il oktyabrın 11-də "H.Z.Tağıyevin Bakıda liftli məmulatları emalı üzrə Qafqaz səhmdar cəmiyyəti"nin nizamnaməsi təsdiq olundu. Sonra isə onun təsisinə icazə verildi. Cəmiyyət öz fəaliyyətinə 1898-ci ildə başladı. Onun hər biri 1000 manatlıq 2000 adlı səhmə bölünmüş 2 milyon manatlıq ilkin əsas kapitalı həmin ilin yanvarında Dövlət Bankının Bakı şöbəsinin hesabına daxil oldu.

Cəmiyyətin ilk təsis yığıncağı 1898-ci il mayın 28-də keçirildi. Tağıyevin ailəsinin üzvləri onun təsisçiləri, H.Z.Tağıyev, S.Z.Tağıyeva və fabrikin tikintisinə nəzarəti həyata keçirən K.A.İretski sərəncamçı direktorlar idilər. Səhm nəzarət paketi (1935 səhm) Tağıyevin özünə məxsus idi.

Fabrikin ətrafında enli küçələri və bağı olan fabrik qəsəbəsi ucalmışdır. Tikililər fəhlə və qulluqçular üçün bir və iki mərtəbəli binalardan ibarət idi. Fabriklə qəsəbənin sərhəddində böyük pəncərələr və işıqlı sinif otaqları olan geniş məktəb binası yerləşirdi. Bu Abşeronda xüsusi planlaşdırılmış ilk fəhlə qəsəbəsi idi. H.Z.Tağıyevin sənaye obyektləri istedadlı memarlar tərəfindən yeni memarlıq üsulları əsasında ucaldılmışdır.

Fabrik hazır olandan sonra Rusiyanın bir sıra maqnatları narahat olmağa başladılar. Marozov və başqa fabrikatlar qorxuya düşdülər. Rus və dünya bazarlarında təzə rəqib çıxacağı fikri onları məcbur etdi ki, bu işə Peterburqun yüksək inzibatı başçılarını cəlb etsinlər və onların vasitəsilə Tağıyevin qarşısına sədd çəkilsin. Onlar öz istədiklərinə nail oldular. H.Z.Tağıyevə ancaq bez buraxmağa icazə verildi. Ilk illərdə fabrikin zərərlə işləməsi Tağıyevi məyus etmədi. Bütün şərq ölkələri öz ölülərini dəfn etmək üçün Tağıyevin bezini alırdılar. Fabrik işə düşəndən sonra Zaqafqaziyada bezin qiyməti ucuzlaşdı. Fabrikdə Kokand, Xivə, Yevlax, Mazandaran, Qəzvin, Buxara pambığından istifadə olunurdu.

1903-cü ildə müəssisənin tərkibi əhəmiyyətli dərəcədə genişləndi. Bu isə əlavə kapital qoyuluşu tələb edirdi. 1902-ci ilin yazında hər biri 1000 manatlıq 2 min və hər biri 250 manatlıq 8 min səhm buraxmaq yolu ilə cəmiyyətin əsas kapitalı 4 milyon

manatadək artırıldı. H.Z.Tağıyev yenə də səhmə nəzarət paketinin sahibi və cəmiyyətin sərəncamçı direktoru olaraq qalırdı. İdarə heyətinin direktorları isə 4 nəfər idi. Tağıyevin fabriki Qafqazda ən iri toxuculuq fabrikinə çevrilmişdi.

Müharibə illərində ticarət əməliyyatlarının ümumən pozulması fabrikin məhsuldarlığının azalmasına səbəb olmuşdur. 1917-ci ilin yanvarında toxuculuq söbəsində cəmi 525 dəzgah işləyirdi, lakin bu illərdə də fabrikin istehsalı azalmamış, 1915-ci ildə 1545 min manat olmuşdur.

1914-cü ilin yayında "H.Z.Tağıyevin birləşmiş fabriklərinin kontoru" təşkil olundu. Kontor "H.Z.Tağıyevin Bakıda lifli məmulatların emalı üzrə Qafqaz səhmdar cəmiyyəti"ni və "Kaspi manufaktura şirkəti"nin istehsal fəaliyyətini birləşdirirdi. 1914-cü ilin iyulun 5-də xaricdən 39140 manatlıq pambıq alınmışdır. Lakin 1-ci dünya müharibəsi illərində texniki bitkilərin azalması, nəqliyyat işinin pozulması nəticəsində xammal daşınması işi pisləşmişdi. Ona görə də fabrikin istehsalı azaldı. Pambıq parça sənayesi böhran keçirirdi. Hətta belə əlverişsiz şəraitdə də Tağıyevin "Kontoru" öz məhsulunun cəbhəyə göndərilməsi barədə dövlət müəssisələri ilə bir sıra müqavilələr bağlayaraq, hərbi idarələrin tələblərini yerinə yetirirdi. 1914-cü ildə ordunun ehtiyaclarını ödəmək üçün 0,5 milyon arşın paltar bezi, 195 milyon arşın parusun istehsal olundu. 1915-ci ildə 4 milyon arşın bez, 300 min arşın parusun göndərilmişdi. 1916-cı illərdə təxminən bu qədər məhsul yola salınmışdır. Bundan başqa, digər müəssisələrə də yüz minlərlə arşın parça satılmışdı. Pambıq əkmək üçün Tağıyev Yevlaxda 26 min desyatinlik torpaq sahəsini satın almışdı.

H.Z.Tağıyev 1909-cu ildə Bakı quberniya Cavad qəzasının Tataroymaq kndində pambıqtəmizləmə zavodu tikdirmişdir. Sonradan zavod genişləndirilmiş yeni avadanlıq quraşdırılmışdır.

H.Z.tağıyevin 2 elektrik stansiyası var idi. Onlardan biri toxuculuq üçün, digəri isə passayda (indiki köhnə univermaqda) tikilmişdi. İstehsal gücü az olduğu üçün bu stansiyalar onun müəssisələrinin tələbatını ödəyə bilmirdi. Tağıyev başqa elektrik stansiyalarından da istifadə etməli olurdu.

1903-cu ildə H.Z.Tağıyev un dəyirmanı satın almışdı. Lakin dəyirman quraşdırılıb işə salınmamışdır. Tağıyevin dizel matorlu vallı dəyirmanı tikildi, 1910-

cu ildə istismara verildi. Bakıdakı digər müəssisələrdə dizel mühərriki olmadığı halda Tağıyevin dəyirmanında 3 dizel mühərriki var idi. 1911-ci ildə dəyirmanın istehsal həcmi 3 milyon manatdan az olmamışdır. Burada 105 fəhlə və qulluqçu işləyirdi.

Şərabçılığın gəlirli sahə olduğunu nəzərə alan bəzi sahibkarlar üzüm plantasiyaları salırdılar. Tağıyev də Bakı quberniyasının Quba qəzasında üzüm plantasiyaları yaratmışdır. Torpaq sahibkarı M.V.Kolyubyakinin "Atlıxan Şahverdi" mülkündə (Quba şəhəri yaxınlığında) təşkil etdiyi üzümçülük-şərabçılıq təsərrüfatı (sahəsi 40 desyatin) XX yüzilliyin əvvəlində Bakı neft sənayeçiləri H.Z.Tağıyev və O.Qukosova satıldı.

1881-ci ildə balıq sənayesində iltizam sisteminin ləğvindən sonra bu sahəyə maraq artdı. 1909-cu ildə Tağıyev 655 301 manata balıq vətəgələri aldı. O, bu sahəyə 1 milyon manata qədər vəsait qoydu. Qeyd etmək lazımdır ki, Kürdə ən böyük vətəgələrdən sayılan və 1910-cu ildən ona məxsus olan "Bankə" vətəgəsinə 120 min manat qiymət qoyulurdu. Tağıyevə məxsus olub, müxtəlif yeni avadanlıqla təhciz olunmuş 30 balıq vətəgəsinin, çəllək zavodunun, vətəgələrə xidmət edən donanmasının ümumi qiyməti 6,5 milyon manat idi.

Balıq məhsullarını saxlamaq üçün H.Z.Tağıyev Dağıstan vilayətinin Petrovsk şəhərində soyuducu zavod tikdirdi. Soyuducu kameralar və buz istehsalı üçün maşınlar, hər biri 300 at qüvvəsində 2 dizel matoru 2 ammiak komprüssoru, 2 dinamo maşın, 2 elektrik matoru, buz generatoru və soyuducu qurğulara aid digər aparatların olması, bu müəssisənin texniki səviyyəsi barədə təsəvvür yaradır. Zavodda 12 fəhlə çalışırdı, xəstə qəbulu otağı var idi, xəstələr firmanın xəstəxanasına göndərilirdi. Tutulmuş balığın daşınması üçün Tağıyev elə buradaca, özünə məxsus olan vətəgələrin ehtiyacını ödəmək üçün taxta çəllək zavodu tikdirmişdi. Zavodda 12 qulluqçu və 230 günəmuzd fəhlə, ümumiyyətlə 251 nəfər çalışırdı.

Azərbaycan iqtisadiyyatının inkişafı ilə əlaqədar rabitənin teleqraf və telefon kimi müasir formaları meydana çıxdı. H.Z.Tağıyev telefon xətlərinin çəkilişinə də ilk qoşulanlardan biri oldu.

H.Z.Tağıyevin fəaliyyətində geniş yerlərdən birini torpaq sahələri ilə əməliyyatlar, ev, mülk və digər əmlakın alınması tuturdu. Yuxarıda Tağıyevin 26 min desyatinlin "Yevlax mülkü"nü alması qeyd olunmuşdur. 1900-cü ildə Mir Əhməd xan Talışxanovun mülkünü –bütün kəndləri, Ərkivan prıstavlığındakı torpaqları və Lənkəran şəhərindəki evi ilə birlikdə Tağıyevə girov qoydu. Sonradan bu mülkün sahiblik hüququnu ələ keçirən Tağıyev, onun idarəsini vəkili Hacı Hüseyn Tağıyevə tapşırdı.

H.Z.Tağıyevin başlıca fəaliyyət sahəsi, sənaye müəssisələri tikmək üçün torpaq sahələri almaqdan ibarət idi. H.Z.Tağıyev Bakıda ən iri ev sahiblərindən biri idi. Lakin tam məlumatlar olmadığından ona məxsus olan evlərin dəqiq sayını müəyyənləşdirmək mümkün deyildir.

XX yüzilliyin əvvələrində Rusiyanın bir çox şəhərlərində H.Z.Tağıyevin ticarət firmasının nümayəndəlikləri açılmışdır. Moskvada onun dördmərtəbəli ayrıca evi, İranda karvansarası var idi. Bakıda qızğın ticarət mərkəzlərindən biri Tağıyevin Passajı idi.

## BAKI TİCARƏT BANKI

Bu dövrədək Bakıda yaranmış kredit müəssisələri şəbəkəsinə 1904-1913-cü illərdə "H.Z.Tağıyev" bankir kontoru da əlavə olundu. Onun özü isə dövlət bankının uçot komitəsinin üzvü seçilmişdir. Bəzi digər Azərbaycan kapitalistləri kimi, H.Z.Tağıyev də iri Rusiya banklarının himayə etdiyi arzuolunmaz müştərilərindən birinə çevrilmişdir. Təkcə dövlət bankındakı veksellərin uçotuna görə 1907-ci ildə Tağıyevə 300 min manat kredit verilmişdir. Dövlət bankının Bakı şöbəsi H.Z.Tağıyevə verilmiş kredit barədə bildirirdi ki, "müştəriyə məxsus əmlakın dəyəri ilə müqayisədə açılmış kreditlər olduqca az hesab edilməlidir". Bu o demək idi ki, Tağıyevə daha böyük kredit vermək olardı, çünki Bankın hesablanmalarına görə, bu zaman Hacının varidatı 16 milyon manat məbləğində qiymətləndirilmişdi.

XIX yüzilliyin 90-cı illərindən ticarət və sənayenin çoşğun inkişağı ilə səhmdar kommersiya bankları sayca artdı və fəaliyyət forması dəyişdi. Özünün "H.Z.Tağıyev" adlı xüsusi bankir kontoru əsasında Bakıda tacir bankının açılması sənaye

müəssisələrini daha geniş miqyasda və bilavasitə müliyyələşdirilməsi, ilk növbədə Azərbaycan sahibkarlarına hər cür kömək göstərilməsi sahəsində Tağıyevin planlarının həyata keçirilməsi idi. Lakin bu planı ancaq birinci dünya müharibəsi ərəfəsində real surətdə həyata keçirmək mümkün oldu. Bakı tacir bankının nizamnaməsi 1913-cü ildə təsdiq edildi. Nizamnaməyə grə 20 səhm 1 həlledici səs, 50 səhm 2, 80 səhm 3, 120 səhm 4 həlledici səsə malik olmaq hüququ verirdi. Az səhm sahiblərinin də mənafeyi nəzərə alınmışdı. Məsələn, 20-dən az səhmə malik olan səhmdar 1 və daha çox səs hüququ almaq üçün ümumi ehtibarnamə üzrə öz səhmlərini birləşdirə bilərdilər.

1914-cü il aprelin 12-də Bakı tacir bankı səhmdarlarının birinci ümumi yığıncağı olmuş, burada bankın aprelin 15-də işə başlaması qərara alınmışdır.

Səhmdarların ilk ümumi qığıncağı H.Z.Tağıyevin Qorçakov küçəsindəki evində, Bankın yerləşdiyi binada keçirildi. Tağıyev yığıncağı açaraq bildirdi ki, bu vaxtadək Nizamnamənin 6-cı və 61-ci paraqraflarına uyğun olaraq, 332 səs hüququ verən bütün 12 000 səhmin pulu verilmiş və səhmdarlar kitabına salınmışdır, ümumi yığıncağa özlərinə görə və 10 053 səhmlə razılaşma üzrə 155 səsə malik olan 38 səhmdar gəlmişdir.

H.Z.Tağıyevin Tacir bankı qısa müddətdə təsisçilərin ümüdlərini doğrultdu. Onun müştərilərinin sayı kreditcə artırdı, həm də “müştərilərin xeyli faizi müsəlmanlar idi” . Volqa-Kama bankı Bakı şöbəsinin arayışında bildirilirdi ki, Tağıyev “çox varlı və kommersiya dairələrində hörmət və ehtibara malik bir adamdır. Səhmdarların 1915-ci il fevralın 15-də keçirilmiş yığıncağında H.Z.Tağıyev, Əlibəy Aşurbəyov, Ağa Muxtarov, Səfər Əliyev, Zeynalbəy Səlimxanov Bank Şurasının üzvü seçildilər. Ümumi yığıncağın qərarına əsasən və maliyyə nazirinin icazəsi ilə bank ümumi məbləği 2 mln manat olan 8 min yeni səhm buraxdı. Bu əsas kapitalın 5 mln. manatadək artırılması demək idi.

Bakı rayonunun kredit müəssisələri arasında Bakı tacir bankının səhmlərinə böyük tələbat var idi. Eyni zamanda tacir bankı da digər bankların qiymətli kağızlarına maraq göstərirdi. Məsələn: onun idarə heyəti 1916-cı il noyabrın 12-də

hər biri 149 manat 50 qəpik olan Petroqrad kommersiya bankının 5800 səhmini satın aldığını bildirirdi.

Hörmətli oxucular bütün bu yazdıqlarımızdan H.Z.Tağıyevin nece adam olduğu gün kimi aydın olur. O, nə iş görür, görsün xalqın mənafeyi ilə öz mənafeyini paralel aparır. Hətta, bəzən xalqın mənafeyini öz mənafeyindən üstün tutur. Buna misal olaraq dəyəri 20 milyon manat olan öz neft şirkətini 5 milyon manata satmasını göstərmək olar. Hacı özü qeyd edir ki, neft şirkətində yüzlərlə adam özünə çörək pulu qazanırdısa, toxuculuq fabrikində minlərlə adam özünə çörək pulu qazanır.

## AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASININ YARANMASI

1918-ci ilin yazında Azərbaycan Demokratik Respublikasının yaranması Azərbaycan xalqı qarşısında mədəni, ictimai, iqtisadi, siyasi rejimlərin dəyişdirilməsi və müstəqillik uğrunda gərgin silahlı mübarizə nəticəsində gənc dövlətin daxili vəziyyəti son dərəcə ağır idi. H.Z.Tağıyev əsl vətənpərvər kimi öz vətəninin taleyinə ürəkdən yanırdı. Bu 1919-cu ilin iyunun 29-da onu Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının sədri N.Yusifbəyliyə müraciət etməyə sövq etmişdi. Həmin məktubda Azərbaycanın iqtisadi vəziyyətinin dərin təhlili verilmiş, hökümətin maliyə siyasətinin nöqsan və qüsurları göstərilmişdir. O, yazırdı ki, "Ölkədə qayda-qanunu və ədaləti, şəxsiyyət və mülkiyyət hüquqlarına hörməti elan edən qanuni hakimiyyət bərqərar olan" bir vaxtda respublikada bürokratik təzyiqlərin və məhdudluqların bütöv bir şəbəkəsi qurulmuşdur. Bu siyasət həddən artıq girovlarda, cərimələrdə, aparılan neftin müqabilində başqa yox, hökmən bu məhsulun gətirilməsi barədə tərəddüdlərdə və i.a. öz əksini tapmışdır ki, bu da dövlətin xeyrinə ziddir. Elə bir qayda yaradılmışdır ki, mal göndərilməsi üçün verilən icazə alver və qarmaqarışıqlıq obyekti olmuş, əməliyyatın özü isə təhlukəli möhtəkirlik işinə çevrilmişdir. Nəticədə dövlətin iqtisadi müstəqiliyi üçün son dərəcə vacib olan ticarətin aktiv balansı aşağı düşmüşdür.

Bu kədərli vəziyyətdən çıxış yolunu H.Z.Tağıyev əvvəla, şəxsi təşəbbüsə geniş meydan verilməsində, ikincisi isə aparılan bütün malların haqqının hökmən Azərbaycan valyutası ilə ödənilməsində görürdü.

O, qeyd edirdi ki, "Əhalinin istismarina qarşı ən yaxşı təminat öz təbiəti etibarı ilə, ancaq möhtəkirlik və sui-istifadə törədən qadağan sistemi deyil, azad bir rəqabətdir". Qadağan sisteminin sənaye və ticarətin inkişafına necə fəlakətli nəticələrə gətirdiyini görən Tağıyev ticarət və sənaye idarələrinin siyasəti ilə müəssisələrin üzərinə qoyulan bütün məhdudiyyətlərin aradan qaldırılmasını məsələnin yeganə düzgün həlli hesab edirdi. Firmalara öz məhsulunun sərəncamçısı kimi qanuni hüquqlar vermək lazımdır.

Axırda H.Z Tağıyev yazırdı ki, onu hökümətin başçısına müraciət etməyə vadar edən tacir və sənayeçi kimi şəxsi marağı deyil, "Səmimi vətənpərvərlik hissi və belə bir inamdır ki, dövlətin möhkəmliyi onun həqiqi siyasi müstəqilliyi əsasında mümkündür. Siyasi mənada azad vətəndaşlar, azad sənaye və ticarət olacaqlar". H.Z. Tağıyevin hökümətin başçısına açıq məktub yazmaqda məqsədi yeni yaranmış dövlətə maddi kömək etmək və qayda qanun yaradılması arzusunda olamsıdır.

Məlumdur ki, Hacı yazı-pozu bilməzdi. İmzasını yazmağı güclə öyrənmişdir."T"və "Z" hərflərini birtəhər yazıb , doqquz dənə xətt çəkərdi. Ancaq onun güclü yaddaşı vardı. O, fars, ərəb, fransız, və rus dillərində çıxan qəzetləri oxutdurar, tərcümə etdirər və əsas faktları yadında saxlardı, hansı məqalənin hansı qəzet və jurnalda olmasını dəqiq yadında saxlayar və savadlı adamlarla mübahisəyə girərdi.

XIX yüzilliyin yetmişinci illərində heç kimin tanımadığı hacı qısa müddətdə 80-ci illərdə nəinki Azərbaycanda, hətta onun hüdudlarından çox uzaqlarda, Rusiyanın ucqar yerlərində, bütün Yaxın Şərqdə tanındı, məşhurlaşdı. Nəinki XX yüzilliyin Azərbaycan, Bakı mətbuatında, hətta onun sərhədlərindən çox-çox uzaqlarda olan mətbuat səhifələrində öz əksini tapmışdı. Biz bu kitab üzərində işi onun haqqında həmin mətbuat orqanlarında öz əksini tapmış yazıları verməklə tamamlamaq istəyirik.

Böyük rus dramaturqu A.N. Ostrovski 1888-ci ildəki, səyahətindən sonra H.Z. Tağıyevi çox ağıllı adam, böyük rus alimi D. Mendeleyev isə onu təvazökar xadim, ağıllı və ehtiyatlı adam adlandırmışdır.

N. Nərimanov 1900-cü ildə çap olunmuş ("Hacının 50 illik məişəti və caamata xidmətləri") və 1903-cü ildə Orucov qardaşlarının mətbəəsində Azərbaycan və fars dillərində çıxan "sərvət və səxavətdə məşhur Hacı Zeynalabdin Tağıyevin tərcümeyi-əhvalı", Tağıyevə gələn məktub, teleqram və təbriklərin toplandığı, 1904-1906-ci illərdə çap olunmuş 2 cildlik "Hümamül rical" kitabını vərəqlədikcə Hacı zəhmətkeş, vətənpərvər, humanist, maarifpərvər, yetim-yesirin dadına çatan bir insan kimi gözlərimiz önündə canlanır.

O zaman hacının səxavətinə mahnılar da qoşmuşdular. Budur onlardan biri:

Hacı Zeynalabdin
Xoş bəndədir xudaya
Açıb dügü anbarın
Paylayır füqaraya

Hacı məhz bu insani xüsusiyyətləri ilə başqalarından fərqlənirdi. Varlandıqca onun daxili və mənəvi keyfiyyətləri daha da durulurdu. Tağıyev heç zaman özünü cəmiyyətdən xaric hiss etməmişdir. O, ətrafında baş verən hadisələrin həmişə mərkəzində olmağa çalışmışdır. XX əsrin əvvəllərində Bakının tarixində ele bir tarixi hadisə olmamışdır ki, H.Z. Tağıyev orada birinci şəxs kimi çıxış etməsin. Maarif və mədəniyyət məsələləri onu daha çox narahat edirdi. Şəhərin abadlaşması və su ilə təhcizi Tağıyevi hər zaman düşündürürdü. "Təzə həyat " qəzetinin 10 aprel 1907-ci il tarixli 8-ci nömrəsində Haşım bəy Vəzirov Hacının fəaliyyətindən danişaraq yazırdı: "Hacı Zeynalabdin Tağıyevin müsəlman milləti üçün elədiyi xidmətlərini durub burada bir-bir saymaq fikrinə düşsək, heç olmasa bir ay qəzetimizi, ancaq bu təfsilatla doldursaq, yenə hamısını deyə bilmərik."

H.Z Tağıyev böyük şəxsiyyət idi. Öz şəxsi ləyaqəti ilə də hamının nəzərində yüksəlmşdi. "Baku" qəzeti 1912-ci il 18 mart tarixli məqalələrinin birində belə yazırdı: "Tağıyev bütün Qafqaz müsəlmanlarının fəxridir. Onun adı həmişə ehtiram və məhəbbətlə çəkilir. Müsəlmanlar arasında Tağıyevdən başqa xeyli varlı müsəlmanlar da vardı. Lakin, onlar deyil, məhz Tağıyev Qafqaz müsəlmanlarının mərkəz dayağı oldu. Şübhəsiz, onda elə bir cəhət var ki, xalq kütləsini özünə çəkir, öz ləyaqəti ilə onları zəbt edə bilir". Sonra qəzet bu cəhətin mahiyyətini açaraq, sözünə

davam edirdi: "Qoy elə bilməsinlər ki, Tağıyevi xoşbəxtlik yüksəkliklərə qaldırmış, milyonlara çatdırmışdır. Doğrudur, bəxt və uğur böyük işdir, lakin, uğurdan başqa ağıl da, güc də lazımdır, dəmir inadkarlıq, insan əməyi də lazımdır.

Bakıya qonaq gəlmiş səyyah və yazıçılar da H.Z. Tağıyev haqqında xoş sözlər söyləmişlər. XIX əsrin axırlarında Bakıda olmuş Şair Zeynalabdin Marağayi özünün "İbrahim bəyin səyahət"ində yazırdı: "Deyilənə görə Bakıdakı müsəlman tacirlərdən bəzisinin bir neçə milyon sərvəti vardır. Bunların içərisində H.Z. Tağıyev öz dindarlığı və səxavəti ilə hamının hörmətini qazanmışdır. Danışırlar ki, o, müsəlmanlarının maariflənməsi tərəfdarıdır, xeyriyyə işləri ilə məşğul olur və islamın ən qızğın tərəfdarlarındandır. Allah belə müsəlmanları bizə çox görməsin."

Keçən əsrin 90-cı illərində Hindistandan İngiltərəyə gedən bir ingilis zadəganı Hacının qonağı olmuşdur. O, Hacının insanpərvərliyinə və vətənpərvərliyinə elə valeh olmuşdur ki, vətənə qayıtdıqdan sonra İngiltərənin edinburq şəhərində öz pulu ilə Hacının abidəsini ucaltmışdır.

Farnsanın görkəmli coğrafiyaşünası Baron de Bey 1901-ci ildə çap etdirdiyi "Tatarların yanında" adl kitabında Bakının tarixi abidələri və görkəmli şəxsiyyətləri barədə geniş məlumat vermişdi. Həmin kitabın bir nüsxəsinin üstündə alim yazmışdı: "Hacı cənablarına son dərəcə hörmət əlaməti olaraq təqdim edirəm. Boron de Bey. 30 avqust-12 sentyabr, 1901-ci il."

"Baku" qəzetinin 9 mart 1912-ci il tarixli nömrəsində Hacının bütün Rusiyadakı şöhrətindən danışan jurnalist yazırdı: "Bütün Rusiya Tağıyevi tanıyır. Yalnız Moskvada, Peterburqda deyil, hər hansı yerə gəldikdə, orada söhbət Qafqazdan, Bakıdan düşdükdə, sizə mütləq deyəcəklər:

-Hə, hə...Tağıyev yaşayan yer"

Tağıyevin Rusiyanın hər bucağında belə tanınması onun milyonları sayəsində idimi? Qətiyyən yox, Hacı haqqında rəy söyləyənlər birinci növbədə onun milyonları barədə deyil, insanpərvərliyi və maarifpərvərliyi, xalqa əl tutması haqqında ağızdolusu söhbət açırdılar. 1912-ci il mart ayında "Baku"qəzeti yazırdı: "Tağıyev bütün Qafqaz müsəlmanlarının fəxridir. Onun adı həmişə ehtiram və məhəbbətlə

çəkilir. O, müsəlmanlrın qeyri-rəsmi hökümdarıdır. Bu hökmranlıq və qüdrətin, bu tanınmanın sirri nədədir? Sərvətdəmi? Halbuki, müsəlmanlar arsında ondan da dövlətliləri var. Lakin, onlar deyil məhz Tağıyev Qafqazda mərkəzi fiqura olmuşdur."

Adi bənna, savadsız azərbaycanlı olan Tağıyev xalqın ən aşağı təbəqəsindən çıxaraq ucalmış, böyük, parlaq, orijinal bir şəxsiyyətdir. O, böyük kamal və enerji sahibidir.

Məlumdur ki, 1912-ci ilin mart-aprel aylarında Tağıyevlə mühəndis Behbudov arasında baş vermiş bir əhvalat əsasında məhkəmə prosesi olmuşdu. Bu kiçik daxil ailə məsələsi idi. Hacının düşmənləri ilk növbədə erməni varlıları tərəfindən Hacını rüsvay etmək məqsədilə qızışdırlmışdır. Uzun sürən məhkəmə prosesindən sonra Hacı bəraət qazanmışdı. Böyük sensasiyaya səbəb olan bu hadisə ilə əlaqədar Duma üzvü, ədliyyə vəkili V.İ.Maklanov belə yazırdı: "Bakıya çağrıldıqda mənə dedilər ki, bu iş Tağıyevin əleyhinə düzəldilmiş intriqadan başqa bir şey deyildir. Tağıyev özlüyündə ictimai bir xadim, müsəlmanların xeyixahi kimi hər cür müdafiəyə layiqdir. Proses zamanı heç bir şahid, hətta Behbudovun dostları belə Tağıyev barəsində pis danışmırdılar.

H.Z.Tağıyev 1908-ci il fevralın 12-də "Təzə həyat" qəzetində nəşr etdirdiyi "Mənim təcrübəmdən" məqləsində yazırdı ki, "Kasıb olduqları üçün atamdan və anamdan məhəbbət və nəvazişdən başqa bir şey görməmişəm və indiki vəziyyətimə görə bu məhəbbətə və nəvazişə borcluyam. Mənim ən çox sevdiyim iş mənim sənaye işimlə yanaşı, mən belə hesab edirəm ki, bundan da artıq məni öz xalqımın məsələləri, onun gələcək xoşbəxtliyi və həyatının davamı məşğul edir. Bu məqsədə nail olmaq üçün, mən belə hesab edirəm ki, xalqımın tərbiyyəsi və maariflənməsi lazımdır. Xalqımın maariflənməsi və tərbiyylənməsi zərurətini görərək, mən qüvvəm çatana qədər kömək etməkdən çəkinmədim. Bunu isə kiçik uşaqların tərbiyyəsi və maariflənməsində, böyüklər üçün isə kitab və qəzetlərin nəşrində gördüm. Bu işə qayğı göstərdim və göstərməkdə davam edəcəyəm. Söylədiklərimə yekun vuraraq mən həqiqətən də başa düşdüm ki, xalqın gələcək xoşbəxtliyi, dəyanəti və irəliləyişi ana qucağının tərbiyyəsi ilə bağlıdır"

H.Z.Tağıyevin çox təvaze ilə söylədiyi bu sözlər, onun fəaliyyətinin cüzi bir hissəsini əks etdirir. Qədir bilən xalqımız, nəhayət, özünün böyük oğluna qəlbinin ən dərin güşəsində gizlətməyə məcbur olduğu böyük minnətdarlığı nümayiş etdirmək imkanı əldə etmişdir.

Xalq arasında "el atası" adı ilə tanınan məşhur maarifpərvər milyonçu, messenat Hacı Zeynalabdin tağıyevin adını əbədiləşdirmək məqsədilə Mərdəkanda dəfn olunduğu qəbirstanda abidə ucaldılmış, keçmiş Nasosnu qəsəbəsinə, Bakı şəhərindəki vaxtilə yaşayış evi (indiki Azərbaycan tarixi muzeyi) olan küçəyə, Mərdəkan qəsəbəsində bir küçəyə, Mərdəkanda tikdirdiyi məktəbə (indiki 123 nömrəli məktəb) onun adı verilmişdir. Son zamanlarda H.Z. Tağıyev xeyriyyə cəmiyyəti yaradılmış, adına mükafatlar təyin olunmuş, bir sıra digər tədbirlər həyata keçirilmişdir.

## SON SÖZ

Xalqımızın böyük oğlu həmişə ürəklərdə yaşayan, məşhur azərbaycanlı milyonçu, messenat Rusiya imperiyasının həqiqi dövlət müşaviri, müsəlman şərqində ilk qızlar məktəbinin (Tağıyev qızlar məktəbi) yaradıcısı, maarifpərvər. Xeyriyyəçi insan olan H.Z. Tağıyev haqqında kitab yazmaq mənim çoxdanki arzum idi. Lakin, müəyyən əsaslı səbəblər üzündən bu iş xeyli gecikmişdir.

Bildiyimiz kimi, Tağıyev həm neftxuda, həm dəyirman sahibi, həm fabrikant, həm böyük balıq sənayeçisi (bütün Kür ətrafı və Xəzər qırağı vətəgələr onun ixtiyarında idi), həm bankir, həm də ticarət və yük gəmilərinin sahibi idi. Quba tərəfdə Atlıxanda, Yevlax tərəfdə böyük meşələri vardı. Ənzəli və Rəşt ərazisində də Hacının meşələri, böyük malikanəsi, binaları və nümayəndəliyi, başqa şəhərlərdə, o cümlədən Moskvada 4 mərtəbəli iri sarayı, İranda karvansaraları vardı.

Yuxarıda qeyd etdiyim kimi H.Z.Tağıyev haqqında kitab yazmaq mənim çoxdankı arzum idi. Nəhayət bu il mən arzumu həyata keçirməli oldum. Kitabı yazarkən aşağıdakı ədəbiyyatlardan istifadə etmişəm. 1. Azərbaycan tarixindən yüz şəxsiyyət. 2. Azərbaycan xalq Cümhuriyyəti ensiklopediyası. 3. Hacı Zeynalabdin tağıyev adlı kitabdan. 4. El atası kitabından. 5. Bakı milyonçuları kitabından və sair.

Elə böyük Şəxsiyyət haqqında oxuculara bəzi məlumatları verə bilmişəmsə özümü xoşbəxt sayaram. Kitaba qiyməti əlbəttə oxucularım verəcəkdir. Bu kitab mənim oxucularla 11-ci görüşümdür. Mən KİVİHİ-nin və Azərbaycan yazıçılar birliyinin üzvüyəm. Qızıl qələm və xalqın nüfuzlu ziyalısı fəxri diplomları ilə təltif olunmuşam.

## ƏŞİR BƏŞIROĞLUNUN NƏŞR OLUNMUŞ KİTABLARININ SİYAHISI

| *Sıra N-si* | *Kitabın adı* | *Nəşriyyatın adı* | *Nəşr tarixi* | *Səhifə* | *Nüsxə* |
|---|---|---|---|---|---|
| 1 | Xatirəyə dönən günlər | Memar nəşriyyatı | 2005 | 225 | 300 |
| 2 | İşıqlı şəxsiyyətlər unudulmur | Memar nəşriyyatı | 2006 | 300 | 500 |
| 3 | Dağlar ağladı | Min bir mahnı nəşriyyatı | 2007 | 340 | 300 |
| 4 | Mətanət | Hərbi nəşriyyatı | 2008 | 184 | 250 |
| 5 | Mənim ana dilim | Hərbi nəşriyyatı | 2008 | 196 | 300 |
| 6 | Yarımçıq ömür | Hərbi nəşriyyatı | 2008 | 176 | 400 |
| 7 | Nəbi yurdu | Hərbi nəşriyyatı | 2009 | 420 | 300 |
| 8 | Qəm karvanı | Hərbi nəşriyyatı | 2011 | 424 | 300 |
| 9 | Dünya düzəlməz | Təknur nəşriyyatı | 2011 | 304 | 250 |
| 10 | Pələng, şir və ayı | Təknur nəşriyyatı | 2012 | 370 | 300 |
| 11 | Hamının sevimlisi | Təknur nəşriyyatı | 2012 | 200 | 250 |

*İnternet ünvanı: www.anl.az*